2 mart 2018-ci il
№08 (8774)

www.muallim.edu.az
muallim@edu.gov.az

AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

Bu sayımızda

“Plagiat akademik mühiti ruhdan salır”
⇨səh.5

Pedaqoq hazırlamaq üçün pedaqoq
⇨səh.7

Fərqli və əlaqəli iş məktəbə uğur gətirir
⇨səh.9

Avropalı şagirdlərin sevimli kitabları
⇨səh.11

Təhsil işçilərinin əməkhaqları artırılıb

Sərəncam orta hesabla 240 min nəfərə şamil edilir

Prezident İlham Əliyev fevralın 28-də “Təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında” sərəncam imzalayıb. Sərəncama əsasən, ali təhsil müəssisələri istisna olmaqla dövlət büdcəsindən maliyyələşdirilən bütün təhsil müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşları bu il martın 1-dən orta hesabla 10 faiz artırılıb. Təxmini hesablamalara görə, artımdan 240 minədək təhsil işçisi faydalanacaq.

Əməkhaqqı artımı ilə bağlı imzalanmış son sərəncam təhsil işçilərinə qayğının, onların maddi rifah halının durmadan yüksəldilməsinin dövlətin daim diqqət mərkəzində olduğunu bir daha sübut edir. Qeyd edək ki, son illərdə ölkəmizdə təhsil işçilərinin əməkhaqları bir neçə dəfə artırılıb. Bu baxımdan Prezident İlham Əliyevin “Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında” 16 yanvar 2015-ci il tarixli 994 nömrəli sərəncamı bu istiqamətdə atılmış ən mühüm addım kimi dəyərləndirilə bilər. Məhz həmin sərəncamla qeyd edilən kateqoriyadan olan müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşı 2 dəfə artırılıb.

⇨**Ardı səh.3**

Azərbaycan Texniki Universitetinin alimlərindən yeni ixtira

25 faizədək enerjiyə qənaət olunacaq, faydalı iş əmsalı 6 faizədək artacaq

Azərbaycan Texniki Universitetinin (AzTU) alimləri - elmi-tədqiqat işlərinin planlaşdırılması və ETİ şöbəsinin müdiri İslam İslamov, AzTU-nun nəzdində fəaliyyət göstərən “Maşınşünaslıq” Elmi-Tədqiqat İnstitutunun direktoru Ayaz Abdullayev, Maşınların konstruksiya edilməsi kafedrasının müdiri Əli Nəcəfov bütün sənaye sahələrinin maşın aqreqatlarında istifadə olunacaq yeniliyə imza atıblar. Onlar ixtira etdikləri yeni reduktorla faydalı iş əmsalının 6 faiz artırılmasına, elektrik mühərrikinin gücünün 25 faiz qənaətinə nail olublar.

Yeni ixtira bu həftə Azərbaycan ictimaiyyətinə də təqdim olunub. Alimlər reduktorun sənayenin ayrı-ayrı sahələrində tətbiqindən danışıblar.

Uğurlu sınaq və müsbət nəticə

AzTU-nun Maşınların konstruksiya edilməsi kafedrasında müxtəlif istiqamətdə elmi-tədqiqat işləri aparılır. Son zamanlar isə iki önəmli ixtira üzərində çalışıblar. Aparılan elmi-tədqiqat işləri nəticəsində mancanaq dəzgahları, mancanaq dəzgahlarında və digər sahələrdə istifadə oluna biləcək reduktorlar hazırlayıblar. Reduktor və mancanaq dəzgahının müxtəlif variantda laborator nümunələrini yaradıb su quyusunda sınaqdan keçiriblər. Əldə olunan nəticə bu ixtiranın neftçıxarmada da uğur qazanacağına ümid verib. Odur ki, bu yeniliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Pirallahı qəsəbəsində “Abşeronneft” neft və qazçıxarma idarəsində fəaliyyətini dayandırmış bir neft quyusunda sınaqdan çıxarıblar. Reduktor altı ay müddətində uğurla sınaqdan keçib və müsbət nəticələr verib.

Bəs, onlar mövcud mexanizmlərə nəyi əlavə edib?

Azərbaycanlı alimlər 5 pilləli və 6 valdan ibarət klassik ötürücü mexanizmlər-reduktorlarda valların sayını azaldaraq 2-yə endirməyə nail olublar.

⇨**Ardı səh.4**

“Azərbaycanlıların soyqırımı yüz ilin yaddaşında”

Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən və artıq bir ənənəyə çevrilən “Novruz mühazirələri” bu il ilk dəfə fevralın 27-də Şamaxı şəhərində başlanğıc götürüb. “Azərbaycanlıların soyqırımı yüz ilin yaddaşında” mövzusunda keçirilən “Novruz mühazirəsi”ndə təhsil nazirinin müavini Firudin Qurbanov, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, ölkəmizin ali məktəblərində təhsil alan 30 əcnəbi tələbə, təhsil ekspertləri və KİV nümayəndələri iştirak edib.

Öncə iştirakçılar Şamaxıda ümummilli lider Heydər Əliyevin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə gül dəstələri qoyublar. Sonra rayon mərkəzində soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə ziyarət edilib.

1918-ci ildə Şamaxıda soyqırımı zamanı ən böyük qırğınların törədildiyi Cümə məscidinə də gedən iştirakçılara burada ermənilər tərəfindən törədilən dəhşətli qətldən danışılıb. Bildirilib ki, 1918-ci ildə erməni vəhşiliyindən qorunmaq üçün məscidə sığınan günahsız əhalinin, təxminən, 1700 nəfəri məhz bu məsciddə vəhşicəsinə qətlə yetirilib. 1300 ilə yaxın tarixi olan, lakin soyqırımı zamanı ciddi ziyan dəymiş tarixi mədəniyyət abidəsinin 2013-cü ildə Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı bərpa edildiyi də diqqətə çatdırılıb.

Tədbir Şamaxı şəhəri İncəsənət Təhsili Mərkəzində davam etdirilib. Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev çıxış edərək 1918-ci ilin mart ayında Şamaxıda törədilən soyqırımı faktlarından danışıb.

⇨**Ardı səh.3**

Gələcəyin peşələri

Oksforddan olan araşdırmaçı-alimlərin fikrincə, yaxın 20 il ərzində hazırda mövcud olan peşələrin 47%-i sıradan çıxacaq. Dünyada olduqca sürətli və radikal dəyişikliklər baş verir. Hazırda yaşayan insanların əksəriyyəti ixtisaslarını dəyişməli, təkmilləşməli olacaq. Onlar hətta xarici görünüşlərinə belə, “korrektələr” etmək reallığı ilə üzləşəcəklər. Müasir texnologiyalar buna imkan verir. İnsanlar tək öz aralarında deyil, həmçinin robotlar və kompüterlərlə də rəqabətdə yaşayacaqlar. İş o yerə gəlib çıxacaq ki, insan yeni gerçəkliyə uyğunlaşmaq üçün həm zəkasını, həm məsuliyyət hissini, həm də ətrafda baş verənlərə reaksiyasını itiləşdirmək məcburiyyətində qalacaq. “Komsomolskaya pravda” qəzetinin yazdığına görə, gələcək peşələr əsasən bu sahələri əhatə edəcək: pilotsuz avtosənaye, 3D-çap, əlavə edilmiş reallıq, neyrointerfeys, robot texnikası, gen mühəndisliyi, bərpa olunan enerji mənbələri, havanın idarəedilməsi sistemləri.

Hər bir əsr bəşər tarixində yeni kəşflər və imkanlarla yadda qalıb. XXI əsr nəinki istisna deyil, güman ki, bu yüzillik özünün sürətli yenilikləri və amansız rəqabəti ilə bəşər tarixinin ən miqyaslı çevriliş dövrü olacaq. Bu əsrə qədəm qoyan kimi hər birimiz yeni texnologiyaların inkişafı, qlobal kompüterləşmə və tibbi kəşflərin şahidi olduq və oluruq. Paralel olaraq insanlar ciddi ekoloji kataklizmlər və psixoloji problemlərlə üz-üzə qalıblar. Bütün bunlardan irəli gələrək ehtimal etmək olar ki, gələcəyin peşələri əsas etibarilə məhz bu sahələri əhatə edəcək: gen mühəndisliyi, robot texnologiyası, psixologiya, ekologiya, kosmos. Hə, əsas sahəni də unutmayaq: nə qədər ki, insan yaşayır, ona qidalanmaq lazımdır. Deməli, aqrar sfera da aktual olaraq qalacaq.

Proqnozlara görə, hazırda aşağı siniflərdə təhsil alan şagirdlərin 50%-nin gələcəkdə yiyələnəcəyi peşələr bu gün bizlərə məlum deyil. Britaniya alimlərinin gələcəyin fəaliyyət sahələrinə dair öz proqnozları var. Onların fikrincə, aşağıdakı peşələr təqribən 2030-cu ildə reallığa çevrilə bilər:

- Süni orqanların yaradılması üzrə mütəxəssis;
- Kosmik memar;
- Təbiət dəyişiklikləri üzrə mütəxəssis;
- Alternativ nəqliyyat üzrə mütəxəssis;
- Sosial şəbəkələrdə sosial işçi və psixoloq;
- İnformasiyanın utilizasiyası üzrə mütəxəssis;
- Yaddaşın artırılması üzrə ixtisaslaşmış cərrah;
- Elmi etika üzrə mütəxəssis;
- Ahıl insanların problemləri üzrə məsləhətçi;
- Karantin mütəxəssisi;
- Zaman bankı brokeri.

⇨**Ardı səh.12**

“O məktəbdə məktəblinin dostu var?”

2016-2017-ci tədris ilində start götürən ən uğurlu layihələrdən biri də “Məktəblinin dostu” oldu. Hazırda “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na uyğun olaraq Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 32 ümumi təhsil müəssisəsində pilot olaraq həyata keçirilən layihə bu müddət ərzində gündəmə məktəbdə təhlükəsiz mühit yaratmağa xidmət edən yeniliklərlə gəlib. Bu günlərdə Bakının 20 nömrəli məktəb-liseyində valideynlər, məktəb rəhbərliyi və ictimaiyyət nümayəndələri ilə təşkil olunan qeyri-ənənəvi görüşlə layihə daha bir yeniliyə möhür vurdu.

Çay süfrəsi arxasında səmimi şəraitdə qurulan söhbəti layihənin rəhbəri Rüstəm Ağayev açıb. O, Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə tərəfdaşlığı ilə 32 məktəbdə fəaliyyət göstərən “Məktəblinin dostu” layihəsinin fəaliyyətdə olduğu bir ildə əldə etdiklərinə nəzər salıb. R.Ağayev bildirib ki, layihə Azərbaycanda şagirdlərin 4 faizini əhatə edir. Məktəblərdə müdaxilə etdikləri 1544 mübahisə faktı olub. Onlardan 152-si müəllimlərlə şagirdlər arasında, 1372-si şagirdlə şagird arasında baş verib. 2186 dəfə məktəbdə şagirdlərə tibbi yardım göstərilib, 5 məktəbli ölümdən qurtarılıb, cəmi 104 hadisədə təcili tibbi yardım çağırılıb. 5 məktəbdə yanğının qarşısı alınıb.

⇨**Ardı səh.7**

İdeyaların yeni ünvanı: ADA İnnovasiya Mərkəzi

Rəşad Əliyev:
“Məqsədimiz Azərbaycanda startap və kiçik biznesin inkişafına töhfə verməkdir”

Səh.6

Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün aylıq məbləği 2018-ci il martın 1-dən 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 fevral 2018-ci il

Doktorantlar, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdləri, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələri üçün müəyyən edilmiş təqaüdlərin artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq tələbələrin və şagirdlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. Doktorantlar, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdləri, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələri üçün Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 30 avqust tarixli 3108 nömrəli Sərəncamı ilə müəyyən edilmiş təqaüdlərin aylıq məbləği 2018-ci il martın 1-dən 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 fevral 2018-ci il

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12, maddə 2313) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bənddə “29.0.15-ci,” sözlərindən sonra “29.0.16-cı (“Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət tərəfindən yaradılan ali təhsil müəssisələrinin nizamnamələrinin, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, təsdiq edilməsi üzrə),” sözləri əlavə edilsin;

1.2. 2.8-ci bənddə “29.0.16-cı” sözlərindən sonrakı mötərizədə “nizamnamələri Azərbaycan Respublikasının Prezidenti” sözlərindən sonra “və Azərbaycan Respublikasının Nazirlər Kabineti” sözləri əlavə edilsin;

1.3. 2.11-ci bəndin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

“2.12. “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət tərəfindən yaradılan ali təhsil müəssisələrinin təsisçisinin:

2.12.1. nizamnamənin təsdiq edilməsi və nizamnamə fondunun miqdarının müəyyən olunması üzrə səlahiyyətlərini, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti;

2.12.2. strukturun təsdiq edilməsi, inkişaf istiqamətlərinin müəyyən edilməsi, illik maliyyə hesabatlarının təsdiq edilməsi, təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi, xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri publik hüquqi şəxsin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi üzrə səlahiyyətlərini tabeliyində dövlət ali təhsil müəssisələri yaradılan icra hakimiyyəti orqanları həyata keçirirlər.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 fevral 2018-ci il

Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

1. 2017-ci ildə quraşdırılmış modul tipli 44 təhsil müəssisəsinin (siyahı əlavə olunur) qazlaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 830000 (səkkiz yüz otuz min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 fevral 2018-ci il

2017-ci ildə quraşdırılmış, qazlaşdırılması nəzərdə tutulan modul tipli 44 təhsil müəssisəsinin siyahısı

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 fevral tarixli Sərəncamına Əlavə

Sıra №-si	Təhsil müəssisələrinin adları	Ayrılan vəsait
1	Ağdaş rayonu Pirəyir kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	17 800
2	Ağdaş rayonu Qumlaq kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbi	14 890
3	Ağdaş rayonu Zeynəddin kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 940
4	Ağstafa rayonu Kolayır kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbi	14 030
5	Ağsu rayonu Göydəlləkli kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 640
6	Ağsu rayonu Hacman kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	17 820
7	Balakən rayonu Salban kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbi	18 760
8	Balakən rayonu Sarıbulaq kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	18 990
9	Bərdə rayonu Qaratəpə kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 520
10	Gədəbəy rayonu Köhnəkənd kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	70 200
11	Göyçay rayonu Alıkənd kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	17 880
12	Göygöl rayonu Xaşabağ kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 640
13	Kürdəmir rayonu Çöl-Ərəb kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbi	18 050
14	Kürdəmir rayonu Pirəköçə kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	16 700
15	Kürdəmir rayonu Yeni Şıxımlı kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	17 230
16	Masallı rayonu Meşəkənar kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 110
17	Neftçala rayonu Tatarməhlə kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 700
18	Oğuz rayonu Qarabaldır kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	18 000
19	Oğuz rayonu Yemişənli kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 820
20	Qax rayonu Əmircan kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 940
21	Qazax rayonu Abbasbəyli kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbi	17 460
22	Quba rayonu Cağacıq kənd 56 şagird yerlik modul tipli ibtidai orta məktəbi	17 410
23	Quba rayonu Kürkün kənd 40 şagird yerlik modul tipli ümumi məktəbi	17 650
24	Qusar rayonu Nəcəfkənd kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	17 270
25	Qusar rayonu Sudur Palasa kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	14 740
26	Qusar rayonu Üzdən oba kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 940
27	Qusar rayonu Zuxul kənd 40 şagird yerlik modul tipli ümumi məktəbi	17 820
28	Sabirabad rayonu Qəfərli kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	17 950
29	Şabran rayonu Xırdaoymaq kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	20 540
30	Şamaxı rayonu Nağaraxana kənd 96 şagird yerlik modul tipli tam orta məktəbi	17 460
31	Şamaxı şəhəri 8 nömrəli 40 şagird yerlik modul tipli ibtidai məktəbi	17 350
32	Şəki rayonu Fazil kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi	18 790
33	Şəmkir rayonu Hacalılar kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi	18 050
34	Şəmkir rayonu Qaranüy kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 230
35	Tərtər rayonu Bayandur kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	18 840
36	Tərtər rayonu Poladlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 940
37	Ucar rayonu Bərgüşad kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 710
38	Xaçmaz rayonu Çılğır kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 940
39	Xaçmaz rayonu Gəncəli kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 820
40	Xızı rayonu Baxışlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 750
41	Yevlax rayonu Marzıllı kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi	17 430
42	Zaqatala rayonu Höytala kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbi	18 510
43	Zərdab rayonu Alıcanlı kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	17 820
44	Zərdab rayonu Burunlu kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi	18 920
	Cəmi	**830 000**

Təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq təhsil müəssisələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində (ali təhsil müəssisələri istisna olmaqla) çalışan işçilərin aylıq vəzifə maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 fevral 2018-ci il

Dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 fevral 2018-ci il

Təhsil işçilərinin əməkhaqları artırılıb

Sərəncam orta hesabla 240 min nəfərə şamil edilir

⇦ Əvvəli səh.1

Mərhələlərlə həyata keçirilən və ölkənin bütün dövlət ümumtəhsil müəssisələrində çalışan müəllimləri əhatə edən diaqnostik qiymətləndirmə nəticəsində 140000-dək müəllimin əmək haqqı artıb. Dövlət başçısının mərkəzləşdirilmiş müsabiqə yolu ilə dövlət ümumi təhsil müəssisələrinə işə qəbul olunan müəllimlərin diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərlə bərabər tutulması haqqındakı müvafiq sərəncamına əsasən isə bu artım ötən il mərkəzləşdirilmiş imtahandan uğurla keçib işə qəbul olunan 6 minə yaxın müəllimə də şamil olunub və onlar artıq bu ilin yanvarından əməkhaqlarını artımla alırlar.

Təhsil işçilərinin əməkhaqlarının artırılması, mükafatlandırılması, fəxri adlarla təltif edilməsi, eləcə də müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan digər addımlar təhsil sahəsində çalışanlar üçün böyük stimul olmaqla, təbii ki, məsuliyyəti də artırır və onlar dövlətin bu qayğısına öz sahələrində daha keyfiyyətlə işləməklə cavab verməyə səy göstərirlər.

UNEC hədəfə doğru inamla irəliləyir

Elmi Şuranın növbəti iclası

Şurada UNEC İctimai Nəzarət Şurasının üzvləri də iştirak edib. UNEC-in rektoru, professor Ədalət Muradov qış imtahan sessiyasının obyektiv və şəffaf keçirilməsində göstərdiyi dəstəyə görə şura üzvlərinə təşəkkür edib. Bildirib ki, UNEC İctimai Nəzarət Şurası universitetdə bütün tədris boyu fəaliyyət göstərəcək və bir ixtisasın idarəetməsi tamamilə ona həvalə olunacaq.

İclasda UNEC-in tədris və təlim texnologiyaları üzrə prorektoru, professor Damət Bağırov qış imtahan sessiyasının yekunlarına dair hesabatla çıxış edib. Prorektor qış imtahan sessiyasında ötən illərlə müqayisədə daha yüksək nəticələr əldə edildiyini bildirib. "İqtisadiyyata giriş" fənninin ilk dəfə olaraq yazılı keçirilməsinə diqqət çəkən prorektor tələbələrin 53%-nin bu imtahanları yaxşı və əla qiymətlərlə başa vurduğunu müsbət hal kimi qiymətləndirib.

Sonra UNEC İctimai Nəzarət Şurasının koordinatoru, "XXI əsr" Təhsil Mərkəzi İB-nin rəhbəri Etibar Əliyev şura üzvlərinin UNEC-də üç imtahan sessiyasını izlədiklərinə diqqət çəkib. O, imtahanlarda obyektivlik və şəffaflığın təmin edilməsini yüksək qiymətləndirib: "Müşahidələrimizi təhlil edəndə görürük ki, UNEC hər dəfə ötən illə müqayisədə qarşıya qoyduğu hədəfə doğru daha da inamla irəliləyir".

E.Əliyev qış imtahan sessiyasında UNEC İctimai Nəzarət Şurasının tələbələr arasında keçirdiyi anonim rəy sorğusunun nəticələrini də açıqlayıb. Bildirib ki, 10 sualdan ibarət sorğuda respondentlərin imtahanların təşkili, obyektivliyin təmin olunması, tədris prosesinin gedişi, sualların keyfiyyəti və tədris olunan mövzularla uyğunluğu, imtahanların yazılı keçirilməsi, tələbə məmnuniyyəti ilə bağlı münasibətləri öyrənilib. E.Əliyev sorğunun nəticələrinə əsasən, tələbələrin UNEC-də tətbiq edilən islahatları yüksək qiymətləndirdiyini qeyd edib.

Elmi Şurada UNEC-in tədqiqatyönümlü universitetə çevrilməsi istiqamətində həyata keçirilən tədbirlər müzakirə olunub. Bu istiqamətdə məqsədyönlü addımların atılması üçün qərara alınıb ki, Elm və İnnovasiyalar Mərkəzi ilə Elm şöbəsi ləğv edilərək, onların bazasında Elmi fəaliyyətin təşkili və idarəedilməsi departamenti yaradılsın. Eyni zamanda, müəllimlərin elmi maraqlarını nəzərə alaraq, UNEC-də Monetar İqtisadiyyat Elmi Tədqiqat Mərkəzi, İqtisadi Klinika və Xanım Tədqiqatçılar Şurası yaradılmasına qərar veriblər. Beynəlxalq Əməkdaşlıq Departamentinin tərkibində Layihələrin idarəedilməsi şöbəsi yaradılıb. Əlilliyi olan tələbələr üçün mərkəzin adı isə İnklüziv təhsilin inkişafı mərkəzi ilə əvəz edilib.

İhsan Doğramacının xatirəsi kollecdə anılıb

Yusif ƏLİYEV

Fevralın 23-də ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində dünyaşöhrətli alim, məşhur pediatr, Azərbaycan xalqının böyük dostu, professor İhsan Doğramacının vəfatının 8-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Öncə tədris ocağının foyesində tələbələrin əl işlərindən ibarət sərgi nümayiş olunub. Azərbaycan və Türkiyənin dövlət himnlərinin ifası ilə başlayan tədbiri kollecin tədris işləri üzrə direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru Məhbubə Məmmədova açaraq qonaqları təqdim edib və tədbirin mahiyyəti haqqında qısa açıqlama verib.

Kollecin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov görkəmli alimin həyat və yaradıcılığı barədə söz açıb. Azərbaycan və Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafındakı rolundan bəhs edib.

Tədbirdə qonaq qismində iştirak edən Türkiyə Böyükelçiliyinin təhsil üzrə müşaviri Abdulğafur Böyükfırat, Bilkent Universitetinin bölgə ölkələri kurs proqramları direktoru, professor Rasim Özyürek, AMEA Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu, BDU-nun kafedra müdiri, professor Ramiz Əskər, ADPU-nun dekanı, dosent Şahin Pənahov çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Türkiyənin tanınmış elm nümayəndələrindən biri, ictimai-siyasi xadim İhsan Doğramacı 2000-ci ildə Azərbaycanın "İstiqlal" ordeni, 2005-ci ildə isə ən ali mükafat olan "Heydər Əliyev" ordeni ilə təltif olunub. Həmçinin o, dünyanın bir sıra ölkələrinin və beynəlxalq təşkilatların nüfuzlu mükafatlarına da layiq görülüb.

Tədbirdə İ.Doğramacının həyatından, ictimai-siyasi fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub. Tələbələrin ifasında səslənən musiqili kompozisiya tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Sonda qonaqlara xatirə hədiyyələri təqdim olunub.

"Azərbaycanlıların soyqırımı yüz ilin yaddaşında"

Əcnəbi tələbələrin iştirakı ilə Şamaxıda "Novruz mühazirələri"

⇦ Əvvəli səh.1

Niyazi RƏHİMOV

Tədbirin Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından əhəmiyyətli olduğunu deyən A.Ağayev şamaxılıların bu dəhşətli soyqırımını unutmadıqlarını, vaxtaşırı bununla bağlı tədbirlərin təşkil olunduğunu diqqətə çatdırıb.

Təhsil nazirinin müavini Firudin Qurbanov ermənilərin tarix boyu azərbaycanlılara qarşı həyata keçirdiyi məkrli siyasətindən danışıb. O bildirib ki, əcnəbi tələbələrin bu hadisələrlə bağlı həqiqətləri yerində, öz gözləri ilə görməsi çox vacib bir amildir. Nazir müavini tədbirin keçirilməsində əsas məqsədin Azərbaycan Respublikası Prezidentinin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncamına uyğun olaraq, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri cinayətlər barədə həqiqətlərin dünya ictimaiyyətinə daha dolğun çatdırılması, əcnəbi tələbələrin bununla bağlı məlumatlandırılması olduğunu bildirib.

Daha sonra tarix elmləri doktoru, professor Anar İsgəndərov "Azərbaycanlıların soyqırımı: yüz ilin yaddaşında" mövzusunda mühazirə ilə çıxış edib. Real faktlara, tarixi sənədlərə və arxiv materiallarına əsaslanan məruzədə erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı təcavüzü nəticəsində yüz minlərlə insanın qətlə yetirildiyi qeyd olunub, əsrin əvvəlində baş verən soyqırımının əsrin sonunda bir daha təkrar olunduğu diqqətə çatdırılıb. Həmçinin tarix boyu xalqımıza qarşı törədilən soyqırımı, deportasiya və etnik təmizləmə siyasətindən danışılıb.

Tədbirin sonunda əcnəbi tələbələrin səfər haqqında təəssüratlarını öyrəndik.

"Biz bu səfər çərçivəsində həqiqətləri öyrəndik"

Bakı Dövlət Universitetinin Pakistandan olan tələbəsi Athar Mahmud bizimlə söhbətində bildirib ki, səfər müddətində Azərbaycan xalqının ermənilər tərəfindən nə qədər təcavüzlərə məruz qaldığının şahidi olub. Bu kimi halların insanlığa qarşı törədilən ən böyük cinayət olduğunu deyib: "Biz bu səfər çərçivəsində həqiqətləri öyrəndik. Bundan başqa, Azərbaycanın nə qədər qədim mədəniyyət ocaqlarından biri olduğunu öz gözlərimizlə gördük. Bir insan kimi dünyada sülh olmasını, heç bir xalqın Azərbaycan xalqının üzləşdiyi kimi təcavüzlərə məruz qalmamasını arzulayıram".

"Müharibələrin vurduğu psixi-mənəvi zərbələrin izi isə heç vaxt silinmir"

Bakı Musiqi Akademiyasının Rusiyadan olan tələbəsi Aminat Axmedova da Şamaxıya ilk dəfə səfər etdiyini və bölgənin zəngin tarixə məxsus olduğunu deyib: "Bu səfərdən öncə ermənilərin bu qədər qəddar, amansız olduğunu bilmirdim. Təsəvvürüm yalnız Xocalı faciəsi haqqında idi. İndi bildim ki, Xocalı faciəsinə bənzər bir təcavüz 100 il bundan qabaq da Azərbaycan xalqının başına gətirilib. Bunun üçün çox təəssüf hissi keçirirəm. Bilirsiniz, müharibələr, təcavüzlər tarixdə bir dəfə olur, lakin onun fəsadları, insanlara vurduğu psixi-mənəvi zərbələrin izi isə heç vaxt silinmir".

"Burada eşitdiklərimi çalışacağam ki, ətrafımdakılarla paylaşım"

Rəssamlıq Akademiyasının latviyalı tələbəsi Viktoriya Razminoviç də tədbirin təsirində olduğunu və ermənilərin törətdikləri cinayətləri qınadığını bildirib. Viktoriya bu günlərdə Xocalı faciəsi ilə də bağlı keçirilən tədbirlərdə iştirak etdiyini və geniş məlumat aldığını deyib: "Mən başa düşə bilmirəm ki, bir xalqa qarşı digər bir xalq bu qədər də zülm edər. Axı bu nəyə lazımdır! Burada eşitdiklərimi çalışacağam ki, dostlarım və ətrafımdakılarla paylaşım. Düşünürəm ki, tarixin silinməz izlərində qalan bu kimi vəhşilikləri dünya ictimaiyyəti bilməlidir. Ona görə bilməlidirlər ki, tarixdə bu və ya buna bənzər amansız qətllər bir daha olmasın".

"Qədim məscidin ermənilər tərəfindən dağıdılması çox üzücüdür"

Azərbaycan Dövlət İqtisad Universitetinin Nigeriyadan olan tələbəsi Fayehun Tomido artıq Təhsil Nazirliyi tərəfindən bölgələrə təşkil olunan ikinci səfərdə iştirak etdiyini deyir. O, təxminən bir il bundan qabaq Azərbaycanın işğaldan azad olunan Cocuq Mərcanlı kəndində olduğunu və bu səfərlər nəticəsində ölkəmiz haqqında ətraflı məlumat əldə etdiyini bildirir: "Bugünkü mühazirədə mən bir daha əmin oldum ki, xalqınız çoxlu sayda təcavüzlərə məruz qalıb. Şamaxıda gördüyüm soyqırımı abidəsi, buradakı qədim məscidin ermənilər tərəfindən dağıdılması mənim üçün çox üzücüdür. Professorun mühazirə zamanı tarixi sənədlər əsasında söylədikləri nitq ermənilərin nə qədər qəsbkar, təcavüzkar olduğunu bir daha sübut etdi".

"Bu hadisələr haqqında az da olsa məlumatlı idim"

Özbəkistandan olan Khamro-Begzod Nosirov da bizimlə fikirlərini bölüşüb. O, Qərb Universitetində oxuduğunu və bu səfərin onun xatirəsində həmişə qalacağını deyib: "Biz bu gün Azərbaycan tarixinin bilmədiyimiz məqamları ilə daha yaxından tanış olduq. Erməni vəhşiliklərinin törədildiyi yerləri gördük. Mən Azərbaycana gəlməmişdən öncə bu hadisələr haqqında az da olsa məlumatlı idim. Atam türklərə qarşı törədilən cinayətlərlə bağlı böyük bir kitabın müəllifidir. Mən həmin kitabı düz iki dəfə oxumuşam. Atamın kitabında da burda danışılanların demək olar ki, eynisi yazılıb. Biz bu faciələrin Özbəkistanda da olduğunun şahidiyik. Məsələn, 90-cı illərdə Özbəkistanın Fərqanə şəhərində törədilən qətlləri buna misal göstərmək olar. Demək istəyirəm ki, təcavüzə məruz qalan xalqlar belə qətllərin çox ağır olduğunu digərlərindən daha yaxşı başa düşür".

Texniki yardım layihəsinin İdarəetmə Komitəsinin üçüncü iclası

Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyində "Azərbaycanda Peşə Təhsili və Təliminin (PTT) İnkişafına Avropa İttifaqının Dəstəyi" texniki yardım layihəsinin İdarəetmə Komitəsinin üçüncü iclası keçirilib. Təhsil Nazirliyinin, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və Təhsil İnstitutunun əməkdaşlarının, beynəlxalq və yerli ekspertlərin iştirakı ilə keçirilən iclasda Avropa İttifaqının texniki yardım layihəsinin ikinci aralıq hesabatı dinlənilib. Həmçinin növbəti hesabat dövrünə qədər layihə çərçivəsində icrası nəzərdə tutulan fəaliyyətin əlaqələndirilməsi müzakirə edilib və gələcək tədbirlər planı nəzərdən keçirilib.

Layihənin qrup rəhbəri Herman Sonneveld ikinci aralıq hesabatı dövründə Peşə Təhsili üzrə Dövlət Agentliyi və maraqlı tərəflərlə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş işlər, növbəti hesabat müddətinə qədər planlaşdırılan tədbirlərə dair məruzə ilə çıxış edib.

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdir müavini Pərviz Yusifov, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayev, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin Əməkdaşlıq şöbəsinin müdiri Yerun Villems, nümayəndəliyin əməkdaşı Rza Zülfüqarzadə və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının əməkdaşı Kristina Məmmədova çıxış edərək layihənin icra vəziyyətinə dair fikirlərini bildiriblər.

Azərbaycan Texniki Universitetinin alimlərindən yeni ixtira

25 faizədək enerjiyə qənaət olunacaq, faydalı iş əmsalı 6 faizədək artacaq

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Ancaq bununla reduktorun ötürücülük qabiliyyəti nəinki aşağı düşüb, əksinə, daha da böyüyüb. AzTU-nun nəzdində fəaliyyət göstərən “Maşınşünaslıq” Elmi-Tədqiqat İnstitutunun direktoru Ayaz Abdullayev qeyd edib ki, onların ötürmə gücünü mövcud ölçü içərisində istənilən qədər artırmaq mümkün olur: “Müqayisə üçün deyim ki, mövcud reduktorların ötürmə gücü 40, yeni reduktorun isə 64-dür. Ruslar o vaxt ötürmənin faizini artırmaq üçün bir neçə yola əl atsa da, uğurlu ola bilməmişdi. Bizim təklif etdiyimiz qurğu vasitəsilə istənilən ötürmə nisbətini almaq mümkündür”.

AzTU-nun Maşınların konstruksiya edilməsi kafedrasının müdiri Əli Nəcəfov dəzgahın istifadəsi zamanı əldə edilən qənaətə diqqət çəkib: “25 faizədək enerjiyə qənaət olunacaq, ştanqların effektivliyi azalacaq, faydalı iş əmsalı 6 faizədək artacaq. Yaradılmış mancanaq dəzgahı daha yaxşı dinamiki xassələrə malikdir, çünki dirsək müntəzəm fırlanır, balansirli mancanaq dəzgahlarından fərqli olaraq tarazlaşmamış kütlələr və dayağa üfüqi istiqamətdə təsir edən və işarəsini dəyişən qüvvələr yoxdur. Eyni zamanda quyunun vadisi ilə daha yaxşı mərkəzlənmə təmin edilir, titrəmələr və dinamiki yüklər xeyli azalır”.

Onun sözlərinə görə, neftçıxarma sənayesində istifadə olunan mexaniki intiqalı kimi müxtəlif ölçülü mancanaq dəzgahları indiyədək heç dəyişməyib və ştanqlı nasosların keyfiyyətli işləməsini tam təmin etmir: “Balansirli mövcud mancanaq dəzgahlarının bir çox çatışmazlığı var. Məsələn, quraşdırma və quyunun təmiri zamanı böyük çətinliklər yaradır, kiçik faydalı iş əmsalına malikdir, istifadəsi böyük enerji hesabına baş verir. Yeni mancanaq dəzgahının yeni kiçik metal tutumlu qabarit ölçüləri, yüksək faydalı iş əmsalı, yüksək etibarlılığı və maya dəyərinin aşağı olması əsas üstünlüyüdür”.

Alimlər deyir ki, bərabər şərtlər saxlanılmaqla neft quyularının istismarında istifadə olunan mancanaq dəzgahları ilə müqayisədə təklif edilən konstruksiyanın metal tutumu 20-30 faiz azalır və istismar göstəriciləri xeyli yaxşılaşır.

Harda tətbiq ediləcək?

Ə.Nəcəfov bildirib ki, qurğu neft sənayesində sınaqdan çıxarılsa da, onun müdafiə sənayesində, hətta ayrı-ayrı sənaye sahələrində istifadəsi mümkündür. İxtira olunan reduktorlar mancanaq dəzgahlarında, tanklarda, liftlərin qapı intiqalında, helikopterlərin baş reduktorlarında tətbiq edilə bilər.



Professor bu üstünlükləri ilə ixtiranın ölkə iqtisadiyyatı üçün böyük töhfə verə biləcəyini deyir: “Ötən əsrin əvvəllərində istismara verilmiş mancanaq dəzgahları hələ də dəyişdirilməyib. Odur ki, onların yeni konstruksiyasını təklif edirik. Bu dəyişiklik bir çox üstünlük verir. Məsələn, bu qurğu imkan verir ki, hər quyu üçün 20-30 faiz enerji və metala qənaət olunsun. Nəzərə alsaq ki, Bakı ətrafında hazırda çalışan 10 minlərlə dəzgah var, bu da ölkə üçün böyük iqtisadi səmərədir. Yaxud elektrik mühərrikinin tələb olunan gücünü 25 faizədək azaldır. Bu faiz göstəricisinin nə qədər böyük rəqəm olduğunu təsəvvür etməyiniz üçün deyim ki, dünyada mancanaq dəzgahlarının istifadəsi üçün elektrik enerjisinə sərf olunan vəsait 450 milyard dollara yaxınlaşır. Mövcud dəzgahlar 24 saat çalışır və dayanması iqtisadi itkilərə səbəb olur. Pirallahıda qurğumuz 6 ay müddətində dayanmadan işlədi. Üstəlik, bir məsələ də var ki, yeni dəzgah dayansa da, yenidən işləməsi üçün mövcud dəzgahlarda tələb olunan enerji itkisi baş verməyəcək”.

Mancanaq dəzgahlarının yeni forması 23 ixtiradan biridir

Bu ixtiranın nə ilk, nə də son olmadığını vurğulayan AzTU-nun elmi-tədqiqat işlərinin planlaşdırılması və elmi-texniki informasiya şöbəsinin müdiri, dosent İslam İslamov bildirib ki, AzTU-nun “Maşınların konstruksiya edilməsi” kafedrasının alimləri son illərdə 23-dən çox müxtəlif ixtira reallaşdırıb-lar. Hazırda universitetdə elmi fəaliyyət 35 kafedrada, 1 elmi mərkəzdə və 9 elmi-tədqiqat laboratoriyasında 11 istiqamət üzrə yerinə yetirilir. 2017-ci ildə AzTU-da aparılan elmi-tədqiqatlar nəticəsində sənaye, istehsalat üçün vacib olan 38 elmi nəticə əldə edilib.

Həmin nəticələrdə tələbələrinin də əməyinin olduğunu deyən dosentin sözlərinə görə, mancanaq dəzgahı üzərində işdə 3 magistr və 1 bakalavr iştirak edib.

Ümumiyyətlə, universitetin elmi fəaliyyətinin geniş spektri əhatə etdiyini deyən İ.İslamov bu istiqamətlərdən ən əsasının patent-lisenziya fəaliyyəti olduğunu söyləyib. Hətta patent-lisenziya fəaliyyəti üçün AzTU-da xüsusi şöbə də yaradılıb.

Mancanaq dəzgahı dünyaya səs salıb...

Beləliklə, “Maşınların konstruksiya edilməsi” kafedrası və “Maşınşünaslıq” Elmi-Tədqiqat Mərkəzinin əməkdaşları son dövrlər etdikləri ixtiraların siyahısına birini də daxil ediblər. Elə bir ixtira ki, artıq dünyada “ən yaxşı ixtira” olaraq əks-səda doğurub. Professor A.Abdullayev bu barədə danışarkən deyib: “Əvvəlcə heç özümüz də inanmırdıq ki, bunu biz işlək formaya sala bilərik. Şübhəylə yanaşdığımız üçün ilk növbədə qurğunu laborator şəraitdə yaratdıq və müşahidədən keçirdik. Gördük ki, tam işləyir. Bu reduktorların mexanizmi imkan verir ki, qurğunun faydalı iş əmsalı 6 faizə kimi artsın”.

Amma artıq ixtiralarına nəinki özləri, dünyada da inanırlar: “Almaniyada yeni ixtiramızın təqdimatını edəndə, bunu əvvəlcə cəfəngiyat hesab elədilər. Daha sonra qurğu təqdim olundu və tədbirin sonunda bir çox şirkətin əməkdaşları yaxınlaşaraq bizimlə işləmək istədiklərini bildirdilər”.

Professor Ə.Nəcəfov bu yaxınlarda ixtiranı Küveytdə də təqdim edib. Onun sözlərinə görə, yeni qurğu neft ölkələrinin böyük marağına səbəb olub: “Bu yaxınlarda Küveytdə keçirilən 10-cu beynəlxalq sərgidə qurğunun təqdimatını etdim. Çox böyük maraq doğurdu. Xarici alimlər, ərəb iş adamları bizim stendə yaxınlaşaraq bildirdilər ki, sərgidə gördükləri ən böyük ixtira bizimkidir. Təqdimatdan sonra Oman Əmirliyindən təklif gəldi, daha sonra Ukraynanın helikopter istehsal edən şirkəti bizimlə maraqlanıb və helikopterin baş reduktorunun düzəldilməsini sifariş etdi. Hazırda onun üzərində işləyirik”.

...ancaq Azərbaycan bazarına çıxa bilmir

Öz ixtirasıyla yerli bazara daha çox xeyir vermək istəsə də, azərbaycanlı alimlərin bu istəyi hələlik baş tutmur: “Bəzi qurumlar məlumatlandırılıb, bəzilərini də məlumatlandırmağa çalışırıq. İmkanımız var ki, ölkə iqtisadiyyatı üçün müxtəlif sahələrdə kömək edək. Ancaq xaricdən təkliflər artır və artıq biz onlara yox deyə bilmirik”.

Azərbaycandan gələn yeganə təklifin isə ömrü uzun olmayıb. Professor Pirallahıda həyata keçirilən 6 aylıq layihəni nəzərdə tutaraq deyib: “Quyu işlək deyildi, ancaq biz onu yenidən bərpa etdik. Təəssüflər olsun ki, orada biganəliklə qarşılaşdıq. Buna baxmayaraq, işimizin öhdəsindən uğurla gələ bildik. Qurğumuz bu sınaqdan uğurla çıxdı. Ancaq layihə dayanmalı oldu. Neftin qiyməti son zamanlar aşağı düşdüyü üçün neft şirkəti bu sahədə aktivlik göstərə bilmir”.

Alimlərin ən böyük problemi

Azərbaycan şirkətlərində müşahidə olunan qeyri-fəallıq alimlərin işinə təsirsiz ötüşmür. Bu barədə AzTU alimləri ən böyük problemlərindən danışarkən qeyd ediblər. Onların sözlərinə görə, elmi fəaliyyətlərini dövlət büdcəsi, təsərrüfat və qrant hesabına həyata keçirsələr də, alına bilən nəticələrin kommersiyalaşdırılması mövcud böyük problemlərindən biridir. AzTU əməkdaşları ixtira etdikləri məhsulu bazara çıxarmaq üçün mətbuatın və ictimaiyyətin dəstəyinə ehtiyac duyduqlarını da vurğulayıblar. Onların fikrincə, dünyada ilk mancanaq qurğusu Azərbaycanda yaradılıb. İndi universitetin alimləri yeni reduktor və icralı balansirsiz mancanaq dəzgahlarının bir neçə yeni orijinal konstruktiv həllini yaradıb. İxtiralar hazırlanıb və sınaqdan keçirilib. Üstəlik, dünyada da böyük uğur qazanıb. Bircə qalıb bu yenilikdən bəhrələnmək. Azərbaycanlı alimlər Küveytin neft oliqarxlarının sifarişi ilə mancanaq dəzgahı, Ukrayna şirkətinə helikopter üçün baş reduktor hazırlamaqdan öncə, Azərbaycan sənayesinin inkişafında iştirak edib, ölkə iqtisadiyyatına töhfə vermək istəyir.

Ümid edirik, bu gözləntiləri tezliklə nəticə verər.

“Bir əsrin xatirəsi”

100 yaşlı 162 nömrəli məktəb

Şakir CƏFƏROV

Bakı şəhəri şəhid Etibar Əliyev adına 162 nömrəli tam orta məktəbin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. “Bir əsrin xatirəsi” adlı tədbir məktəbin həyətində şəhid Etibar Əliyevin barelyefinin açılışı ilə başlayıb.

Açılışda şəhidin atası Allahverdi Əliyev oğlunun adını daşıyan təhsil müəssisəsinin 100 ildir ki, uğurla fəaliyyət göstərməsindən böyük qürur hissi keçirdiyini bildirib.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Sevinc Abbasova, qonaqlara 100 ildir fəaliyyət göstərən təhsil müəssisəsinin keçdiyi inkişaf yolu və bu müddət ərzində qazandığı uğurlar barədə məlumat verib. Direktor qeyd edib ki, 162 nömrəli tam orta məktəb 1917-ci ildə Bakı milyonçusu Murtuza Muxtarov tərəfindən yaradılmış qız məktəbi kimi məşhur olub.

O, məktəbin təcrübəli pedaqoji kollektivinin olduğunu, müəllimlərin səylə çalışdığını, şagirdlərin bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasında əvəzsiz xidmətlər göstərdiyini qeyd edib.

Tədbirdə çıxış edən BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva məktəb kollektivini 100 illik yubiley münasibətilə təbrik edib, onlara işlərində müvəffəqiyyətlər arzulayıb.

M.Vəliyeva Cümhuriyyətimizin yaşıdı olan təhsil müəssisəsinin kifayət qədər zəngin inkişaf yolu keçdiyini bildirib. İdarə müdiri qeyd edib ki, paytaxtın təhsil həyatında özünəməxsus ənənələrilə fərqlənən məktəbin tədris nailiyyətləri son illərdə xüsusilə yaxşılaşıb, məzunların ali məktəblərə qəbul göstəriciləri xeyli yüksəlib. Bütün bunlar onu deməyə əsas verir ki, 100 yaşlı tədris ocağı öz həyatının ikinci yüzilliyinə ciddi uğurlarla qədəm qoyur.

YAP Səbail Rayon Təşkilatının sədri, millət vəkili Şəmsəddin Hacıyev, valideynlər, vaxtı ilə bu məktəbdə işləyib, indi isə təqaüddə olan müəllimlər yubiley tədbirinə qatıldıqlarından məmnun olduqlarını bildirərək, kollektivi təbrik ediblər.

Daha sonra məktəbin şagirdləri məktəbə, vətənə, müəllimə aid şeir söyləyib, mahnı oxuyub, ədəbi- bədii kompozisiya nümayiş etdiriblər.

Sonda Bakı Şəhəri üzrə Təhsil İdarəsi və ATİAHİ Səbail rayon təşkilatı tərəfindən məktəbin pedaqoji kollektivinin bir sıra üzvünə səmərəli fəaliyyətlərinə görə Fəxri fərman və hədiyyələr təqdim olunub.

BDU-nun Hüquq fakültəsinə yeni ixtisaslaşmalar verilib

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 fevral 2018-ci il tarixli qərarı ilə Bakı Dövlət Universiteti Hüquq fakültəsinin magistratura səviyyəsinə yeni ixtisaslaşmalar əlavə edilib. Bunlar əqli mülkiyyət hüququ, tibbi hüquq, əmək və sosial təminat hüququ, inzibati hüquq, inzibati proses, iqtisadi və maliyyə hüququ, idman hüququ, turizm hüququ ixtisaslaşmalarıdır.

Qeyd edək ki, Hüquq fakültəsinin magistratura səviyyəsində tədris Azərbaycan, rus, ingilis və alman dillərində aparılır. İndiyədək 11 ixtisaslaşma üzrə kadr hazırlığı aparılan fakültədə yeni tədris ilindən qəbul 17 ixtisaslaşma üzrə aparılacaq.

SABAH tələbələrinin layihəsində iştirak etdikləri “Üzən körpü” Ginnesin Rekordlar kitabına daxil olmağa namizəddir

Azərbaycan Memarlıq və İnşaat Universitetinin memarlıq ixtisası üzrə SABAH qruplarının məzunları Yaqub Mehdiyev və Nəriman Abdinli Moskva şəhərinin məşhur “Zaryadye” parkının ərazisində inşa edilmiş “Üzən körpü” unikal piyada estakadasının layihəsində iştirak ediblər.

“Üzən körpü” estakadasının unikallığı onun konsolunun 70 metr uzunluğunda olmasıdır. Estakada Ginnesin Rekordlar kitabına daxil olmağa namizəddir.

Layihənin baş mühəndisi Azərbaycan Memarlıq və İnşaat Universitetinin SABAH müəllimi Qulam Əliyevdir.

"Plagiat akademik mühiti ruhdan salır"

Ruhiyyə DAŞSALAHLI

Əli Təhməzov: "Tələbələrə şans vermək lazımdır, onlar düşünmədən səhvlər edirlər"

Oğru həkim, oğru hakim, oğru alim, oğru mühəndis, oğru iqtisadçı... Universitetlərin ixtisaslı kadr deyil, ixtisaslı oğru hazırlaması qorxusu artıq bütün dünyanı hərəkətə gətirib. Bunun bir göstəricisi də plagiatla mübarizəsi ilə tanınan "Plagiat.pl" şirkətinin fəaliyyət coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirməsidir. Bu bəlaya dünyanın hansı hissəsi düşməyib ki? Hətta Afrikada belə, Balkanlarda,Türkiyədə fəaliyyət göstərən şirkət tezliklə Çində ofis açacaq. 2002-ci ildən fəaliyyətdə olan "Plagiat.pl" şirkətinin direktoru Əli Təhməzov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində plagiatla mübarizədə Azərbaycan universitetləri ilə əməkdaşlığından danışıb.

- Şirkətiniz 15 ildir plagiatla mübarizə aparır. Nəyə nail olmusunuz?

- Bəli, şirkətimiz 2002-ci ildə Polşada yaranıb. Varşavada İT texnologiyaları sahəsində ikisi professor olan dörd mütəxəssis tərəfindən təsis edilib. Hal-hazırda 12 ölkədə fəaliyyət göstəririk, 6 ölkədə ofislərimiz var. Təkcə Polşada 200-dən çox universitet bizimlə əməkdaşlıq edir. 15 illik fəaliyyətimiz dövründə təhsildə plagiat ilə mübarizənin əhəmiyyətini sübut edə bilmişik.

- Azərbaycanın hansı universitetləri ilə əməkdaşlıq edirsiniz?

- Azərbaycanda 2015-ci ildən filial kimi fəaliyyətə başlamışıq. *www.strikeplagiarism.com* sistemi vasitəsilə müxtəlif mənbələrlə oxşarlıqlar axtarır, həmçinin tələbə işlərini və elmi işləri yoxlayıb qiymətləndirmək məqsədilə antiplagiat prosedurlarının tətbiq edilməsi ilə bağlı konsultasiya xidmətləri göstəririk. Digər mühüm məhsul isə antiplagiat prosesini avtomatlaşdırmağı bacaran ASAP-dır (İşlərin Arxivləşdirilməsinin Akademik Sistemi). Azərbaycan postsovet məkanında əməkdaşlığa başladığımız ilk ölkədir və biz Şərqə məhz sizin ölkədən daxil olmuşuq. Azərbaycanın ali məktəblərinin yarısı ilə əməkdaşlıq edirik. Plagiat ilə mübarizədə bizi Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Xəzər Universiteti və digərləri dəstəklədi. Əlbəttə ki, bütün ölkələrdə olduğu kimi, burada da Təhsil Nazirliyinin dəstəyi olmadan missiyamızı həyata keçirmək mümkün deyil. Nazirliyin rəhbərliyi və bir çox universitet anlayır ki, bir-birimizə dəstək olmadan, bu problemi aradan qaldırmaq mümkün olmayacaq. Plagiat, xərçəng şişi kimi cəmiyyətin şüurunda dərin kök salıb və cəmiyyət onun nə olduğunu, niyə qəbul olunmadığını aydın şəkildə görə bilmir.

Elmdə fikir plagiatı: antiplagiat sistemlər onun öhdəsindən gələ bilmir

- Elmdə plagiat ilə bağlı vəziyyət necədir?

- Bildiyiniz kimi, plagiatın bir neçə növü var. Fikirlərin və mətn fraqmentlərinin plagiatı bunlardan sadəcə ikisidir. Elmdə heç bir antiplagiat sisteminin öhdəsindən gələ bilməyəcəyi bir fikir plagiatı var. Fikrin yeniliyini anlamaq üçün mütəxəssislər cəlb olunmalı və plagiat sisteminə təhlil prosesinin asanlaşdırılmasında kömək edilməlidir. MDB ölkələrində elmin yenidən formalaşdırılması bürokratiyanın və sovetizmin aradan qaldırılmasının nəticəsi olub. Universitetlərə elmi dərəcələr vermək, kimə verəcəyini müəyyən etmək səlahiyyəti verilib. Rusiyada 19 universitetin belə səlahiyyəti var. Onlar başa düşürlər ki, bu cür inkişaf etmək mümkün deyil. Təəssüf ki, Azərbaycanda bu proses dayandırıldı. Azərbaycan hələ də PhD sisteminə keçməyib, halbuki bu, bir sıra problemləri həll edə bilərdi. Biz Ali Attestasiya Komissiyasına iki ildir plagiat ilə mübarizədə kompleks tədbirlərin həyata keçirilməsində, doktorluq dissertasiyalarının saxlanılmasında və universitetin depolarında şəbəkəyə qoşulmasında köməklik göstərməyi təklif edirik. Ali Attestasiya Komissiyasının öz veb-saytında tezis dərc etməsi düzgün olardı. Azərbaycanın Ali Attestasiya Komissiyasının antiplagiat sistemindən istifadə etdiyini öyrənməkdən məmnun olduq. Ancaq bu sistem yenidənyazma ilə məşğul olur. Bəzi müəlliflərin işlərini köçürüb başqalarına sataraq, öz səhifəsində açıq şəkildə göstərir. Ali Attestasiya Komissiyasının rəhbərliyinə böyük hörmətimiz var və ümid edirik ki, bu vəziyyəti diqqətdən kənarda saxlamayacaq. Hesab edirəm ki, Azərbaycan Ali Attestasiya Komissiyası əməkdaşlığın vacibliyini başa düşür və biz onlara dissertasiyalardan ibarət məlumatlar bazası yaratmaq və dissertasiyaların plagiata dair hərtərəfli ekspertizası məsələsində dəstək verməyə hazırıq.

- Elmdə plagiatı nə ilə izah edərdiniz?

- Elmdə plagiat probleminin kökləri imtiyaz sistemində, qismən də cəmiyyətin zehniyyətindədir. Azərbaycanda, eləcə də Rumıniyada və Bolqarıstanda elm adamı olmaq nüfuzlu və maliyyə cəhətdən gəlirli hesab olunur. Rumıniyada əməkhaqqına müvafiq vəsait əlavə olunur. Elmi dərəcəsi olmadan siyasətdə irəliləmək çətindir. Amma təəssüf ki, alimlərin tələb mexanizmi yoxdur.

- Akademik bütövlüyünün yaxşılaşdırılmasının qarşısını nə alır?

- Əsasən müvafiq hüquqi çərçivənin olmaması. Ölkədə əqli mülkiyyətin qorunması sahəsində qanunvericilik yaxşıdır. Hətta yüksək ixtisaslı mütəxəssislərin işlədiyi Müəllif Hüquqları üzrə Agentlik fəaliyyət göstərir. Bu qurumun təşkil etdiyi bir müzakirəni xatırlayıram. Açıq müzakirədə universitet rektorları plagiat ilə mübarizədə istifadə olunan təcrübə və texnologiyaları bölüşmüşdülər. Düzü, Avropa Birliyində hansısa Müəllif Hüquqları üzrə Agentliyin bu missiyaya töhfə vermək arzusunda olması faktını xatırlamıram. Azərbaycanda intellektual mülkiyyətin qorunması ilə bağlı qanunvericiliyin mövcudluğuna baxmayaraq, plagiat konsepsiyası bu yaxınlarda "Təhsil haqqında" Qanuna daxil edilib. Rusiya daxil olmaqla, bütün AB ölkələrində "Təhsil haqqında" qanuna düzəlişlər qəbul edilib və həmin düzəlişlərdə minimal tələblərə cavab verən informasiya texnologiyalarından istifadə edərək geniş şəkildə yoxlamalara başlamaq tələb olunur. Keçmiş təhsil naziri Mikayıl Cabbarov plagiatla mübarizə məsələsini bir neçə dəfə qaldırmışdı. Bu istiqamətdə müvafiq qərarlar qəbul edilib və hətta bir rektora ciddi töhmət də verilib. Hesab edirəm ki, Azərbaycanda rektorlardan qəti qərarlar tələb olunur. Digər mühüm amil akademik bütövlüyün Məcəlləsinin olmaması və intizam tədbirlərinin tətbiqi deyil, elmi prosesdə informasiya texnologiyalarının zəif tətbiq olunmasıdır.

Plagiatla mübarizə: universitetlərin və dövlətlərin ona münasibəti fərqlidir

- Plagiat ilə mübarizədə hansı normalar və prosedurlar istifadə olunur? Bununla bağlı nə tövsiyə edə bilərsiniz?

- Plagiata dair tələbə işlərinin qiymətləndirilməsi və yoxlanılması prosedurları olduqca sadədir, lakin onlar mütləq maraqların toqquşmasının qarşısını almalıdır. Məsələn, tələbə işini ən azı iki nəfər qiymətləndirməlidir: bir məsləhətçi və bir nəzarətçi. Plagiat üçün işi qiymətləndirən komissiyalar mümkün qədər obyektiv olmalıdırlar. Əlbəttə ki, tələbələrə şans vermək lazımdır, çünki onlar düşünmədən səhvlər edirlər. Ən əsası isə tələbələr və müəllimlər ilə işdir. Müəllif hüquqları və məlumatlarla necə işləmək lazım olduğu onlara izah olunmalıdır. Bir neçə il bundan əvvəl "Long Island" Universitetindən professor Madrai təlimlərin müxtəlif kurs tələbələrinə təsirini araşdırıb. Bu araşdırmanın nəticəsi olaraq, tələbələr təlimin sonunda məlumatın düzgünlüyü, sitatların, plagiat formalarının və intizam tənzimləməsi mövzusunda daha yaxşı nəticələr göstərməyə başlayıblar. Azərbaycanın bəzi ali məktəblərində olduğu kimi, seçilənləri yox, bütün işləri yoxlamaq lazımdır. Biz hər bir tərəfdaş universitetdə ildə ən azı iki dəfə tələbələr və müəllimlər üçün plagiat konsepsiyası, işin qiymətləndirilmə metodologiyası və s. barədə təlimlər keçirik. Fikrimcə, belə bir iş Azərbaycanın bütün universitetləri tərəfindən həyata keçirilməlidir.

- AB, Polşa və MDB ölkələrində plagiata qarşı mübarizə necə təşkil olunur?

- Dünyada internetin akademik sahəyə daxil olması genişləndikcə, plagiatla mübarizə də şaxələnir. Tələbələr və alimlər qiraət otaqlarına getmir, bütün zəruri məlumatları internetdə axtarırlar. Hər hansı bir mövzuda iş "yazmaq" üçün yaxşı təşkilatçı firmalar var. Belə firmaları "elmi işçilərin dəyirmanı" adlandırırlar. Onlar tələbə sənədlərini, tezisləri hazırlayır və internetdə satırlar. Bu növ istehsalçıların dövriyyəsi hazırda bir neçə milyard dollar qiymətləndirilir. Azərbaycanda da belə "dəyirmanlar" var. Onları bir neçə universitetin yaxınlığında görmək olar. Bəzi universitetlər onlarla mübarizə aparır, istəmirlər ki, adları belə faktlarla hallansın. Əksəriyyət isə plagiat faktının olmadığını iddia edərək buna göz yumur. Hətta elə hallar olur ki, tələbələr və dissertantlar üçün müəllimlər iş yazıb satırlar. Bu cür hallara AB ölkələrində də rast gəlinir. Ancaq həmin ölkələrdə intellektual işin oğurlanmasına görə inzibati cəza nəzərdə tutan qanunlar da qəbul edilib. Nümunə üçün deyim ki, Polşada şirkətimiz məhkəməyə dəvət olunur və bizim antiplagiat sistemimiz vasitəsilə alınan hesabatlara dəlil kimi istinad olunur. Saxta tələbə işlərinin və elmi işlərin istehsalında iştirak edən hüquqi şəxslər cinayət məsuliyyəti daşıyırlar. MDB ölkələrində "Azad" rus plagiat sistemi çox məşhurdur və onlar bu yolla müəllifə müəyyən məbləğ qarşılığında iş yazmaq təklif edirlər. Əslində, onlar antiplagiat sistemi deyil, həmin "dəyirmanlardır", hansılar ki, müəlliflərin yoxlamaq üçün yüklədiyi işi sistemdən oğurlayaraq daha baha qiymətə satırlar. Rusiyada hüquqi vakuum sayəsində bu sistemlərlə mübarizə aparmırlar. Halbuki bu, böyük bir təhlükə deməkdir. "Köçürülmə" iş nə vaxtsa ortaya çıxarsa, həmin insan əhəmiyyətli bir mütəxəssis, yaxud alim olaraq, ömrü boyu "oğru" adını daşıyacaq. AB ölkələrində istehlakçını qoruyan ciddi qanunlar mövcuddur, buna görə şirkətin şəxsi məlumatları şifrələnir, sahibinin icazəsi olmadan məlumatların yayılması cinayət məsuliyyətinə səbəb olur. AB ölkələrində, Rusiyada və Ukraynada mübarizənin əsasında bir fikir dayanır. "Dissernet" (Rusiya), "Dissergeyt" (Ukrayna) kimi ictimai təşkilatlar, həmçinin siyasətçilər, vəzifəli şəxslər, elm adamları tezislərində haqlı olaraq bildirirlər ki, oğru alim və ya siyasətçi ola bilməz. Belə təşkilatlar xalq sağlamlığı üçün çox vacibdir.

Plagiat korrupsiya ilə bağlı deyil

- Plagiat faktına qarşı ölkələrin üstünlük verdiyi intizam tənbehi tədbirləri hansılardır?

- Bir qayda olaraq, AB ölkələrində tələbələr universitetlərdən xaric edilir. Elmi işdə plagiatın olduğu halda intellektual əməyin oğurlanmasına görə inzibati cəzadan da istifadə edilə bilər. Bütün bunlar, həm hüquqi bazalarla, həm də universitetlərin daxili prosedurları, eləcə də iqtisadi komponentlərlə bağlıdır. Bütün MDB ölkələrində oxşar vəziyyət yaşanır. Gürcüstanda korrupsiya az olduğu üçün hesab edirlər ki, universitetlərdə plagiat halları azdır və unudurlar ki, plagiat korrupsiya ilə bağlı deyil. Buna görə Gürcüstanda yalnız bu yaxınlarda "Pandora qutusu"nu açmaq qərarına gəldilər. Polşa və Rumıniya həm də antiplagiat sistemləri üçün minimum standartlar hazırlamağa qərar verdilər və məcburi yoxlamalar tələbindən sonra bir çox universitetin imitasiya ilə məşğul olduğu ortaya çıxdı. Qeyd edim ki, minimum standartlara yerli dildə bir interfeysin olması, yerli dilin tanınması, fərdi məlumatların qorunması, antiplagiat xidmətləri göstərən şirkət tərəfindən universitet üçün məlumatlar bazasının yaradılması və s. daxildir.

- Azərbaycanın ali məktəblərində hansı mənfi amillərə rast gəldiniz?

- Azərbaycanda, universitetlər xaric etmir, əksinə, işlərini düzəltmək üçün ikinci, hətta üçüncü şans verir. Tələbələrini cəzalandırmayan universitetlər çoxdur. Həmin təhsil müəssisələrində antiplagiat sistemi vasitəsilə işi "orijinal" səviyyəyə çatana qədər, qeyri-məhdud sayda sistemdən keçirməyə imkan yaradırlar. Daha əvvəl də qeyd etdiyim kimi, tələbələr şüurlu şəkildə "plagiat" etmir. Ancaq dissertasiyaların müdafiə olunmasını absurd vəziyyətə gətirmək də olmaz. Bəzi universitetlər antiplagiat xidmətlərini əldə etməyinə baxmayaraq, ondan istifadə etmir. Bəzən hansısa bəlli olmayan səbəbdən qərar verilir ki, magistr işlərinin hamısı yox, hansısa bir hissəsi yoxlanılsın və yaxud magistr işləri yoxlanılsın, amma bakalavr diplom işləri yox. Bəzi universitetlər "pulsuz" sistemlərdən istifadə edir. Hətta bu yaxınlarda bir akademiyada elmi işlər üzrə prorektor vurğuladı ki, onlar antiplagiat səviyyəsinə enən universitetlərdən deyillər. Daha bir fakt deyim: universitetlərdən birində belə bir xidmət yaranıb. Xüsusi şəxs müəyyən ödəniş qarşılığında işləri plagiatdan "təmizləyir" və sonra Ali Attestasiya Komissiyasına müdafiəyə göndərilir. Bu addımı atanlar həm də plagiata verdiyi pulu çıxartmaq istəyənlər, antiplagiat sistemi vasitəsilə qazanmaq niyyətində olanlardır. Təsəvvür edirsiniz? Biz "boz" sxemlərdə iştirak etməmək üçün əlimizdən gələni edəcəyik.

Universitetlərin reytinqi aşağıdır, səbəblərdən biri plagiatdır

- Plagiat və akademik səhvetmə təhsilin keyfiyyətinə necə təsir göstərir?

- Plagiat xərçəng şişi kimi, təmiz olan akademik mühiti ruhdan salır. Diplom və ya magistr işini yaza bilməyən tələbə diplom ala bilməz. Elmi işini oğurlayan insan bizi müalicə edə bilməz. Hakim necə hökm edə bilər, əgər o, işini oğurlayıbsa? Elm necə inkişaf edə bilər, əgər alimlər internetdən elmi iş oğurlayırsa? Universitetlərin reytinqi bir neçə səbəbdən aşağıdır, onlardan biri də məhz plagiatdır. MDB ölkələrindən olan tələbələrin ABŞ, Almaniya, Kanada universitetlərindən məhz belə faktlarla əlaqədar xaric edildikləri barədə məlumatlar var. Onlardan soruşanda ki, niyə plagiatla məşğul oldunuz, cavab verirlər ki, bizdə bu adi haldır. Ölkəyə yaradıcı mütəxəssislər lazımdır. Onları plagiatla əldə edə bilmərik.

- Azərbaycan bazarında əməkdaşlığı genişləndirməyi planlaşdırırsınızmı?

- Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən Təhsil İnstitutuna Azərbaycanın ali məktəblərində akademik dürüstlük məsələsi ilə bağlı sosioloji tədqiqat aparmağı təklif etdik. Oxşar tədqiqatlar bizim dəstəyimizlə Polşada, Rumıniyada keçirilib, həmçinin Ukraynada da hazırlayırıq. Tədqiqat ad çəkmədən cəmiyyətin akademik dürüstlüyün hansı tendensiyalarıyla qarşılaşdığını göstərir və sonda Azərbaycanda akademik dürüstlüyü yeni bir pilləyə qaldırmaq üçün nə etmək lazım olduğunu müəyyən edir. Bu yaxınlarda Təhsil Nazirliyinə Menecmentdə Korporativ idarəetmənin tətbiqi ilə bağlı konfrans keçirməyi təklif etdik. Belə bir konfrans 2017-ci ilin mayında Polşanın Ali Təhsil və Elm Nazirliyi, Rektorlar Birliyi və bizim şirkətin iştirakı ilə Varşavada keçirilib. Bizim fəaliyyətimizin genişləndirilməsi birbaşa akademik cəmiyyətin plagiat ilə mübarizəyə nə qədər hazır olduğuna bağlıdır. Daha çox kömək edə bilmək üçün əlimizdən gələni etməyə hazırıq. Bu yaxınlarda Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət xanıma sistemimizin məktəblərdə yayılması təklifi ilə müraciət etdik və ümid edirik ki, o, bizə bu sahədə kömək edəcək. Təhsil Nazirliyinə, universitetlərin rektorlarına və digərlərinə bizə inanaraq işimizdə dəstək olduqları üçün minnətdarlığımı bildirirəm.

Esse və dissertasiya yazmaq qaydaları

Azərbaycan Elm Assosiasiyası növbəti seminarını keçirib

Azərbaycan Elm Assosiasiyasının (Azerbaijan Science Association - ASA) elmin müxtəlif sahələri üzrə aktual məsələlərə dair seminarlar təşkil etməsi tələbələrimiz tərəfindən maraqla qarşılanır. Öz sahələrində müəyyən uğur əldə etmiş gənc mütəxəssislər tərəfindən keçirilən seminarlarda gənc alimlərin və mütəxəssislərin təqdimatçı qismində iştirakı da bu tədbirlərin əhatə dairəsinin və mövzularının genişliyindən xəbər verir.

Bu yaxınlarda ASA-nın təşkil etdiyi növbəti tədbirlərdən biri isə xeyli maraqlı mövzuya - esse və dissertasiya yazmaq qaydalarına həsr olunub. Azərbaycan Elm Assosiasiyasının "İB Klub" ilə birlikdə təşkil etdiyi seminarda təqdimatçı qismində "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın iştirakçıları olan Böyük Britaniyanın London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin magistrantı İnqilab Şahbazov və London İmperial Kollecinin magistrantı Orxan Kərimzadə çıxış ediblər. Tədqimatda əyani nümunələr vasitəsilə esse və dissertasiyaların yazılması qaydaları və ədəbiyyatın öyrənilməsinə dair təfərrüatlı məlumatlar iştirakçılara çatdırılıb. Sonda iştirakçılarla sorğu-sual seansı keçirilib, təlimdə əhatə edilən məsələlərin yığcam şəkildə yerləşdirildiyi vərəqlər paylanılıb.

Qeyd edək ki, Azərbaycan Elm Assosiasiyası (Azerbaijan Science Association - ASA) 2016-cı ildə bir qrup yenilikçi və təhsildə uğur əldə etmiş azərbaycanlı gənclər tərəfindən təsis olunub.

İdeyaların yeni ünvanı: ADA İnnovasiya Mərkəzi

Rəşad Əliyev: “Məqsədimiz Azərbaycanda startap və kiçik biznesin inkişafına töhfə verməkdir”

Oruc MUSTAFAYEV

Dünyanın elm və tədqiqatyönümlü ideyalara və onların tətbiq sahələrinə diqqəti günü-gündən artmaqdadır. Bu mənada innovativ ekosistemlərin və yeni düşüncəli startapların yaradılması və fəaliyyətinin stimullaşdırılması hər bir uğurlu ali təhsil müəssisəsi üçün gələcəyə hesablanmış strateji hədəflərdən hesab olunur. Elə ideyaların yeni ünvanı kimi ADA Universitetində fəaliyyətə başlayan ADA İnnovasiya Mərkəzi (ADA İnnovation Center) də startapçı tələbələrimizin təşəbbüslərinin dəstəklənməsinə yönəlib. “ADA İnnovation Center”in koordinatoru, universitetin müəllimi Rəşad Əliyev “Azərbaycan müəllimi”nə mərkəzin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verdi.

Hədəf: Tələbələri real biznes və sənaye sektoruna hazırlamaq

İnnovasiya Mərkəzinin yaradılmasında məqsəd - tələbələrin praktiki potensialını və aktivliyini gücləndirmək, biliklərin tətbiqinə imkanların yaradılması, tələbələri real biznes və sənaye sektoruna hazırlamaq, biznesin inkişafı üçün təhsil və əlaqələrin qurulmasında yardım etməkdir. ADA İnnovasiya Mərkəzi bütün ixtisaslar üçün açıqdır. Tədris ili ərzində biznes/İT və digər praktiki bacarıqların inkişafı üçün treninqlər keçirilir. Tədris ilinin 2-ci semestrində İdeya Yarışı elan olunur və 3 qalib seçilir. Bu 3 qalib və əlavə aktiv komandalara iş yeri - ofis verilir və ADA İnnovasiya Mərkəzinin rezidenti kimi qəbul edilir. Növbəti bir il ərzində bu komandalara yardım göstərilir və real prototip səviyyəsinə çıxmaları gözlənilir.

R.Əliyevin sözlərinə görə, yaxın gələcəkdə ADA Universiteti nəzdində İP (Əqli mülkiyyət) və İnvestisiya fəaliyyətləri üçün imkanların yaradılması gözlənilir. Təhsil ili ərzində ADA Foundation təşkilatı vasitəsilə tələbələr sponsorlarla tanış olur və ideyalarını paylaşmaq üçün imkanlar yaradılır. Tədris ili ərzində Azərbaycan və Qlobal startap ekosisteminin önəmli üzvləri ilə görüşlər təşkil olunur və tələbələrin iştirakı təmin olunur. ADA Universitetində daha çox startap və sahibkarlıq tədbirlərinin keçirilməsi üçün səylər göstərilir.

Tələbələrə müxtəlif formada dəstək göstəriləcək

R.Əliyevin sözlərinə görə, ali məktəbin rəhbərliyi innovasiya mərkəzi üçün lazımi maddi-texniki bazaya malik yer ayırıb. Hazırda mərkəzdə beş komanda işləyir, onlar üçün bütün şərait yaradılıb. Mərkəz “BBF”, “Barama”, “AppLab”, “SUP.AZ”, “Next Step” və s. mərkəzlərlə sıx əməkdaşlıq edir, çünki məhz onlar bu ekosistemin inkişafının zəruri bazasına malikdirlər və bazarın ehtiyaclarını bilirlər. Bu strukturlar innovasiya layihələrinin dəstəklənməsində əvəzolunmaz rol oynayırlar, onların hamısı zərurət oduqda Mərkəzə dəstək göstərirlər. “Məqsədimiz ali təhsil müəssisəsi olaraq Azərbaycanda startap və kiçik biznesin inkişafına töhfə verməkdir. İlkin olaraq daxili sistem qurub ADA tələbələri, gələcəkdə isə digər ali məktəblərin tələbələri üçün də xidmət göstərmək istəyirik. Tələbələrə müxtəlif formada dəstək göstəriləcək. Məsələn, biz tələbələr üçün biznes-təlim təşkil etmişik, gələcəkdə isə onlarla proqramlaşdırma dərsləri təşkil ediləcək. İnnovasiya mərkəzi tələbələrin təşəbbüsü ilə yaranıb, onlar sıfırdan hazır məhsulun təqdim olunmasına qədər layihələr üzərində həvəslə işləməyə hazırdırlar. Ötən il biz mobil proqramlaşdırma üzrə xüsusi dərslər keçdik. Nəticədə semestrin sonunda 15 komanda formalaşdırdıq, onlar isə məhsulların 5 müxtəlif prototipini təqdim etdilər”, - deyə R.Əliyev bildirdi. Mərkəzin koordinatoru hesab edir ki, bütün bunlar tələbələrə ixtisaslaşdırılmış təlimlərin keçirilməsi və onlara maliyyə dəstəyinin göstərilməsi üçün əsas olub.

Startaplar üçün dəstək növləri

ADA Universiteti tələbələrə ölkə və ölkədən kənarda keçirilən yarışmalara hazırlıqda yardım göstərir. İdeya yarışında qalib olanlar üçün 1000-2500 manat həcmində mükafat nəzərdə tutulub. Tələbələrin müxtəlif treninqlərə pulsuz və ya ucuz qatılma şansı, İnnovasiya Mərkəzində ofis şəraiti, ölkə və ölkədən kənar startap və Sahibkarlıq ekosisteminin əsas üzvlərinə birbaşa çıxış imkanları təmin olunur. Startapçılar şirkət rəhbərləri və sponsorlarla əlaqələr qurmaları üçün şəbəkə tədbirləri, media dəstəyi ilə təmin edilir. İnnovasiya Mərkəzində qeydiyyatdan keçmiş komandalara işçi qüvvə yığmaq üçün dəstək göstərilir. Bundan başqa, mərkəzdə keçirilən işin rəsmi praktika (İnternship) kimi tanınması, komandanın köməyə və ya yeni üzvlərə ehtiyacı olarsa ADA Məşğulluq Ofisinə müraciət edib elan yerləşdirə bilməsi təmin olunur. Elan əsasında komandaya qatılan tələbələr rəsmi təcrübə qazanmaq şansı qazanır, bu isə diplom almaq üçün çox vacibdir. Tələbələrin ölkə səviyyəli sərgilərdə iştirakı və stendlərinin qurulmasına da dəstək göstərilir.

Seçim kriteriyaları...

Tələbələrin İnnovasiya Mərkəzinə seçimi “İdeya yarışı” vasitəsilə aparılır və 1, 2, 3-cü yerləri tutan tələbələrə mükafatlar verilir. İdeya yarışında iştirak etməyib, lakin partnyor mərkəzlərdə yaxşı nəticə göstərmiş komandalar da mərkəzə qəbul olunur. Mərkəzə seçim kriteriyaları əsasən biznes (pul gətirmə qabiliyyəti) və innovasiya əsasındadır. Seçim üçün müxtəlif sahələrdən (satış, marketinq, İT, Netvorking, dizayn və s.) münsiflər (bir nəfər akademik, bir nəfər sənaye üzrə) təyin edilir. Münsiflər heyəti komandaların çıxışları ilə tanış olub qalibləri konfidensial səsvermə nəticəsində müəyyən edir.

R.Əliyev qeyd edir ki, mərkəz gənclərə biznesin qurulması və ideyalarının reallaşdırılması üçün bütün zəruri dəstəyi göstərəcək. Onun sözlərinə görə, ADA Universitetinin innovasiya mərkəzinin təcrübəsindən ölkənin başqa ali məktəbləri də yararlana biləcəklər: “Biz öz təcrübəmizi başqa ali məktəblərlə bölüşəcəyik və tələbələrə, orta məktəblərin buraxılış siniflərinin şagirdlərinə onların ideyalarının inkişafında mümkün olan bütün köməyi göstərəcəyik. Güman edirik ki, nailiyyətlərimiz təkcə bizim ali məktəbin tələbələrinə deyil, həm də ölkənin bütün gənclərinə faydalı ola bilər”.

İnnovasiya Mərkəzinin koordinatorunun sözlərindən də bəlli olduğu kimi, innovativ yeniliklərə daha çox meyilli olan ADA Universitetində tələbələrin qlobal dövrün çağırışlarına adekvat cavab verən ideya təşəbbüslərinin dəstəklənməsi istiqamətində xeyli işlər görülüb və ilkin müsbət nəticələr də əldə olunub.

UNEC-də vergi sahəsində təlim kurslarına start verilib

UNEC-də Azərbaycan Respublikası Vergilər Nazirliyinin dəstəyi ilə “Müasir vergi inzibatçılığının əsas trendləri” mövzusunda təlim kurslarına start verilib. Təlimləri vergi sahəsinin təcrübəli alim və mütəxəssisləri aparacaq.

UNEC Biznes Mərkəzinin direktoru Asəf Əsədov bildirib ki, məqsəd tələbələri müasir vergi inzibatçılığının əsas trendləri, inkişaf istiqamətləri, müasir analitik texnologiyalar barədə məlumatlandırmaq və bilik menecmenti yaxınlaşmalarının rolunu gücləndirməkdir. Təlimlərin vergi inzibatçılığı və menecmenti, vergi auditi, İKT və vergi analitikası istiqamətləri üzrə aparılacağını vurğulayan A.Əsədov sonda mövzulara uyğun imtahanların keçiriləcəyini, imtahanları uğurla verən tələbələrə isə sertifikatlar təqdim olunacağını söyləyib.

Təlimin ilk günündə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Akif Musayev vergitutmanın tarixi, əsas anlayışları, dövlət üçün əhəmiyyəti, hüquqi bazası və beynəlxalq vergitutma ilə bağlı mövzularla tələbələrə təlim keçib. Professor sonda tələbələri maraqlandıran sualları cavablandırıb.

Təlimlər martın 19-dək davam edəcək.

Həmkarlar İttifaqı ötən ilin yekunlarını müzakirə etdi

Qəzetimizin əməkdaşı da qurumun mükafatlandırdığı təşkilat rəhbərləri arasında olub

Yusif ƏLİYEV

Fevralın 28-də Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi (ATİAHİ) Rəyasət Heyətinin 2017-ci ilin yekunlarına həsr edilən genişləndirilmiş iclası keçirilib. Yığıncaqda respublikanın müxtəlif bölgələrinin, eləcə də paytaxt rayonlarının TİAHİ komitələrinin, ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbə həmkarlar ittifaqı təşkilatlarının sədrləri iştirak ediblər.

İclasın gündəliyinin müzakirəsi və təsdiqi ilə başlayan tədbirdə öncə ATİAHİ Respublika Komitəsinin şöbə müdiri Emil Rüstəmovun Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin üzv təşkilatlarının 2017-ci ilin yekunları barədə arayışı dinlənilib. Şöbə müdiri həmçinin ATİAHİ Respublika Komitəsinin 2017-ci ilə dair ümumi illik statistik hesabatının təsdiqi barədə Rəyasət Heyətinin qərarını oxuyub.

Sonra ATİAHİ Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə 2017-ci ildə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsində və üzv təşkilatlarda vətəndaşların qəbulu, ərizə və şikayətlərinə baxılmasının vəziyyəti barədə hazırlanmış arayışı yığıncaq iştirakçılarının diqqətinə çatdırıb.

Qeyd olunub ki, vətəndaşların müraciətləri 2017-ci ildə diqqət mərkəzində saxlanılıb, ATİAHİ Respublika Komitəsinə və üzv təşkilatlara daxil olan ərizə, şikayət və müraciətlərə vaxtında baxılıb, vətəndaşları narahat edən məsələlər araşdırılıb. Bu proses “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparılıb.

2017-ci il ərzində Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının üzv təşkilatlarına və Respublika Komitəsinə ittifaq üzvlərindən maddi yardım, həmkarlar ittifaqı orqanının işi, əmək hüquqlarının müdafiəsi, yollayışların alınması, müxtəlif sosial xarakterli məsələlər: müavinət, xəstəlik vərəqəsinə görə ödəniş, təqaüdün hesablanması, yataqxana ilə təminat və digər məsələlərlə əlaqədar 62125 ərizə daxil olub ki, bunlardan 58053-ü müsbət həllini tapıb.

2016-cı illə müqayisədə ötən il daxil olan ərizələrin ümumi sayında azalma baş verib. Belə ki, keçən il bu rəqəm 76816 olub.

O da diqqətə çatdırılıb ki, 2017-ci il ərzində Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının üzv təşkilatlarına ittifaq üzvlərindən daxil olan 61489 ərizə və şikayətin 57657-si müsbət həll edilib. Müraciətlərin 41501-i maddi yardım, 15489-u sosial-iqtisadi məsələlər (yollayış, müavinət, yataqxana məsələləri və s.), 2861-i həmkarlar ittifaqı orqanının işi, 1638-i isə əmək hüquqlarının müdafiəsi ilə bağlı olub. Hazırlanmış arayışda daha sonra görülən işlərin statistik təhlili aparılıb.

ATİAHİ Respublika Komitəsinin katibi, şöbə müdiri Mübariz Eyvazovun “2017-ci ilin yekunlarına görə ATİAHİ Respublika Komitəsinin büdcəsinin yerinə yetirilməsi, həmçinin ittifaq üzvlərinin müalicə və istirahətinin təmin edilməsi sahəsində görülmüş işlər barədə təqdim etdiyi məlumatlar müzakirə olunaraq müvafiq qərar qəbul edilib.

İclasda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev müzakirə olunan hər bir məsələ barədə geniş danışıb. Qeyd olunanlarla bağlı fikir və təkliflərini bildirən millət vəkili HİK sədrlərinin fəaliyyətlərində diqqət yetirməsi zəruri olan bir sıra məsələlərə də toxunub, bununla bağlı tövsiyələrini verib.

ATİAHİ Respublika Komitəsinin fəaliyyət istiqamətlərindən danışan sədr təhsil sahəsində çalışanların istər iqtisadi, sosial rifahının yaxşılaşdırılması, təhsil müəssisələrində əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sağlam, təhlükəsiz təhsil və iş şəraitinin yaradılması, istərsə də onların asudə vaxtlarının səmərəli təşkilinin bu qurumun diqqət ayırdığı ən başlıca məsələlərdən olduğunu bildirib. Qeyd olunub ki, Respublika Komitəsi öz fəaliyyətində tələbə gənclərlə aparılan işlərə də xüsusi önəm verir.

S.Möhbalıyev ATİAHİ Respublika Komitəsi tərəfindən təhsilimizin inkişafı, təhsil sahəsində çalışanların hüquq və mənafelərinin təmin edilməsi istiqamətində mühüm işlər həyata keçirildiyini deyərək rəhbərlik etdiyi qurumla Təhsil Nazirliyi arasında qurulmuş işgüzar əməkdaşlıqdan, birgə həyata keçirilən layihələrdən geniş söz açıb.

Millət vəkili Azərbaycan Prezidenti İlham Əliyevin insanların iqtisadi və sosial mənafelərinin, əmək hüquqlarının qorunması sahəsində həmkarlar ittifaqlarının roluna həmişə böyük önəm verdiyini, bu insanların əməyini layiqincə qiymətləndirdiyini məmnunluq hissi ilə vurğulayıb.

Konfederasiya sədri hazırda 1,5 milyona yaxın üzvü birləşdirən və Azərbaycanda ən böyük ictimai təşkilat olan AHİK-in V qurultayı və Konfederasiyanın 25 illik yubileyi ərəfəsində ölkə başçısı İlham Əliyevin müvafiq sərəncamları ilə həmkarlar ittifaqları təşkilatlarının 114 üzvünün fəxri adlarla təltif olunduğunu söyləyib.

Azərbaycan Prezidenti tərəfindən təltif olunanların sayının ümumilikdə 344-ə çatdığını deyən sədr bu yüksək diqqətə görə AHİK-in üzvləri adından ölkə başçısına bir daha təşəkkür edib.

Millət vəkili ATİAHİ Respublika Komitəsinin həmkarlar ittifaqları fəallarının fəaliyyətini hər zaman diqqətdə saxladığını bildirib və onlardan bir qrupunun bu gün mükafatlandırılacağını qeyd edib.

Sonra paytaxt, eləcə də respublikanın müxtəlif bölgələrindən olan bir qrup müəllim və tələbə həmkarlar ittifaqı təşkilatlarının sədrlərinə medal və fəxri fərmanlar təqdim edilib.

Qeyd edək ki, “Azərbaycan müəllimi” qəzetinin şöbə redaktoru, redaksiya Həmkarlar İttifaqı Komitəsinin sədri Samirə Hüseyn qızı Kərimova da həmkarlar ittifaqındakı xidmətlərinə görə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının yaradılmasının 25 illiyi münasibətilə təsis olunmuş yubiley medalı ilə təltif edilib.

Həmkarımızı bu münasibətlə təbrik edir, ona fəaliyyətində daha böyük uğurlar arzulayırıq.

"O məktəbdə məktəblinin dostu var?"

Pilot layihə qısa zamanda nüfuz qazanıb

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Məktəblərdə siqaret çəkmə faktları 80 faiz azalıb. 3120 münaqişənin, 52 kütləvi davanın qarşısı alınıb. 2016-2017-ci tədris ilində müəllimlər tərəfindən şagirdlərə göstərilən 47, 2017-2018-ci tədris ilində 11 mənəvi təzyiq, bu illər ərzində isə 95 fiziki təzyiq halı önlənib. Məktəblərdə 83 oğurluq, 13 spirtli içki, 27 reketçilik, 271 dəfə siqaret istifadəsi barədə fakt aşkarlanaraq tədbirlər görülüb.

Komanda işi onların uğurunun açarıdır

Layihə rəhbəri fəaliyyətdə olduğu qısa zaman kəsiyində uğur və etimad qazanmalarını ilk növbədə onlara olan ehtiyacla, bir də işini məsuliyyət və sevgi ilə yerinə yetirən etibarlı komanda ilə əsaslandırıb. Onlar 800 nəfərin arasından seçiliblər. Ən uyğun 370 nəfərin 200-ü təlimlərə cəlb edilib. Təlimləri uğurla başa vuranlar məktəblinin dostu təyin edilib. Hazırda fəaliyyətdə olan məktəblinin dostu 100-dən çoxdur. Əsasən pedaqoqlardan təşkil edilən bu komanda fəaliyyət göstərdiyi məktəblərdə iştirakçısı olduğu layihəyə böyük nüfuz qazandırıb.

R.Ağayev qeyd edib ki, Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə reallaşdırdığı layihənin məqsədi tədris prosesinin sağlam, təhlükəsiz, əlverişli psixoloji mühitdə təşkil edilməsi, valideynlərin övladlarının təhsil şəraiti barədə məlumatlılığının və məmnunluğunun artırılmasıdır.

Azərbaycan təhsil sistemində ilk dəfə olaraq gerçəkləşdirilən "Məktəblinin dostu" layihəsi dünyanın müxtəlif ölkələrində müxtəlif adlarla sınaqdan çıxarılıb. Burada əsas hədəf məktəb-təhsilalan-valideyn üçbucağının tərəfləri arasında üfüqi ünsiyyətin qurulması və hədəf olaraq təhsilalana özünügerçəkləşdirmə imkanları yaratmaqdır. Bu məqsədlə layihə çərçivəsində məktəblərin pedaqoji kollektivləri ilə maarifləndirmə diaqnostik işlər aparılıb, şagirdlərin hər yaş mərhələsində şəxsi və intellektual inkişafına, həmçinin asudə vaxtlarının səmərəli təşkil edilməsinə kömək etməyə cəhd göstərilib.

Məhəbbət Vəliyeva: "Məktəbdə məktəblinin dostuna ehtiyac var"

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva layihə fəaliyyətə başlayanda məktəblərdə olan vəziyyətlə indiki münasibəti müqayisə edib. Bir çox məktəb direktorunun layihəyə fərqli münasibətinə toxunaraq deyib ki, onlar gənclərin məktəbə gəlib prosesə müdaxilə etməsini qəbul edə bilmirdilər: "Artıq vəziyyət dəyişib və görünən odur ki, məktəbdə məktəblinin dostuna ehtiyac var".

M.Vəliyeva vurğulayıb ki, layihənin həyata keçirilmədiyi məktəblərdə vəziyyət pis deyil, ancaq onlar məktəblinin dostu olan məktəblər qədər də təhlükəsiz deyillər: "Biz müəllimlərdən dərs vaxtı şagirdi sinifdən buraxmamağı tələb edirik. Ancaq bunu da həmişə etmək olmur. Uşaqlar sinifdən çıxdıqda isə təhlükəsiz görünən şəraitdə belə gözlənilməz hallar yaşanır. Dünənə qədər məktəbin ərazisi kimi gördüyümüz ərazilərdə nə qədər böyük təhlükələrin gizlənə biləcəyini nəzərə almırıq. Bəzi faktlardan sonra hətta direktorlar etiraf edir ki, məktəbində belə ərazinin olacağı, faktın yaşanacağı heç vaxt ağlına gəlməzdi".

Məktəblinin dostunun olduğu məktəblərdə nəzarətdən kənar ərazilərin qalmadığını vurğulayan M.Vəliyeva deyib ki, uşağını məktəbə qoymaq istəyən valideynlərin ilk sualı belə olur: "O məktəbdə məktəblinin dostu var?".

Məktəbdə məktəblinin dostunun yaratdığı fərq

Tədbirdə iştirak edən valideynlər xüsusi vurğulayıblar ki, məktəbdə məktəblinin dostunun yaratdığı fərq dərhal nəzərə çarpır. Dəyişiklik təkcə məktəbdəki düzənlə əlaqədar deyil, həm də şagirdlərin məktəbə dəyişən münasibətində hiss olunur. Hər yerin müşahidə altında olduğunu da önə çəkən valideynlər məktəbdə olarkən uşaqları sarıdan arxayınlıqlarını ifadə ediblər.

Lent.az saytının rəhbəri Qabil Abbasoğlu hesab edir ki, şagirdlə dost, ortaq olmadan, təhsil məqsədinə nail ola bilməz. Onun fikrincə, məhz bu münasibəti yaradan "Məktəblinin dostu" layihəsi də son illərdə həyata keçirilən təhsil siyasətinin 2-3 ən uğurlu işindən biridir.

Təhsil eksperti Asif Cahangirovun fikrincə, məktəb inzibatçılığı sevmir. Ona görə də "Məktəblinin dostu"nun fəaliyyətindəki nəzarəti profilaktikaya çevirmək lazımdır. Şagirdlə iş zamanı bir çox məqama diqqət yetirilməlidir. Tutaq ki, bir sinfin şagirdlərinin valideynləri ilə ümumi 30 dəqiqəlik toplantı yox, hər şagird üçün ayrıca 30 dəqiqə ayrılmalı, valideyni ilə onun bütün problemləri müzakirə olunmalıdır. "Məktəblinin dostu"nun öz işində belə yanaşmanı tətbiq etdiyini deyən ekspert bunu xüsusi qiymətləndirib. O təklif edib ki, məktəblinin dostlarının da dostu olmalıdır. Məktəblər gözləməməlidir ki, "Məktəblinin dostu" onlara da gəlsin və hər şeyi düzəltsin. Bu təcrübədən istifadə edərək hər məktəb öz mühitini formalaşdırmalıdır. A.Cahangirov hətta pedaqoji kadr hazırlayan ali təhsil müəssisələrinin tələbələrini də prosesə cəlb etməyin mümkünlüyünü vurğulayıb: "Şərt deyil ki, Təhsil Nazirliyi bunu "ASAN Xidmət"lə həyata keçirsin. Pedaqoji Universitetdən könüllülər cəlb oluna bilər. Bu onlar üçün də çox yaxşı təcrübə olar".

Təhsil eksperti Məlahət Mürşüdlü layihə başlayanda onun uğur qazanacağına şübhə ilə yanaşsa da, hazırkı fəaliyyətindən razı qaldığını ifadə edib: "Bu, əslində, bir idarəçilik modeli axtarışıdır. Sözügedən təcrübənin oturuşmuş sistem kimi fəaliyyət göstərməsini çox istərdim".

Pedaqoq hazırlamaq üçün pedaqoq

Jalə MÜTƏLLİMOVA

Məlum olduğu kimi, bu il Azərbaycanda təhsildə keyfiyyət ili elan edilib. Bu mənada xeyli iş görüldüyünü inkar etmək olmaz. Prosesin çox ciddi bir məqamı var. Təhsilin yüksək səviyyədə təşkili üçün təkcə məsələnin texniki həlli, yəni inzibati binaların təmiri, konfranslara, beynəlxalq tədbirlərə ev sahibliyi etmək, qanunvericilik bazasını yeniləmək, o cümlədən xarici ölkələrin təcrübəsini öyrənmək, treninqlər, seminarlar keçirmək yetərli deyil. Bunun üçün vacib, bəlkə də ən vacib məqam yüksək peşəkarlıq səviyyəsi olan pedaqoqlar yetişdirməkdir. Əslində, bu məsələdə vəziyyət ictimai rəyə təqdim olunan qədər acınacaqlı da deyil. Amma qənaətbəxş də sayılmır. Bu məqamda vacib olan başqa bir nüans da var. Müəllim hazırlamaq işində ölkədə durum nədir?! Yəni obrazlı desək, müəllim "istehsal" edən tədris ocaqlarında lazımi texniki və peşəkar heyət yığa bilmişikmi? Ya da bunu dünya standartları ilə etmək istəyiriksə, bizə nə lazımdır?

Müəllim hazırlamaq işində ölkədə durum nədir?! Yəni obrazlı desək, müəllim "istehsal" edən tədris ocaqlarında lazımi texniki və peşəkar heyət yığa bilmişikmi? Ya da bunu dünya standartları ilə etmək istəyiriksə, bizə nə lazımdır?

Bütün bu suallar ətrafında bir neçə gün öncə Azərbaycan Dövlət Pedaqoji Universitetində "Təhsil strategiyasının əsas dayağı: sərişdə əsaslı təhsil" mövzusunda keçirilən müzakirələrdə geniş danışıldı. Ali təhsil müəssisəsinin rəhbərliyi, müəllim və tələbə heyətinin iştirak etdiyi dinləmədə maraqlı nüanslar üzə çıxdı. Məsələn, anlaşıldı ki, hazırda ölkədə ən böyük pedaqoji təhsli müəssisəsi olan ADPU-nun müəllim heyətinin dünyəvi məlumatlara çıxış bazası zəifdir. Daha dəqiqi, bunu etmək üçün həm maliyyə, həm də kadroloji dəstəyə ehtiyac yaranıb. Məlum olduğu kimi, bu gün adıçəkilən təhsil müəssisəsinin xeyli yaşlı müəllim heyəti var. Təbii ki, perspektivə hesablanan keyfiyyət planlarından biri də məhz bu istiqamətdə iş aparmaq olmalıdır. Yəni indiyə qədər çalışan mütəxəssisin təcrübəsindən istifadə etmək, yeni nəsil pedaqoq hazırlayacaq mütəxəssisləri yetişdirmək. Böyük həmişə böyüklüyündə, zirvəsində, təbii ki, qalır. Ancaq zaman və inkişaf sürəti bəzən insanları vermək istəmədikləri qərarları belə qəbul etməyə məcbur edir. Bu gün Azərbaycanın gələcəyi bütün sahələrdə olduğu kimi, ali təhsil sahəsində də məhz bu islahatlardan və qərarlardan keçir. Bundan başqa, bizim hazırkı səviyyə üçün mütəxəssislərimizin müasir İT texnologiyaları ilə tanış olması zərurəti də artıq böyükdür. Bu məsələdə yaş kateqoriyası təbii ki, önəm daşımır. Məsələn, bu gün dünya böyük elektron kitabxanalardan və praktika üçün laboratoriyalardan istifadə edir. Azərbaycanda, xüsusilə də ADPU-da bu sahədə müəyyən axsamalar var. Universitet rəhbərliyi mediaya açıqlamasında yaxın perspektivdə bu müəssisədə yeni bazanın, daha dəqiqi, keyfiyyətli mütəxəssis yetişdirmək üçün bünövrənin möhkəm qurulması istiqamətində dəstək üçün dövlətə müraciət edəcəyini də istisna etmir. Əminik ki, Azərbaycanda ali təhsilin inkişafı yolunda atılan bu addım mütləq böyük dəstəyini alacaq. Və ölkədə pedaqoq hazırlanması üçün pedaqoq, yəni "müəllimin müəllimi" işinin tam sona yetməsi prosesini bizlər də izləyəcəyik. O üzdən bu prosesin reallaşması üçün, necə deyərlər, qolunu çırmalayıb önə atılan hər kəsə uğurlar diləyək və gələcəyimiz adından minnətdarlıq edək.

AzMİU Lester Universiteti ilə əməkdaşlığını genişləndirir

Əcnəbi tələbələrin hazırlığı fakültəsinin akkreditasiyasını britaniyalı mütəxəssislər aparacaq

Ülkər SƏTTAROVA,
AzMİU-nun Strateji planlaşdırma şöbəsinin müdiri

Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Böyük Britaniyanın aparıcı və nüfuzlu universitetlərindən biri sayılan Lester Universiteti ilə çoxşaxəli əməkdaşlığını genişləndirməkdə davam edir. Universitetlər arasında yaranmış işgüzar münasibətlər yaxın gələcəkdə yeni perspektivlərə, birgə layihələrə, tələbə-müəllim mübadiləsi proqramlarına və s. yol açır. Ötən il universitetimizin rektoru, professor Gülçöhrə Məmmədovanın Londona səfəri zamanı Lester Universitetinin prezidenti, professor Paul Boyle ilə görüşləri, görüş zamanı universitetlər arasında Əcnəbi tələbələrin hazırlığı fakültəsi üzrə anlaşma memorandumunun imzalanması bu əməkdaşlığın faydalı təməlini qoyub. Artıq bu razılaşma reallaşır, Lester Universitetinin nümayəndələri də tez-tez AzMİU-da olur, əməkdaşlarımızla birgə layihələr hazırlayır, ingilisdilli ixtisaslarımızda dərs deyən müəllimlərimiz üçün təlimlər təşkil edirlər.

Bu tədris ilində AzMİU-nun Əcnəbi tələbələrin hazırlığı fakültəsinin akkreditasiyadan keçməsi məsələsi də Lester Universitetinin mütəxəssislərinə tapşırılıb. Adıçəkilən fakültənin akkreditasiyadan keçməsi üçün Lester Universitetinin İngilis dili departamenti ilə müqavilə də bağlanıb. Həmin müqavilənin şərtlərinə uyğun olaraq universitetin nümayəndəsi Jock McPherson bu günlərdə universitetimizdə qonaq olub, Əcnəbi vətəndaşların hazırlığı fakültəsində akkreditasiya aparılması ilə bağlı keçirilən müzakirələrdə iştirak edib. Britaniyalı qonaq əvvəlcə AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova ilə görüşüb. Görüş zamanı Əcnəbi tələbələrin hazırlığı fakültəsinin akkreditasiyası və iki universitet arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Bütün kriteriyalara uyğun daha ətraflı müzakirələr adıçəkilən fakültənin dekanı Gülnarə Əsgərəlizadə və Xarici dillər kafedrasının müdiri Aygün Məmmədovanın iştirakı ilə davam etdirilib. Müzakirələrdən sonra cənab Jock McPherson Əcnəbi vətəndaşların hazırlığı fakültəsinə baş çəkib, xarici tələbələrin dərslərində iştirak edib, mühazirələri dinləyib, tədris olunan kitablar və digər sənədlərlə maraqlanıb. Eyni zamanda o, universitetimizin laboratoriyaları, kitabxanası, auditoriyaları ilə tanış olub, qonaq evini ziyarət edib.

Məlumat üçün qeyd edim ki, akkreditasiya prosesi təhsildə keyfiyyətin təminatıdır. Məktəbin, universitetin, kollecin və ya hər hansı bir ixtisasın-proqramın məzmununun keyfiyyətli kadr yetişdirməyə zəmin yaradıb-yaratmaması məhz bu proses zamanı müəyyən olunur. Akkreditasiyanın nəticəsi cəmiyyətə, gələcək tələbələrə, dövlət qurumlarına, beynəlxalq arenaya bir mesajdır. Akkreditasiya keyfiyyəti aşağı olan tədris proqramlarının keyfiyyət standartlarının artırılmasına stimul verir, təhsil müəssisəsinin və onun ixtisaslarının müasir standartlara cavab verdiyini təsdiqləyir, alınan qərarlar təhsil müəssisəsinin nüfuzunun göstəricisi olur, tələbələrin universitet seçməkdə qərarlarına təsir edir və s. Eyni zamanda, bu proses professor-müəllim heyətinin hazırlığına, təhsil üçün əlverişli şərait, avadanlıq və digər təchizatın lazımi normada, səviyyədə olmasına, insan resursları, akademik nəşrlərin, professional peşə hazırlığı standartlarının olmasına müsbət təsir edir. Göründüyü kimi, akkreditasiya prosesi keyfiyyətin təmin olunmasına və artırılmasına hesablanmış addımdır. Bu işin əcnəbilərə, Avropanın nüfuzlu universitetlərindən birinin mütəxəssislərinə tapşırılması düşünürük ki, bu təminatın əldə olunması üçün bizə çox kömək edəcək.

Xatırladım ki, Böyük Britaniyanın Lester Universiteti ilə AzMİU arasında ikitərəfli əlaqələr 2016-cı ildən qurulub. Həmin ilin fevralında universitetin prezidenti, professor Paul Boyle və onun rəhbərlik etdiyi nümayəndə heyəti AzMİU-da olub, rektorla, əməkdaşlarla işgüzar görüşlər keçirib. Bu görüşlərdə ingilis qonaq AzMİU-nun tarixi, fakültələri, ixtisaslar, tədris prosesi və beynəlxalq əlaqələri barədə məlumatlar əldə edib, əməkdaşlığın istiqamətlərini müəyyənləşdirib. Onu da qeyd edək ki, AzMİU-nun müəyyən ixtisasları üzrə Lester Universitetində də kadr hazırlığı aparılır. Bu məqam universitet rəhbərlərinin əməkdaşlığın məhz bu istiqamətdə aparılması və yaxşı nəticələrin əldə olunması fikrinə dəstək olub. Gələcək əməkdaşlıq imkanlarında tələbə-müəllim mübadiləsi, ikili diplom proqramlarına və s. baxılıb.

Modul təhsil proqramları üzrə praktik təlim prosesinin təşkili və planlaşdırılması

Hikmət CAMALOV,
Abşeron Ceyranbatan Peşə Liseyinin ixtisas fənn müəllimi, peşə hazırlığı üzrə metodkomissiya sədri

Laboratoriya-təcrübə dərslərinin keyfiyyəti müəllimin pedaqoji bacarığı və təlimə hazırlığından asılıdır

Təcrübə göstərir ki, təhsil müəssisəsinin metodistləri və müəllimləri kompetensiyalara əsaslanan modul təlim proqramları ilə işləyərkən müxtəlif çətinliklər yaranır. Bu ən çox onunla bağlı olur ki, onlar ənənəvi təlimlərdən fərqli olaraq modul təlimlərində təlimin nəticələrini bir çox hallarda kompetensiyalara artıq yiyələnmiş və tez-tez yenilənən, dəyişən əmək funksiyalarını dərindən bilən işəgötürənlərlə birlikdə formalaşdırmalıdırlar. Bəzən bu işi onlar reallaşdıra və modul təliminin proqramlarında nəzərdə tutulan kompetensiyaları öyrənənlərə tam çatdıra bilmirlər. Bu bir daha göstərir ki, işəgötürənlərin peşə təhsilinə inteqrasiyası günümüzün reallığıdır və bundan qaçmaq mümkün deyil. Əbəs deyil ki, bu məsələ Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsində və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin Əsasnaməsində xüsusi qeyd edilib.

Kompetensiyalara əsaslanan modul təhsil texnologiyalarının əsas ideyası təhsilalanlarda təlim üçün nəzərdə tutulan iş yerlərində aktiv fəaliyyətə geniş imkanlar açsın və onlar özlərini maksimum dərəcədə sərbəst hiss etsinlər. Bu, təhsilalanlara imkan verir ki, onlar real əmək fəaliyyətinə tez bir zamanda adaptasiya olunsunlar, öyrəndiklərini inkişaf etdirə və işəgötürənlərin müvafiq peşə üzrə tələb etdikləri kompetensiyalara sahib ola bilsinlər.

Praktik təlimin təşkili. Təlim prosesində təkcə nəzəriyyə ilə praktikanın inteqrasiyası kifayət deyil, bundan əlavə təlim prosesi elə təşkil olunmalıdır ki, o, təhsilalanlara kompetensiyalara əsaslanan peşəkarlığa yiyələnmənin açarlarını verən effektli münasibətlər qurmağı, yaradıcı olmağı aşılasın. Hər modula başlamazdan əvəvl təhsilalanlar modulun spesifikası və bu moduldan nələri öyrənmələri, hansı nəticələrin onlardan gözlənildiyi haqda məlumatlarla tanış olmalıdır. Təlimin bu cür təşkili təhsilalanlarda təlimlərin effektliyini, keyfiyyətini yüksəltmələri və təlim nəticələrinə çatmaları üçün motivasiya aşılayır.

Təhsilalan şüurlu olaraq başa düşməlidir ki, təlim nəticələrinə görə təkcə öyrədənlər deyil, onun özü də məsuliyyət daşıyır. Bundan ötrü təhsilalan təlimlər zamanı işlərin kiçik qruplarda təşkil olunmasında, layihələrin işlənməsində, problemlərin həll olunması üzrə tapşırıqların yerinə yetirilməsində və s. fəal olmağa çalışmalıdır.

Təhsilalan nəzəri təlimlərdə peşə üzrə kompetensiyaların formalaşdırılmasına dair yalnız məlumatlar əldə edir. Əldə edilən bu məlumatlar kompetensiyalara o zaman gətirib çıxarır ki, təhsilalan bu məlumatları praktik olaraq tətbiq etsin. Tətbiq zamanı təhsilalan informasiya mübadilələrində iştirak edir və onun söylədikləri yoldaşları tərəfindən qəbul edildikcə bu, onu daha irəli getməyə həvəsləndirir.

Müasir işçilər öz biliklərini və bacarıqlarını peşələrinə aid yeniliklərlə, əməyin istənilən sferada cəld dəyişdirilməsinə dair məlumatlarla mütəmadi təkmilləşdirməlidirlər ki, ümumi inkişafdan geri qalmasınlar. Modul təlimi bu məqsədi və buna nail olma (özünütəhsil) yollarını aşılayır. Ona görə də öyrədənlərə tövsiyə olunur ki, yeri gəldikcə təhsilalanlara bilikləri mənimsəmək üçün məlumatları özlərinin axtarmasına maksimum imkan verilsin: yeni biliklərin qazanılmasında öz rollarının da olduğunu görsünlər.

Söylənilənlərdən o qənaətə gəlmək olur ki, bütün bunlara nail olunmasının “bünörəsi” kompetensiyalara əsaslanan modulun təliminin planlaşdırılmasında əksini tapır.

Hər modul üzrə təlim prosesinin planlaşdırılması “Modulun həyata keçirilməsi alqoritmi”ni əks etdirən sənədin tərtib olunması ilə başlayır.

Bu sənəd aşağıdakı elementlərdən ibarətdir:

* Modulun adı və nömrəsi;
* Modulun məqsədi;
* Modulun məzmunu (bura modulun spesifikasındakı fəaliyyətlərin sırası daxildir);
* Məqsədli yaradılan qrupların xarakteristikası (bu təhsilalanlarda öyrənmə üçün təlim planının və təlim mühitinin formalaşdırılmasını xarakterizə edir).

Məqsədli qrupların xarakteristikasını işləyib hazırlayarkən aşağıdakıları nəzərə almaq tövsiyə edilir:

* Təlimə və işləməyə motivasiyaların dərəcəsi;
* Əvvəlki təlimdən əldə edilən təcrübələr və onların müvəffəqiyyət (qeyri-müvəffəqiyyət) dərəcəsi. Bundan əlavə, təhsilalanların təlim planları və təlim mühiti formalaşdırmağa kömək edən həyat təcrübəsi və baxışlarının dərəcəsi;
* Peşəkarlıq dairəsində təhsilalanların mənimsəmək istədikləri biliklərin və bacarıqların səviyyəsi;
* Təlim üsulları;
* Cədvəlin və məşğələnin keçirildiyi yerin strukturu (təlim auditoriyaları, emalatxana, laboratoriya, müəssisə);
* Müəssisə nümayəndələrinin təlim prosesində iştiraka cəlb edilməsi;
* Mənimsənilməsi lazım olan biliklər (modulun spesifikasından);
* Məşğələnin planı (hər məşğələ modul spesifikasının bir fəaliyyətinin mənimsənilməsinə həsr edilməlidir).

Hər bir məşğələni planlaşdırarkən aşağıdakılar müəyyənləşdirilməlidir:

* Məşğələnin məqsədi;
* Məzmun (modul spesifikasının “Biliklər” elementindən);
* Təlim metodları, məsələn, işgüzar oyunlar, layihələr, problemlərin həlli, “əqli hücum”, praktik məşğələ, kiçik mühazirə, müzakirələr, nümayişetdirmə və s.;
* Lazım olan resurslar, eyni zamanda təlim materialları;
* Məşğələnin qısa ssenarisi (təlim fəaliyyətinin növlərinin ardıcıllığının təsvir edilməsi).

Nümunə. Modulun həyata keçirilməsinin (icrasının) alqoritmi (ardıcıllığı).

Modulun adı: “İş yerində əmək təhlükəsizliyinin təmin edilməsi”.

Modulun məqsədi: Modulu başa vurduqdan sonra təhsilalanlar iş yerlərində əmək təhlükəsizliyini təmin etməyi bacaracaqlar.

Modulun məzmunu:

* Müəssisədəki insan sağlamlığı üçün təhlükə sayılan müxtəlif risk mənbələrini müəyyən etmək və onları siniflərə ayırmaq;
* Təhlükəsiz əmək mühiti formalaşdırmaq;
* Əmək fəaliyyətində əmək təhlükəsizliyinin və tibbin tələblərini nəzərə almaq.

Təhsilalanların xarakteristikası - birinci kursun təhsilalanları.

Məşğələnin strukturu:

* Müddəti - həftədə 3 saat, 4 həftə;
* Öyrədənlər - təhsil və işəgötürən müəssisələrdən texniki təhlükəsizlik üzrə menecer;
* Təlimin keçirildiyi yer - təlim auditoriyası, təhsil müəssisəsinin emalatxanası, müəssisə.

Material resursları:

* Əmək mühafizəsinə və tibbə dair hüquqi-normativ baza;
* Müəssisədə əmək mühafizəsi və tibbə dair təlimat sənədləri;
* Yanğın təhlükəsizliyinə qarşı təlimat.

Təlim prosesini və təlim metodlarını planlaşdırarkən insanın qavrama, yadda saxlama imkanları nəzərə alınmalıdır.

Təlim metodu dedikdə müəllimlə və ya istehsalat təlimi ustası ilə təhsilalanların elə bir birgə təlim fəaliyyəti nəzərdə tutulur ki, sonda öyrənənlər peşələrinə dair biliklərə, bacarıqlara və vərdişlərə yiyələnirlər, eyni zamanda birgə fəaliyyət onların tərbiyə olunmalarına və təlimlərdə əldə etdikləri bilik və bacarıqlarını inkişaf etdirmələrinə istiqamətləndirir.

Təlim metodlarına başqa cür yanaşmalar da mövcuddur. Belə ki, təlim metodları təkcə öyrədənlərlə şagirdlərin ümumi məqsədəyönələn qarşılıqlı fəaliyyəti deyil, eyni zamanda təlim prosesinin nəticəyönümlü və inkişafyönümlü başa çatmasının təminatçısı kimi də yanaşıla bilər. Təlim metodunun bu cür şərh olunmasına nümunə kimi praktik təlimləri göstərə bilərik. Yəni şagirdlərdə peşəyə dair biliklərin və bacarıqların aşılanması onlar üçün yaradılmış xüsusi şəraitdə: təhsil müəssisəsinin emalatxana və laboratoriyalarında və ya birbaşa istehsal müəssisəsində həyata keçirilir. Başqa sözlə, şagirdlər təhsil müəssisəsində əldə etdikləri ilkin bilik və bacarıqları istehsalatda birbaşa praktik işlərin icrasına tətbiq edərək öz peşə bacarıqlarını inkişaf etdirir və təkmilləşdirirlər.

Təklif olunan təlim texnologiyaları çərçivəsində ən geniş yayılmış təlim formalarına və metodlarına cütlərlə iş, kiçik qruplarda iş, qruplarda müzakirə, təcrübədən götürülmüş konkret hadisənin öyrənilməsi, əmək proseslərinin izlənməsi, layihələr, praktik tapşırıqlar, kompüterin köməyi ilə öyrənmə, müəssisəyə səyahət (bu ən səmərəli metoddur, çünki orada müəssisənin nümayəndələri təhsilalanları müasir texnologiyalarla, istehsal prosesləri ilə, materiallarla, avadanlıqlarla və s. tanış edirlər) aiddir.

Sərbəst tapşırıqlar. Modul təlimlərində öyrənənlərə peşələrinə dair kompetensiyaları aşılayan amillərdən biri onlara yerinə yetirmələri üçün sərbəst tapşırıqların verilməsi və digər praktik işlərə dair laboratoriya-təcrübə təlimlərinin aparılmasıdır.

Sərbəst tapşırıqlar konkret sual üzrə təhsilalanın biliyində olan kəsirləri tamamlamaq və dərinləşdirmək funksiyası daşıyır. Fərdi oxunun məqsədi hər bir şagird üçün dəqiq istiqamətlənmiş şəkildə təşkil edilməlidir. Tövsiyə olunur ki, oxunanların nəticələri qrupla və ya müəllimlə müzakirə olunsun.

Tapşırıqlar deyildikdə müəyyən olunmuş işlərə dair yerinə yetiriləcək iş (icra) hərəkətlərinin şagird tərəfindən tam başa düşülməsinə qədər təkrarı başa düşülür. Başqa sözlə, işlərin təkrar olunma sayı keyfiyyətə keçididir. Bu zaman şagirdlərdə düzgün iş fəaliyyətlərinin, bacarıqların və vərdişlərin əldə olunması baş verir. Çoxsaylı hərəkətlərlə yerinə yetirilən hər hansı bir tapşırıq həmişə keyfiyyətin əldə olunmasını təmin edə bilmir. Keyfiyyətin əldə olunması tapşırıqların məqsədindən və məzmunundan, metodlardan, müəllim və ya usta tərəfindən şagirdlərə verilən tapşırıqların necə təşkil olunmasından və işlərin icrasına düzgün rəhbərlik etməkdən çox asılıdır.

Tapşırıqlar aşağıdakı tələblərə cavab verməlidir:

1) Tapşırıq təkcə işlərin təkrarı deyil, eyni zamanda peşənin sirlərini mənimsəməkdə irəliyə doğru növbəti bir addımdır;

2) Hər bir tapşırıq dəqiq məqsəd daşımalıdır: təlimdə nəyi öyrənməli, nə əldə etməli, hansı addımları təkmilləşdirməli, möhkəmləndirməli, inkişaf etdirməli və s. Təlimin məqsədi şagirdlərə dəqiq və aydın çatdırılmalıdır.

3) Tapşırıqlar müəllim və ya istehsalat təlimi ustasının rəhbərliyi altında yerinə yetirilir. Onlar tapşırıqların yerinə yetirilməsinə rəhbərlik və nəzarət edərkən öz qarşısına hansı məqsəd qoyursa bunu eyni zamanda şagirdlərin məqsədi kimi də qəbul etmək olar. Şagirdlərin tapşırıqları yerinə yetirdikləri zaman ustanın etdiyi düzəlişlər mütləqdir ki, işin məzmununa və təlim məqsədinə xidmət etsin.

4) Şagird işləri yerinə yetirərkən özünün məntiqi təfəkkürünə əsaslanaraq işlərin necə və nə üçün belə yerinə yetirilməsini anlayır.

5) Tapşırıqların effektliyi o zaman yüksək olur ki, şagirdlərdə görülən işlərə maraq aşılansın.

6) Tapşırıqların icrası prosesində şagirdlər yerinə yetirdikləri işlərin gedişinə və nəticələrinə sərbəst olaraq ciddi nəzarət etməyi bacarmalıdırlar.

7) Hər bir tapşırığı yerinə yetirdikdən sonra şagird hansı nətəcələri əldə etdiyini bilməlidir.

Tapşırığa dair işlərin yerinə yetirilmə prosesində şagirdlərin psixoloji və praktik fəaliyyətləri dəyişilməz qalmır. Əvvəlcə şagird ona tanış olmayan bir işlə üz-üzə durur, tədricən tapşırıqları mərhələ-mərhələ yerinə yetirdikcə və yerinə yetirilən işlər təkrarlandıqca onda özünəinam və öyrənmək həvəsi artır və sonda işləri sərbəst və köməksiz yerinə yetirməyə başlayır.

Laboratoriya-təcrübə işləri. Laboratoriya-təcrübə işləri nəzəri və praktik təlimlər ilə aralıq bir vəziyyət təşkil edir və burada nəzəriyyə ilə praktika əsas rabitə vasitəsi hesab olunur. Laboratoriya-təcrübə məşğələləri ixtisas fənn müəllimi ilə istehsalat təlimi ustasının və ya müəllimin bir yerdə reallaşdırdıqları təlimdir. İstehsalat təlimi dərslərinin mükəmməl sonluqla başa çatması laboratoriya-təcrübə dərslərinin şagirdlər tərəfindən necə mənimsənilməsindən çox asılıdır. Laboratoriya-təcrübə işləri istehsalat təlimi prosesində məşğələnin əsas hissəsi, onun əsas struktur elementlərindən biri hesab olunur.

Praktik təlim üçün xarakterik olan laboratoriya-təcrübə işlərinin əsas növləri bunlardır:

- Maşınların, mexanizmlərin, aqreqatların, aparatların, cihazların quruluşlarının və işinin öyrənilməsi. Məsələn, sökmə-yığma işləri, görülən işin xarakterinə uyğun kəskilərin seçilməsi, elektrik dövrəsinin yığılması, elektrik mühərriklərinin şəbəkəyə qoşulması və s;
- Texniki ölçülərin, parametrlərin, xarakteristikaların, keyfiyyətin və onlar arasındakı asılılıqların tədqiq edilməsi və s;
- Nəzarət-ölçü cihazlarından və alətlərdən istifadə qaydaları. Məsələn, ştangerpərgardan, bucaqölçəndən, mikrometrdən istifadə və s;
- Nasazlıqların diaqnostikası, tənzimləmələr, sazlamalar, avadanlıqların qurulması. Məsələn, dəzgahların işləmə dəqiqliyinin yoxlanması; traktorların və kənd təsərrüfatı maşınlarının sistemlərinin, düyün və aqreqatlarının tənzimlənməsi, sazlanması və s.

Bu cür işləri yerinə yetirdikcə şagirdlərin əldə etdikləri bilik və bacarıqlar həm dərinləşir, həm genişlənir və həm də yeni məzmun alır.

Laboratoriya-təcrübə işlərini başa çatdırdıqdan sonra hər bir şagird və ya bir neçə şagirddən ibarət qrup üzrə nümayəndə görülən işləri və bu iş üzrə aparılan hesabatları (əgər işin xarakteri bunu tələb edirsə) ustaya təqdim edir.

Laboratoriya-təcrübə dərslərinin keyfiyyəti bütünlüklə müəllimin pedaqoji bacarığından və təlimə hazırlığından çox asılıdır. Öyrədən laboratoriya-təcrübə dərslərinə hazırlaşarkən dərsin hər mərhələsini planlaşdırmalı, təlim materialına dair işləri yerinə yetirməyin əhatə olunduğu metodiki və texniki ədəbiyyatları öyrənməli, bu sahəyə dair elm və texnikanın nailiyyətləri ilə tanış olmalı, qabaqcıl müəllimlərin təcrübələrinə istinad edərək təlim materialını savadlı, başa düşülən tərzdə başa salmalı və şagirdlərə işləri yerinə yetirərkən alətlərdən və tərtibatlardan düzgün istifadə qaydalarını praktik formada göstərməlidir. Eyni zamanda təlimin maddi-texniki təchizatını hazırlamalı, şagirdlər üçün tam təhlükəsiz iş şəraiti yaratmalı, sökmə-yığma və tənzimləmə işlərini yerinə yetirmək üçün iş yerlərini kifayət edəcək sayda alət və tərtibatlarla təmin etməlidir.

Laboratoriya-təcrübə dərslərinin keçilməsi üçün öyrədən perspektiv-mövzular planı, manqaların iş yerləri üzrə yerdəyişmə qrafiki, dərsin planı və texnoloji alqoritmə (ardıcıllığa) dair təlimat kimi tədris sənədlərini hazırlamalıdır.

“Təhsildə keyfiyyət ili” çərçivəsində məktəbdə işin təşkili təcrübəsindən

Gülər QULİYEVA,
Salyan rayon Şəkərli kənd ümumi orta məktəbinin təlim-tərbiyə işləri üzrə direktor müavini

Təhsilin keyfiyyəti ümumtəhsil müəssisələrində təhsil mühitinin düzgün təşkilindən asılıdır

Ümumi təhsildə “Keyfiyyət ili” ilə bağlı Təhsil Nazirliyinin təsdiq etdiyi “Tədbirlər planı”na əsasən hazırda ölkənin ümumtəhsil müəssisələrində geniş iş aparılır. Bizim məktəbdə də bu məqsədlə tədbirlər planı hazırlanaraq təsdiq olunmuşdur. Ötən müddət ərzində həmin plana əsasən bir sıra işlər görülmüş və ilboyu bu işlərin davam etdirilməsi nəzərdə tutulmuşdur. Ümumiyyətlə, biz “Keyfiyyət ili” çərçivəsində dərs ili ərzində həyata keçiriləcək tədbirləri aşağıdakı kimi qruplaşdırmışıq:

1. Təlimin keyfiyyətinin yüksəldilməsi.

Bu bölmə üzrə fənlərin tədrisi keyfiyyətinin artırılması, müəllimlərin gündəlik fəaliyyətinə yaradıcı yanaşmalarının təmin olunması, şagirdlərin təlimə marağının artırılması, fənlər üzrə bilik, bacarıq və vərdişlərin inkişafına daha geniş şəraitin yaradılması, təlim prosesində öyrədənlərin, öyrənənlərin və məktəb rəhbərliyinin məsuliyyətinin artırılması məqsədi ilə məktəbdə dərs ilboyu fənn və sinif aylıqlarının təşkil olunması. Tədris ilinin əvvəlindən başlayaraq hər ay bir fənn “aylığı” elan olunmuşdur. “Fənn aylığı” çərçivəsində fənn bülletenlərinin hazırlanması, fənn gecələrinin təşkili, müəyyən olunmuş fənn üzrə nümunəvi dərslərin təşkili və müzakirəsi, şagirdlərin bilik keyfiyyətinin aşkara çıxarılması üçün hər ay müəyyən olunmuş fənn üzrə monitorinqlərin keçirilməsi və s. kimi məsələləri əhatə edən tədbirlər həyata keçirilir. Hər ayın sonunda “aylığ-”ın yekunu olaraq hesabatın hazırlanıb məktəb rəhbərliyinə təqdim olunması təşkil olunur.

2. Təlimdə geri qalan və xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə işin təşkili.

Belə şagirdlərlə iş iki istiqamətdə aparılır: 1. Müəllimin diqqət və qayğısı; 2. Sinif yoldaşlarının qayğı və yardımı. Təcrübə göstərir ki, əgər sinifdə mühit düzgün formalaşdırılarsa, fəal şagirdlərin əksəriyyəti təlimdə geri qalan yoldaşlarına məmnuniyyətlə kömək edə və onların təlim nəticələrinin yaxşılaşmasına təsir göstərə bilir. Həmçinin müəllimlərin və məktəb rəhbərliyinin də belə şagirdlərlə iş qurması yaxşı nəticələr verir. Şagirdlərə qrup və cütlüklərlə işləmək üçün ev tapşırıqları vermək, xüsusi qayğıya ehtiyacı olan və təlimdə geri qalan şagirdləri məktəbin ictimai işlərinə cəlb etmək onların təlim nəticəsinə müsbət təsir göstərir.

3. Məktəb-valideyn-müəllim əməkdaşlığının inkişaf etdirilməsi.

Təlim-tərbiyədə əsas rol məktəbin öhdəsinə düşsə də, valideyn-müəllim-məktəb əməkdaşlığı təlimin keyfiyyətinə müsbət təsir edən amillərdəndir. Bu baxımdan sinif rəhbərləri və məktəb rəhbərliyi kimi biz daha çox məsuliyyət daşıyırıq. Bundan ötrü valideyn-məktəb əlaqələrini düzgün qurmağa, valideynləri vaxtaşırı övladlarının təlim-tərbiyəsi barədə məlumatlandırmağa və yaranmış problemləri birlikdə aradan qaldırmağa çalışırıq. Sinif rəhbərləri ilə bərabər hər bir fənn müəllimi də bu işdə yaxından iştirak edir, zəif oxuyan, həmçinin dərsdən yayınan şagirdlərin valideynləri ilə sıx əlaqə saxlayırıq. Valideyn iclasları ilə bərabər məktəbimizdə “açıq qapı”, “qonaq-valideyn” günləri təşkil olunur. Bu tədbirlər valideynlərin məktəblə əlaqələrini daha da genişləndirir və şagirdlərin məsuliyyətinin artmasına səbəb olur. “Qonaq-valideyn” günlərində həm karyera, həm də digər cəhətlərdən uğur qazanmış valideynlərdən müəyyən şəxslər seçilib onların şagirdlərlə görüşü təşkil olunur. Bu görüşlərdə həmin valideynlərin öz uğur sirləri və məktəb həyatı barədə danışması və şagirdlərə tövsiyələr verməsi onların təlimə marağının artmasına müsbət təsir göstərir.

4. Sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkili.

Şagirdlərdə təlimə maraq oyatmaq üçün sinifdənxaric və məktəbdənkənar tədbirlərin böyük əhəmiyyəti var. “Keyfiyyət ili” çərçivəsində təşkil olunmuş tədbirlər arasında şagirdlərimizin Salyan Tarix-Diyarşünaslıq Muzeyinə və Bayraq Muzeyinə aparılması onların vətənpərvərlik hisslərinin, soykökümüzə, tariximizə bağlılığın inkişafına, eləcə də cəmiyyətin tərkib hissəsi olan vətəndaş kimi yetişməsinə şərait yaradan amillərdəndir.

5. Təhsilverənlərin peşəkarlığının yüksəldilməsi məqsədi ilə nəzərdə tutulmuş tədbirlər.

Məlum olduğu kimi, bu məsələ “Təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın əsas istiqamətlərindən biridir. Çünki müstəqil və yaradıcı düşünən, cəmiyyət və dövlətin tələblərinə cavab verən vətəndaş və şəxsiyyət yetişdirmək üçün təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən təhsilverən formalaşdırılmalıdır. Strategiyada ölkəmizdə ömürboyu təhsili təmin edən infrastruktur yaradılması nəzərdə tutulmuş və bu sahədə bir çox işlər görülmüşdür. Bu məqsədlə təhsilverənlərin informal təhsil formasından istifadə edərək peşəkarlıq kompetensiyalarını artıra bilməsi üçün kifayət qədər imkanlar yaradılmışdır. “Keyfiyyət ili” çərçivəsində məktəbimizdə bu məqsədlə xüsusi tədbirlər təşkil olunmuşdur. Qabaqcıl pedaqoji təcrübə nümunələrinin təbliği, vaxtaşırı müəllimlərin nümunəvi dərslərinin təşkili və müzakirəsi, “qonaq müəllim” olaraq qabaqcıl innovativ müəllimlərin dərslərinin rayonun digər qonşu məktəblərində təşkil olunması, dərs ili ərzində fərqlənən müəllimlərin həvəsləndirilməsi üçün nəzərdə tutulan tədbirlər və s. bu baxımdan xüsusilə məqsədəuyğundur.

6. İdarəetmədə şəffaflıq və keyfiyyətin yüksəldilməsi.

Qeyd olunanlar şəffaf, demokratik və keyfiyyətli idarəetmə sistemi ilə vəhdətdə daha yüksək nəticələr əldə olunmasına şərait yaradılır. Bütün bu tədbirlərin ardıcıl və sistemli şəkildə təşkil olunub həyata keçirilməsi, həmçinin nəticələrin müzakirə olunub ümumiləşdirilməsi, mövcud problemlərin aradan qaldırılması üçün məqsədyönlü işlərin görülməsi keyfiyyətin yüksəldilməsinə öz töhfəsini verir. Məktəb rəhbərliyi bu məsələdə obyektiv, ardıcıl, sistemli və inkişafyönümlü tədbirlər həyata keçirilməsinə rəhbərlik edir və həm təhsilalanlar, həm təhsilverənlər, həm də valideynlərin bu prosesdə iştirakına şərait yaradılır.

Təhsil cəmiyyətin gələcəyi üçün bünövrədir. Bu bünövrə nə qədər möhkəm olarsa, gələcəyimiz də bir o qədər parlaq, aydın olar. Təhsilin keyfiyyəti ümumtəhsil müəssisələrində təhsil mühitinin düzgün təşkilindən asılıdır. Ulu öndərimiz Heydər Əliyevin sözləri ilə desək: “Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun”. Bu baxımdan biz - pedaqoqlar və məktəb rəhbərlərinin üzərinə böyük məsuliyyət düşür. İnanırıq ki, təhsil prosesinin hər bir iştirakçısı bu sahədəki məsuliyyətini dərk edərək daha yaxşı nəticə əldə etmək yolunda səyini əsirgəməyəcək.

"Mənim məktəbim"

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "Azərbaycan müəllimi" qəzetinin birgə təqdim etdiyi "Mənim məktəbim" layihəsinin məqsədi məktəb direktorlarının rəhbərlik etdikləri təhsil müəssisələri haqqında qələmə aldığı uğur hekayəsini, tədrisin və idarəçiliyin təşkilində həm pedaqoq, həm də rəhbər kimi müvafiq düşüncələrini geniş ictimaiyyətə çatdırmaqdan ibarətdir.

Layihədə idarəedənin pedaqoji və ictimai-fəlsəfi baxımdan məktəbin əsas hədəflərinə və özünəməxsusluğuna dair yanaşmasına da xüsusi yer verilir. Layihə çərçivəsində mövcud reallığı əks etdirən, təhsil müəssisələrinin qarşısında duran məsələlərin həlli yollarını göstərən, məktəb idarəetməsinə və uğurlu məktəb modelinə dair orijinal şəxsi fikirlərin və dünya təcrübəsinə əsaslanan faktların yer aldığı məqalələr təqdim olunur.

Fərqli və əlaqəli iş məktəbə uğur gətirir

Valideynlərin təhsil müəssisələrinə cəlb edilməsi şagirdlərin nailiyyətlərini artırır



Rəhilə ABBASOVA,
183 nömrəli tam orta məktəbin direktoru

Orta məktəbdə verilən təhsil və təlim-tərbiyənin insan həyatında xüsusi yeri var. İnsanın orta məktəb illərində qazandığı bilik, bacarıq və vərdişlər onun gələcəyinə birbaşa təsir edir. Buna görə də, müəllim adını daşıyan hər kəs, xüsusilə də məktəbə rəhbərlik edən şəxslər ümumi təhsil müəssisələrində işin düzgün qurulmasına məsuliyyətlə yanaşmalıdırlar. Hər kəs bu gün müəllim qarşısında, parta arxasında əyləşən şagirdin gələcəkdə işlədiyi sahə üzrə ölkəmizə fayda verə biləcək şəxsiyyət kimi formalaşmasına çalışmalıdır.

Rəhbərlik etdiyim pedaqoji kollektivin qarşısında duran əsas vəzifə də təhsildə yüksək nailiyyətlər əldə etmək, şagirdləri hərtərəfli şəxsiyyət kimi yetişdirmək və onları gələcəyə hazırlamaq üçün səmərəli fəaliyyət göstərməkdən ibarətdir. Tədrisdə qarşılıqlı öyrənmə prinsipi, qabaqcıl texnologiya və təcrübənin tətbiqi, fərdi və kompleks yanaşma tərzi isə fəaliyyətimizin əsas məzmununu təşkil edir. İşimizi elə qurmuşuq ki, məktəb bütün sahələr üzrə vahid mexanizm şəklində çalışır. Bunun nəticəsidir ki, 80 ildən artıqdır fəaliyyət göstərən məktəbimiz özünəməxsus iş üslubu və təhsildə nailiyyətləri ilə seçilən ümumi təhsil müəssisələri sırasındadır.

Qiymətləndirmə və həvəsləndirmədə fərqli üsul

Aydındır ki, təhsildə əsas və aparıcı sima müəllimdir. O, şagirdə təhsil verir, onu gələcəyə istiqamətləndirir. Parta arxasında əyləşən şagird ümid dolu gözlərini müəlliminə dikir. Buna görə də hesab edirəm ki, bu gün məktəblərdə əsas işimizdən biri də müəllimin nüfuzu məsələsi olmalıdır. Müəllim şagirdin gözündə ona təhsil verən, onu gələcəyə hazırlayan, həm də vətənini sevən, millətinə, dövlətinə sadiq, milli, tolerantlıq tərbiyəsini aşılayan, yüksək etik xüsusiyyətlərə malik bir şəxsiyyət kimi görünməlidir. Müəllim də öz növbəsində şagirdə övladı kimi baxmalı, onu sevməli, məktəbli üçün sabaha ümid çırağını yandıran varlığa çevrilməyi bacarmalıdır. Bir sözlə, təhsilalan təhsilverəndən özünə örnək götürməli, müəllim hər yerdə nümunə olmalıdır.

Bu amillər əsas götürülərək məktəbimizdə müəllimin nüfuzu məsələsinə xüsusi diqqət yetirilir. Daim şagirdlər arasında müəllim peşəsinin şərəfli olması barədə təbliğat aparılır, onlarda təhsilverənlərə hörmət hissi aşılanır, məktəblilər müəllimlərinin potensialından yararlanmağa çağırılır.

Bununla yanaşı, məktəbimizdə bütün müəllimlərin fəaliyyəti lazımınca dəyərləndirilir, onların işinə fərdi yanaşılır, müxtəlif tədbirlər həyata keçirilir. Məsələn, "İlin ən fəal müəllimi", "İlin ən fəal sinif rəhbəri", "İlin ən fəal metodbirləşməsi" və digər belə adlarla müsabiqələr təşkil edilir. Ümumi rəy əsasında bu nominasiyalar üzrə ən fəal şəxslər seçilir. Onlar tədris ilinin sonuncu Pedaqoji Şura iclasında diplom və hədiyyələrlə mükafatlandırılır. Həmçinin, fərqlənən şəxslər barədə məlumatlardan və onların şəkillərindən ibarət xüsusi stendlər hazırlanır. Həmin stendlər növbəti müsabiqənin qalibləri məlum olanadək məktəbin foyesində nümayiş edilir.

Məktəbimizdə müəllimlərin peşəkarlıq səviyyəsinin artırılmasına da ciddi önəm verilir. Onların müxtəlif treninq və seminarlarda iştirakı təmin olunur. Eyni zamanda, yeni fəaliyyətə başlayan müəllimlərin uzun müddət bu sahədə çalışan pedaqoqların təcrübəsindən yararlanmasına şərait yaradılır. Peşəkar müəllimlərin iş təcrübəsi məktəb daxilində geniş təbliğ edilir.

> **"Ümumi təhsildə keyfiyyət ili"ndə isə hədəfimiz bir qədər də konkretləşib. Belə ki, bu il uzun dövr ərzində əldə etdiyimiz uğurları bir qədər də artırmalı, təhsildə keyfiyyəti, o cümlədən də IX və XI sinif şagirdlərinin imtahan nəticələrini yüksəltməliyik. Həmçinin, müəllim adının şərəfini ucaltmaq üçün bütün potensialımızdan istifadə etməli, gənc nəslin bu peşəyə olan sevgisini möhkəmləndirməliyik.**

Məktəbimizdə hər bir müəllimin kollektivdəki işi ilə yanaşı, onların şəxsi problemləri, o cümlədən də sağlamlıqları ilə bağlı məsələlər daim diqqətdə saxlanılır. Müəllimlər daim bir-birlərinə dayaq olmağa çalışırlar. Məktəbdə fəaliyyət göstərən Həmkarlar Komitəsi də pedaqoji kollektivin çətinliklərinin aradan qaldırılmasına yaxından kömək göstərir.

Əlaqəli işin bəhrəsi

Məktəbimizdə pedaqoji kollektivin səyləri isə heç şübhəsiz ki, şagirdlərin nailiyyətlərinin yüksəldilməsinə, onlarda sağlam düşüncə tərzinin formalaşdırılmasına yönəlib. Bu yolda hədəflər və atılacaq addımlar müəyyənləşdirilib. Məktəblilərin dərslərinə məsuliyyətlə yanaşmasının təşkili ilə yanaşı, uşaq birliyi təşkilatı rəhbəri və psixoloqun fəaliyyəti, şagirdlərin təlim-tərbiyə işi, məktəbdənkənar tədbirlər bir-biri ilə əlaqəli şəkildə qurulub.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, məktəbimizə şagird axını var. Bu isə işimizi məktəbəhazırlıq qruplarının təşkili mərhələsindən mükəmməl şəkildə qurmağımızla bağlıdır. Belə ki, məktəbimizdə hələ 2009-cu ildən ödənişsiz əsaslarla məktəbəhazırlıq qrupu yaradılıb. Həmin vaxt IV sinif şagirdlərinə dərs deyən müəllimlər hər həftənin şənbə günü 2 saat məktəbəhazırlıq qrupunda uşaqlara məşğələlər keçiblər. Az sonra bu iş bəhrəsini verib. Məktəbin ətraf ərazilərində yaşayan daha çox valideyni uşağını məktəbəhazırlıq qrupuna gətirməyə başlayıb.

Məktəbimizdə göstəriciləri nisbətən zəif olan və nizam-intizam qaydalarının pozulmasına yol verən şagirdlərlə işin təşkilinə də xüsusi yer ayrılır. Müəllimlər belə məktəblilərlə ayrıca məşğul olur, onların göstəricilərini yüksəltmək üçün böyük səylə çalışırlar. Bu işdə həm də valideynlərlə əlaqə qurulur, onlarla əməkdaşlıq çərçivəsində tədbirlər görülür.

Qarşılıqlı əməkdaşlığın yolları

Məktəbimizin uğur qazanmasında məktəb-şagird-valideyn əməkdaşlığının da böyük rolu var. Biz bu işi həyata keçirərkən valideynlərin diqqətini cəlb etmək üçün məktəbdə çoxsaylı layihə və tədbirlər reallaşdırdıq. Sonrakı mərhələlərdə övladının yarış, müsabiqə və tədbirlərdə ardıcıl çıxışlarını izləyən valideynlər özləri məktəblə əməkdaşlığa həvəs göstərməyə başladılar. Bununla da məktəb-şagird-valideyn birliyi yarandı, valideynlər övladlarının təlim-tərbiyə işində məktəblə birgə fəaliyyət göstərməyə başladılar.

Şübhəsiz ki, məktəb və müəllim şagirdin, valideyn isə övladının gələcəyini düşünürsə, deməli, hər ikisinin nəzəri məktəblidə cəmləşir. Öz növbəsində şagirddə də onların hər ikisinə qarşı rəğbət hissi yaranır. Bu qarşılıqlı pozitiv münasibət isə nailiyyətlərin əldə edilməsinə yol açır.

Bir məqamı da vurğulayım ki, hər bir məktəbin işi qurularkən həmin təhsil müəssisəsinin yerləşdiyi məkan və orada yaşayan insanlara xas xüsusiyyətlər mütləq şəkildə nəzərə alınmalıdır. Bu amil valideynlərlə əməkdaşlıq zamanı mühüm rol oynayır. Məktəbimizdə bu istiqamətdə də məqsədyönlü iş aparılır.

Məktəb qəzeti - Fəaliyyətimiz ictimaiyyətə açıqdır

Ümumiyyətlə, məktəbimiz fəaliyyətinin işıqlandırılmasına, uğurların ictimaiyyətə çatdırılmasına böyük önəm verir. Bu baxımdan kütləvi informasiya vasitələrində müntəzəm çıxışlar, məktəb tədbirlərində KİV-in iştirakı təmin olunur.

2017-ci ildən məktəb qəzeti nəşr olunur. "Məktəbimiz" adlı qəzetdə məktəbin müəllimləri, şagirdləri çıxışlar edir, məktəb həyatına dair məlumatlara yer verilir. Qəzetdə, əsasən, məktəb kollektivinin müxtəlif tədbirlər keçirməsi, şagird nailiyyətlərinin artırılması, məktəblilər arasında milli vətənpərvərlik ruhunun yüksəldilməsi, təlim-tərbiyə, tədrisin tələb olunan səviyyədə təşkili istiqamətində görülən işlər işıqlandırılır.

Bu, müəllim və şagirdlərin fəaliyyətinin stimullaşdırılması, qazandığımız uğurların ictimaiyyətə daha əhatəli çatdırılması və məktəb həyatının daha da canlanmasına zəmin yaradır.

Qəzet xüsusi yaradıcılıq qabiliyyəti olan şagirdlərin məqalələrini, araşdırmalarını məktəb kollektivinə, valideynlərə və digər məktəblərə çatdırmağı qarşısına məqsəd qoyub.

Məktəb qəzetinin fəaliyyətindən ifadə olunan məmnunluq nəşrin davamlı olacağına və məktəbimizin fəaliyyətini daim işıqlandıracağına əminlik yaradır.

Sağlam mühit və hədəflər

Qeyd edim ki, hazırda məktəbimizdə sağlam rəqabət şəraiti, işgüzar mühit var. Bu təhsil müəssisəsi hamımızın doğma evinə çevrilib. Kollektivimizin hər bir üzvü məktəbin nailiyyətlərini artırmaq haqqında düşünür, yeni ideyalar irəli sürür.

"Ümumi təhsildə keyfiyyət ili"ndə isə hədəfimiz bir qədər də konkretləşib. Belə ki, bu il uzun dövr ərzində əldə etdiyimiz uğurları bir qədər də artırmalı, təhsildə keyfiyyəti, o cümlədən də IX və XI sinif şagirdlərinin imtahan nəticələrini yüksəltməliyik. Həmçinin, müəllim adının şərəfini ucaltmaq üçün bütün potensialımızdan istifadə etməli, gənc nəslin bu peşəyə olan sevgisini möhkəmləndirməliyik.

Düşünürəm ki, işə məsuliyyətli yanaşma, uzun illərin təcrübəsi və digər bu kimi amillər bizə bütün hədəflərə çatmağa imkan verəcək və uğurlarımız daha da artacaq.

Pedaqoji mühazirələrin şəhər mərhələsinin seçim turu keçirilir

İnnovativ xarakterə, səmərəli təcrübəyə əsaslanan 12 mühazirə ölkə üzrə seçimlərə təqdim ediləcək

"Ümumi təhsildə keyfiyyət ili" çərçivəsində təşkil edilən pedaqoji mühazirələrin şəhər mərhələsinin seçim turu keçirilir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsində təşkil edilən şəhər mərhələsinin seçim turunda paytaxtın 12 inzibati rayonu üzrə 100-ə yaxın pedaqoji mühazirə dinləniləcək. Mövzunun aktuallığı, təcrübi əhəmiyyəti, orijinallığı baxımından uyğun gələn və innovativ xarakterə, səmərəli təcrübəyə əsaslanan 12 pedaqoji mühazirə ölkə üzrə seçimlərə təqdim ediləcək.

Ümumi təhsil məktəblərinin pedaqoji heyətinin ən çox müraciət etdikləri mövzular "Müəllim-şagird münasibətlərinin pedaqoji əməkdaşlıq əsasında qurulması", "Fənnin tədrisində müasir təlim texnologiyalarının tətbiqi", "İbtidai təhsil səviyyəsində şagird nailiyyətlərinin inkişafına məktəbəhazırlıq təhsilinin təsiri", "İstedadlı şagirdlərlə işin təşkili formaları"dır.

Pedaqoji mühazirələrin ölkə mərhələsinin qalibləri müvafiq qaydada mükafatlandırılacaqlar.

Qeyd edək ki, 2017-2018-ci dərs ilində təşkil olunan pedaqoji mühazirələrin əsas məqsədi ümumi təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması ilə bağlı aktual məsələlərə diqqəti artırmaq, yaradıcı müəllim və məktəb rəhbərlərini aşkara çıxarmaq, qabaqcıl təcrübə nümunələrini təbliğ etmək və perspektiv üçün inkişafyönlü təkliflər hazırlamaqdan ibarətdir.

Pedaqoji mühazirələrin ölkə mərhələsinin aprel-may aylarında keçirilməsi nəzərdə tutulur.

"Ən yaxşı təqdimat" müsabiqəsi başlayıb

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar paytaxtdakı ümumi təhsil məktəblərinin şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsinə start verilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsində müsabiqənin təşkili və keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılıb.

Müsabiqənin keçirilməsində əsas məqsəd müstəqil Azərbaycanın memarı Heydər Əliyevin zəngin siyasi irsinin, həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işini daha da gücləndirməkdən ibarətdir.

Təhsil Nazirliyinin əmrinə əsasən IX-XI sinif şagirdləri arasında təşkil olunan müsabiqənin Bakı şəhəri üzrə 4 mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Müsabiqənin məktəbdaxili mərhələsi 28 fevral 2018-ci il tarixədək davam edəcək. Hər məktəbdən 1 nəfər olmaqla, ilk turu uğurla keçən şagirdlər 5-9 mart 2018-ci il tarixlərində keçiriləcək rayon mərhələsinə qatılacaqlar. Rayon üzrə ən uğurlu hesab edilən 5 təqdimat 15-16 mart 2018-ci il tarixlərində təşkil olunacaq şəhər mərhələsinə keçmək hüququ qazanacaq. Şəhər mərhələsində uğur qazanan 12 ən yaxşı təqdimat isə 2018-ci ilin aprelində ölkə turunda iştirak hüququ əldə edəcək.

Müsabiqədə qiymətləndirmə təqdimatçının sərbəstliyi, nitqinin səlisliyi, ardıcıllığı, ifadəliliyi, lüğət ehtiyatının zənginliyi, ulu öndər Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti barədə dolğun və əhatəli məlumata malik olduğunu nümayiş etdirməsi, irəli sürdüyü fikirləri faktlarla əsaslandırması, ulu öndərin Vətən və xalq qarşısında xidmətləri barədə şəxsi mülahizələrini bildirməsi, ədəbi-bədii nümunələrə müraciət etməsi, təqdimatı müəyyən olunmuş müddətdə başa çatdırması və digər meyarlara əsasən aparılır.

"Açıq dərs"lərin keçirilməsinə start verilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində "Açıq dərs"lərin keçirilməsinə start verilib.

Təlimə Dəstək Mərkəzi tərəfindən təşkil edilən "Açıq dərs"lərin əsas məqsədi tədris prosesində öyrətmə və öyrənmə mühitinin səmərəli təşkili yolları, təhsildə uğurlu nəticələr əldə etmiş qabaqcıl, yüksək nailiyyətlər qazanmış müəllimlərin təcrübəsini digər həmkarları ilə bölüşməsi, şagirdlərin tədqiqatçılıq bacarığının üzə çıxarılması və müasir təlim texnologiyalarının tətbiqi istiqamətində qabaqcıl təcrübəni formalaşdırmaqdan ibarətdir. Təcrübə mübadiləsi, fənlərin tədris səviyyəsinin nümayiş etdirilməsi, dərsin planlaşdırılması, qiymətləndirilməsi və bu istiqamətdə müzakirələrin aparılması da əsas komponentlərdəndir.

Dərslər paytaxtın bütün rayonlarında V-XI siniflərdə fənlər bloku (humanitar, texniki, təbiət və əlavə fənlər bloku) üzrə təşkil edilir. Uğurlu nəticələr əldə etmiş məktəblərin və fənn müəllimlərinin qabaqcıl təcrübəsinin təbliği istiqamətində keçirilən "Açıq dərs"lər bütün məktəblərdə eyni vaxtda start götürür.

Artıq paytaxt üzrə 51, 91, 13, 18 və 225 nömrəli məktəblərdə "Açıq dərs"lər keçirilib.

Dərslər müəllimin müxtəlif innovativ üsul və vasitələrdən çevik, məqsədyönlü istifadəsi, dərsin bütün mərhələlərində şagirdlərin fəal iştirakının təmin edilməsi, müəllim tərəfindən motivasiya, tədris materialının şagirdin hazırlıq səviyyəsinə uyğunlaşdırılması, "Ən yaxşı dərs" üçün seçilmiş mövzunun proqrama uyğunluğu və bu kimi digər meyarlar üzrə qiymətləndirilir. Dərslər dinlənildikdən sonra təhlil və müzakirə edilir.

Qeyd edək ki, dərslərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, Təlimə Dəstək Mərkəzinin metodistləri və rayon üzrə digər məktəblərin qabaqcıl müəllimləri iştirak edib.

"Açıq dərs"lər aprel ayınadək davam edəcək.

“Vergi dostları” layihəsi çərçivəsində “dəyirmi masa”

İmişli şəhər 2 nömrəli tam orta məktəbdə 8 saylı Ərazi Vergilər İdarəsinin təşkilatçılığı ilə “Vergi dostları” layihəsi çərçivəsində növbəti “dəyirmi masa” keçirilib.

Görüşdə 8 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşı Anar Əhmədov, “Vergi dostları” layihəsi iştirakçıları və şagirdlər iştirak ediblər.

Azərbaycan Respublikasında vergi siyasəti, onun əsas istiqamətləri, vergi sisteminin real vəziyyəti, vergi ödəyicilərinə göstərilən xidmətlər və onun perspektiv inkişafı haqqında idarənin əməkdaşı Anar Əhmədov “dəyirmi masa” iştirakçılarına ətraflı məlumat verib. O, “Vergi dostları” layihəsindən də danışaraq bu layihədə iştirak edən şəxslərin əhali arasında vergilərə dair maarifləndirmə və təbliğat işlərini həyata keçirmələrindən və vergi sistemində tətbiq olunan elektron xidmətlər barədə vergi ödəyicilərini məlumatlandırmalarından söz açıb.

Daha sonra “Vergi dostları” layihəsinin üzvi Vilayət Əliyev bu layihələrə şagirdlərin də cəlb olunmasından danışaraq, gələcəkdə vergi ödəyicisi olacaq yeniyetmə və gənclərin indidən vergi sistemi, vergi qaydaları haqqında dolğun məlumata malik olmalarının vacibliyini vurğulayıb.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb və fikir mübadiləsi aparılıb.

Vilayət ƏLİYEV,
İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi



Şagirdlər UNEC-in Zaqatala filialında ekskursiyada

Qax rayonu Tasmalı kənd tam orta məktəbinin şagirdlərinin Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialına ekskursiyası təşkil olunub. Ekskursiyanın təşkilində əsas məqsəd şagirdləri universitetin müəllim-tələbə heyəti ilə tanış etmək, onlarda ali təhsilə maraq oyatmaq və həvəsləndirməkdir. Universitetin fizika elmləri üzrə fəlsəfə doktoru, dosent Səfər Razıyev şagirdləri auditoriya, akt zalı, eləcə də kafedralarla tanış edib. Dosent Həqiqət Rzayeva çıxış edərək məktəb şagirdlərinin ilkin olaraq universitetə ekskursiyasından çox məmnun qaldıqlarını bildirib.

Universitetin direktoru, professor Orucəli Rzayev bu təşəbbüsü dəyərləndirərək Tasmalı kənd tam orta məktəbinin rəhbərliyinə təşəkkürünü bildirib, müəllifi olduğu kitabları onlara hədiyyə edib.

Sonda xatirə şəkilləri çəkilib, şagirdlər təəssüratlarını bölüşüblər.

İki müəllimin mühazirəsi ölkə mərhələsində

Saatlıda “Təhsildə keyfiyyət ili” çərçivəsində təşkil edilən pedaqoji mühazirələrin I mərhələsi yekunlaşıb. Pedaqoji mühazirələrin keçirilməsində əsas məqsəd ümumi təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması ilə bağlı aktual məsələlərə diqqəti artırmaq, təhsil işçilərinin bu barədə rəy və mülahizələrini öyrənmək, yaradıcı müəllim və məktəb rəhbərlərini aşkara çıxarmaq, qabaqcıl təcrübə nümunələrini təbliğ etmək və perspektiv üçün inkişafyönlü təkliflər hazırlamaqdan ibarətdir.

Pedaqoji mühazirələrin rayon mərhələsi üzrə təşkilat komitəsinə təqdim edilən məruzələr mövzunun uyğunluğu və aktuallığı, təcrübi əhəmiyyəti, orijinallığı baxımından qiymətləndirilib.

Rayon mərhələsində ən yaxşı, innovativ xarakterə, səmərəli təcrübəyə əsaslanan 2 məruzə müəyyənləşdirilib. Nəticələrə əsasən Saatlı rayon Varxankənd kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Bikə Allahverdiyevanın “Təlimdə geri qalan şagirdlərlə işin təşkili” və Hacıqasımlı kənd tam orta məktəbinin ibtidai sinif müəllimi Aynur Qarayevanın “Təlim-tərbiyə prosesində diferensallaşdırma və fərdi yanaşma prinsipinin tətbiqi” mövzusunda mühazirələri ölkə üzrə təşkilat komitəsinə təqdim ediləcək.

Ölkə mərhələsinin qalibləri müvafiq qaydada mükafatlandırılacaqlar.

Xalid NƏCİYEV,
Saatlı Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi

LDU daha bir universitetlə əməkdaşlıq edəcək

Lənkəran Dövlət Universiteti (LDU) qardaş Türkiyə Cümhuriyyətinin Yalova Universiteti ilə əməkdaşlıq edəcək. Mövlanə Mübadilə Proqramı çərçivəsində imzalanan əməkdaşlıq müqaviləsi əsasən iqtisadiyyat ixtisası üzrə birgə mütəxəssislərin hazırlığını nəzərdə tutur. Müqaviləyə əsasən hər iki ali təhsil ocağının tələbə və müəllim heyəti təcrübə mübadiləsində iştirak edəcək, bu sahədə əldə etdikləri nəzəri və praktik bilgiləri paylaşacaq. Əməkdaşlıq çərçivəsində beş il müddətində birgə elmi konfransların keçirilməsi, müəllim-tələbə mübadiləsi edilməsi nəzərdə tutulub.

Lənkəran Dövlət Universiteti tərəfindən müqaviləni universitetin rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov, qarşı tərəfdən isə Yalova Universitetinin rektoru, professor Cülən Alkan imzalayıb.

Qeyd edək ki, bu, Mövlanə Mübadilə Proqramı çərçivəsində Türkiyə Cümhuriyyətinin ali təhsil müəssisələri ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində bağlanan artıq 13-cü müqavilədir.

“Azərbaycan dili və ədəbiyyat fənn aylığı”na yekun vurulub

Ağstafa Rayon Təhsil Şöbəsində “Azərbaycan dili və ədəbiyyat fənn aylığı”na yekun vurulub. Bu məqsədlə Poylu kənd tam orta məktəbində tədbir keçirilib.

Tədbirdə təhsil şöbəsinin məsul şəxsləri, təhsil müəssisələrinin pedaqoji və şagird kollektivləri iştirak ediblər. Fənn aylığının keçirilməsində məqsəd təhsilin keyfiyyətinin yaxşılaşdırılması, fənlərin tədrisinin yüksəldilməsi, şagirdlərdə fənlərə qarşı maraq yaratmaq, gündəlik fəaliyyətə yaradıcı yanaşmalarının təmin olunması, istedadlı şagirdləri aşkara çıxarılmasıdır.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb. “Azərbaycan dili və ədəbiyyat fənn aylığı”nın yekununa həsr olunan tədbirdə şagirdlər tərəfindən hazırlanmış müxtəlif kompozisiyalar, səhnəciklər, musiqi və rəqs nömrələri nümayiş olunub, şeirlər ifa edilib.

Nəcibə VƏLİYEVA,
Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi

“Bilik yarışı” keçirilib

Samux rayon Qarayeri qəsəbə 2 nömrəli tam orta məktəbdə bu təhsil ocağı ilə İstixana kənd ümumi orta məktəbin şagirdləri arasında “bilik yarışı” keçirilib. Hər birində 8 nəfər olmaqla 2 komanda şəklində keçirilmiş yarışda komandalar 5 fənn (Azərbaycan dili, ədəbiyyat, riyaziyyat, ingilis dili, Azərbaycan tarixi) üzrə əvvəlcədən hazırlanmış sualları sıra ilə təqdim ediblər.

Bir saatdan artıq davam edən yarışın nəticəsinə görə İstixana kənd ümumi orta məktəbini təmsil edən “Odlar yurdu” komandası yüksək bal toplayaraq Qarayeri qəsəbə 2 nömrəli tam orta məktəbi təmsil edən “Xəmsə” komandasına qalib gəlib. Qalib komanda diplomla mükafatlandırılıb.

Nurəddin BABAYEV,
Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi

“Narkomaniya ümumbəşəri bəladır!”

Göygöl rayon Yeni Zod kənd tam orta məktəbində “Narkomaniya ümumbəşəri bəladır!” mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirin keçirilməsində məqsəd şagirdləri narkomaniya və psixotrop maddələrin yaratdığı problem və fəsadlar mövzusunda maarifləndirmək və onlar arasında sağlam həyat tərzini təbliğ etmək olub.

Tədbirdə rayon icra hakimiyyətinin, təhsil və polis şöbələrinin əməkdaşları iştirak edib.

Sonda iştirakçıları maraqlandıran suallar dolğun şəkildə cavablandırılıb. Həmçinin tədbirdə iştirak edənlərə narkomaniyanın törətdiyi fəsadları özündə əks etdirən videoçarx nümayiş olunub.

Raminə MƏMMƏDOVA,
Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi

“Coca-Cola məktəbli kuboku”

Abşeronda “Coca-Cola məktəbli kuboku” futbol turnirinin rayon üzrə final mərhələsi keçirilib. Layihənin keçirilməsində məqsəd ölkəmizdə uşaq futbolunun inkişafı, futbolun kütləviliyinin təmin edilməsidir.

Yarış Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) və “Coca-Cola” şirkətinin birgə təşkilatçılığı ilə həyata keçirilib.

Turnirdə rayonun 30-dan çox məktəbinin komandası iştirak edib.

Yeddinci siniflərin mübarizəsində Xırdalan şəhər 3 nömrəli tam orta məktəbin komandası birinci, Saray qəsəbə 2 nömrəli tam orta məktəbin komandası ikinci və Aşağı Güzdək tam orta məktəbin komandası isə üçüncü yerə layiq görülüb.

Aysel TAHİROVA,
Abşeron Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi

“Ev heyvanları” mövzusunda nümunəvi məşğələ

Şabran rayon Gəndov kənd tam orta məktəbinin məktəbəhazırlıq qrupunda “Ev heyvanları” mövzusunda nümunəvi məşğələ keçirilib.

Məşğələdə beşyaşlılar ev heyvanlarının adlarını sadalayaraq onların insanlara və təbiətə faydalarından danışıb, “Anasını axtaran pişik”, “Tıq-tıq xanım” nağıllarını canlandırıblar.

Beşyaşlılar, həmçinin qruplar şəklində canlı və cansız aləmin obyektə görə fərqləndirilməsi çalışmaları üzrərində işləyib, “Yalan-doğru” oyunu oynayıblar.

Nümunəvi məşğələnin təşkilində əsas məqsəd uşaqlara biliklərini nümayiş etdirməyə, fikirlərini ifadə etməyə, əylənərək öyrənməyə şəraitin yaradılması, digər sinif müəllimləri ilə pedaqoji təcrübənin paylaşılması olub.

Gülər HÜSEYNOVA,
Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi

“Uşaqlıqdan müəllimliyə həvəsim böyük idi”

Nuranə Yusifli: “Öyrənmək və öyrətməkdən zövq alıram”

Nuranə Yusifli 1994-ci ildə Şəki rayonunun Turan qəsəbəsində dünyaya gəlib. Orta təhsilini elə həmin qəsəbədə yerləşən məktəbdə başa vurub. 2011-2014-cü illərdə Sumqayıt Dövlət Universitetində kimya müəllimliyi ixtisası üzrə ali təhsil alıb. Hazırda Şəki rayon Aran kənd tam orta məktəbində kimya müəllimi işləyir. 2017-ci ildə Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş qaydada keçirillən Müəllimlərin İşə Qəbulu imtahanında iştirak edərək 60 bal toplayıb. Uşaqlıqdan arzuladığı müəllimlik peşəsinə yiyələnmiş N.Yusiflinin pedaqoji fəaliyyəti ilə bağlı təəssüratlarını öyrənmək üçün dərs dediyi məktəbdə olduq və suallarımıza cavab aldıq. Ucqar kəndin gənc müəllimi bu peşənin müqəddəsliyindən söz açaraq söhbətə körpü saldı.

- Nuranə xanım, müəllim peşəsinə sizdə maraq necə yaranıb?

- Müəllimlik mənim uşaqlıq arzularımdan biridir. Çətin və məsuliyyətli peşə olmasına baxmayaraq, öyrənmək və öyrətməkdən zövq alıram. Kimya fənninin maraqlı və əhəmiyyətli fənn olduğunu şagirdlərimə sevərək öyrədirəm.

- İlk dərs gününüz necə keçdi?

- İlk dərs günümdə həyəcanlı idim. Necə davranacağımı, nə deyəcəyimi o qədər də dəqiq bilmirdim. Bu həyəcan sinif qapısından içəri girənə kimi oldu. Bir daha təkrar olmadı.

Tədris prosesində həftənin, ayın qalibini seçmək üçün yarışlar keçiririk. Şagirdlərlə tez-tez qrup işlərindən istifadə edirik.

- Müəllim olmaq istəyənlərə tövsiyəniz varmı?

- Əgər bu peşəni ürəkdən istəyirsinizsə, qarşınızı heç nə kəsə bilməz. Səbir və həvəsiniz, ən əsası peşənizə sevginiz varsa, sizə bu yolda uğurlar..!

- Bu gün müəllim nüfuzunun yüksəldilməsi əsas müzakirə mövzularından biridir. Sizcə, müəllim nüfuzlu olmaq üçün nə etməlidir?

- Bəli, müəllim ilk növbədə cəmiyyətimiz üçün dəyər meyarı, sözün həqiqi mənasında, yolgöstərəndir. Müəllim nüfuzunun qorunması və yüksəldilməsi ümumilikdə cəmiyyətdən, valideynlərdən və ən əsası da müəllimlərin özündən asılıdır. Müəllim istənilən şəraitdə öyrədici funksiyasını yerinə yetirməlidir. Səmimi və dürüst olmalı, üzərinə düşən vəzifənin məsuliyyət və müqəddəsliyini anlamalıdır.

Mahal MƏMMƏDOV,
Şəki Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi

Səhifəni hazırladı: *Şakir CƏFƏROV*

2018-ci ilin təhsil trendləri

XXI əsr - qloballaşma, yeni texnologiyalar və innovasiyalar, baş verən dəyişikliklərə yeni yanaşma və düşüncənin sərgiləndiyi əsrdir. Dinamiklik və dəyişikliklərin qarşılıqlı asılılığı dünya təhsil sisteminə yeni yanaşmanın labüdlüyünü diktə edir. Təhsildəki trendlər də onun daim yeniləşməsinə xidmət edən tendensiyalardır.

Heç kimə sirr deyildir ki, artıq 2018-ci ildə texnologiyalar bizim həyatımızı bütünlüklə dəyişəcək, milyonlarla şagird və tələbənin həyatına təsir göstərəcək. ABŞ-ın təhsil xidmətləri sahəsində ixtisaslaşmış "Education Dive" dərgisi 2012-ci ildən başlayaraq dünya təhsilinin inkişafını müəyyən edən innovasiyalar barədə tədqiqatlar aparır. Dərginin ölkənin ayrı-ayrı əyalətlərində nüfuzlu ekspertlərlə apardığı növbəti sorğulara əsasən 2018-ci ilin təhsil sahəsindəki trendlərini 4 bənddə qruplaşdırmaq olar.

1. Qarışıq təlim və tədris proqramlarının fərdiləşdirilməsi bizi qadjetlərlə daha çox işləməyə stimullaşdırır.
2. Məktəblərdə yaradıcı məkan - emalatxanalar (makerspaces) inkişaf edir, burada şagirdlər texnika ilə iş sahəsində təcrübə qazanırlar. Həmçinin virtual reallığın qurğularından istifadə də adi təcrübəyə çevrilir.
3. Rəqəmsal portfolio yazı tapşırıqlarını əvəz edəcək. Videolar, şəkillər, audio-yazılar və başqa multimedia məzmunları bacarıqları daha səmərəli qiymətləndirməyə imkan verir.
4. Texnologiyalar canlı ünsiyyəti sıxışdırmamalıdır: onlayn - platformalar qruplarda iş təcrübəsini, oyun tapşırıqları və emosional məmnunluğu əvəz edə bilmir.

Məktəbli 1 milyon dollarlıq təhsil qrantı qazandı

Gürcüstanlı şagird Nyu-York Universitetində oxuyacaq

Gürcüstanın Batumi şəhərindən olan məktəbli David Djinçaradze Əbu-Dabi Nyu-York Universitetinin (New York University Abu Dhabi - NYUAD) bir milyon dollarlıq təhsil qrantını qazanıb. Bu haqda mətbuata açıqlamasında D.Djinçaradze özü deyib. Batumidə yerləşən "XXI əsr" özəl gimnaziyanın XII sinif şagirdi adıçəkilən universitetdən rəsmi məktub alıb. "Bu il məktəbi bitirdikdən sonra mən Əbu-Dabidə təhsilimə davam edəcəyəm, politologiya və beynəlxalq münasibətləri, həmçinin jurnalistikanı öyrənəcəyəm. Əbu-Dabi Nyu-York Universiteti mənim təhsil, Əmirliklərdə yaşamaq və digər xərclərimi tamamilə maliyyələşdirəcək, bunlar isə 1 milyon ABŞ dollarından çoxdur", - deyə D. Djinçaradze bildirib. Onun sözlərinə görə, universitetə seçim kifayət qədər ciddi keçib. Bir neçə həftə əvvəl David Əbu-Dabiyə baş çəkib və müvəffəqiyyətlə müsahibədən keçib. Və nəticədə ali məktəbin gələcək 150 tələbəsindən biri olmaq üçün bütün dünya ölkələrindən olan 10 min iddialı arasından fərqlənə bilib. Ötən il batumili məktəbli FLEX mübadilə proqramı çərçivəsində Floridada (ABŞ) olub. Təhsillə yanaşı, David Batumi televiziyası və yerli "Georgia Today" qəzeti ilə əməkdaşlıq edir.

Nyu-York Universiteti 2010-cu ildə Əbu-Dabidə öz filialını açıb. NYUAD bakalavriatura və magistratura proqramlarını təklif edir. Tədris ingilis dilində aparılır. NYUAD bütün dünyadan ən istedadlı tələbələri axtarır, onları təqaüdlər və qrantlar şəklində maliyyə dəstəyi ilə təmin edir. Namizədlərin seçimi internet-anket, testlər, portfolio, çoxsaylı esse və fərdi söhbətlərin köməyi ilə aparılır.

David əvvəlcə Skandinaviya ölkələrindən birində ali məktəbə daxil olmaq istəyib, ancaq sonra Əbu-Dabidə Nyu-York Universitetini seçib. Onun sözlərinə görə, NYUAD - dünyanın ən müasir universitetlərindən biridir, burada müxtəlif ölkələrdən ən təcrübəli professorlar işləyirlər: "Mühazirələri çox savadlı və peşəkar insanlar oxuyur. Nümunə kimi mən Yunanıstanın parlament üzvünü və Avropa Birliyinin keçmiş nazirini misal çəkə bilərəm".

Avropalı şagirdlərin sevimli kitabları

Avropanın bütün ölkələrindən olan şagirdlər özlərinin sevimli kitablarının adlarını sadalayıblar. Nəticədə, köhnə dünyanın bir çox ölkələrində sevimli uşaq kitablarını göstərən çox gözəl xəritə alınıb. Beləliklə də avropalı uşaqlara hansı kitablar oxunur?

Estoniya. "Yaz", Oskar Luts

O.Lutsun kitablarının qəhrəmanlarını sevməmək, Tootsanı və Kiyranı, Teeleni və Arnonu, məktəb müəllimi Lauri və kilsə zəngçalanı Lible unutmaq mümkün deyil. "Yaz" Oskar Lutsun Paunvere kəndi və onun sakinləri haqqında povestlər seriyasından birinci kitabıdır.

Böyük Britaniya. "Harri Potter və fəlsəfə daşı", C. K. Roulinq.

"Harri Potter"in təqdimata ehtiyacı yoxdur. İngilis yazıçısı C.Roulinq tərəfindən yazılmış yeddi romandan ibarət seriya bütün dünyada uşaqların tam bir nəslini tərbiyə edib. Təbii ki, Britaniyada gənc sehrbazın macəraları - uşaqların və yeniyetmələrin sevimli kitabıdır.

İsveç. "Uzun corab Peppi", Astrid Lindqren.

Məşhur İsveç yazıçısı Astrid Lindqreninin Peppi adlı qızcığazın çox gözəl səyahətləri və məzəli macəraları haqqında yumoristik povestidir. Peppinin xeyirxah ürəyi var, o, çox əliaçıqdır. Povesti istər uşaqlar, istərsə də yaşlılar da çox sevir. İsveçdə Peppi ən populyar personajdır.

İtaliya. "Pinokkionun macəraları", Karlo Kollodi.

Karlo Kollodinin "Pinokkionun macəraları" nağılı rus dili də daxil olmaqla 87 dilə tərcümə olunub. Maraqlıdır ki, taxta oğlanla Rusiyada ilk dəfə 1906-cı ildə tanış olublar, vətəndə isə kitabın artıq 480-ci nəşri çıxıb. Eşşək kimi tərs, ağlağan və güləyən, eqoist və comərd, dözülməz, xeyirxah, coşqun, həssas, ağıllı, axmaq taxta uzunburun Pinokkio bütün ölkələrdə tanınır.

Fransa. "Kiçik şahzadə", Antuan de Sent-Ekzüperi.

"Kiçik şahzadə" nağıl-ibrətamiz hekayə 1943-cü ildə yazıçının son hərbi uçuşundan bir neçə ay əvvəl çap olunub. Sent-Ekzüperi təkrarlamağı sevirdi ki, insanın əsas keyfiyyətləri məhz uşaqlıq illərində formalaşır və bütün həyatı boyu dünyaya və canlı aləmə mərhəmətli münasibətini saxlaya bilmiş insan son dərəcə xoşbəxtdir.

Almaniya. "Sonsuz tarix", Mixail Ende.

Məşhur alman yazıçısı Mixail Endenin "Sonsuz tarix" kitabı oxucunu fantaziyalar ölkəsinə səyahətə dəvət edir. Fantastik obrazların rəngarəngliyi və dramatik süjet xəttinə malik olan epopeya oxucu qarşısında mühüm əxlaqi suallar qoyur, onlara cəsarət, sevgi və mehribanlığı öyrədir.

İsveçrə. "Xaydi", İohan Şpiri.

"Xaydi" İsveçrənin Alp dağlarında öz babasının himayəsində yaşayan balaca qızın həyatında baş verən hadisələr haqqında povestdir. 1880-ci ildə müəllif əsərin titul vərəqində yazırdı: povest "uşaqlar və onları sevənlər üçün yazılmışdır".

Ukrayna. "Vasyukovkidən olan toreadorlar", Vsevolod Nestayko.

"Vasyukovkidən olan toreadorlar" - üç epizoddan ibarət yumoristik uşaq romanıdır. Kitab 20 xarici dilə tərcümə edilib. Əsərin baş qəhrəmanları Ukraynanın bütün dünyada məşhurlaşmaq istəyən Vasyukovka kəndindən olan şagirdlərdir. Bunun üçün onlar bütün trilogiya boyunca toreador olmağa, öz kəndlərindən xarici casusları tutmağa, Kiyevi fəth etməyə və s. çalışırlar.

Belçika. "Tintinin macəraları", Erje.

XX əsrin ən məşhur Avropa komikslərindən biri olan əsər dünyanın 50 dilinə tərcümə olunub. Tintin - öz dəyişməz peykiylə gənc və enerjili Belçika müxbiridir.

Portuqaliya. "A Fada Oriana", Sofiya de Mello Breyner.

S.Breyner tərəfindən 1958-ci ildə qələmə alınmış uşaq kitabı dünya sistemindən və fundamental dəyərlərdən bəhs edir. Baş qəhrəman meşədə yaşayan pəridir. Hansısa bir anda o, meşəni tərk edir və özünə dost tapmaq üçün şəhərə yola düşür.

İspaniya. "Platero və mən", Xuan Ramon Himenes.

İspan uşaqlarının sevimli kitabıdır. Eşşək Plateronun həyatından götürülmüş epizodlarda İspaniyanın və onun sərt təbiətinin sadə insanlarının gündəlik həyatının poeziyası təsvir olunur.

Rusiya. "Çar Saltan haqqında nağıl", Aleksandr Puşkin.

Nağıl çar Saltanın evlənməsi və onun oğlu, knyaz Qvidonun anadan olması tarixçəsinə həsr olunub. Xalalarının fitnələri sayəsində insan yaşamayan adaya düşən knyaz Qvidon orada sehrbazla - şahzadə Qu quşu ilə qarşılaşır və onun köməyilə qüdrətli hökmdar olur və yenidən atası ilə birləşir.

Macarıstan. "Tikanlı qala", İştvan Fekete

"Tikanlı qala" romanının qəhrəmanları iki macar məktəblisidir- Dyula Lado və Pondorai Beli. Onlar yay tətillərini göldə keçirir. Hər ikisi qoca Qerqe dayının və onun sədaqətli iti Serkanın yanında iynəyarpaqlı ağaclardan qurulmuş daxmada yaşayır.

Danimarka. "İyrənc ördək balası", Hans Xristian Andersen.

Bir köhnə malikanənin pıtraq kolluqlarında ana ördək öz balalarını çıxardı, amma onun son balası dəhşətli görkəmdə idi və digərlərinə bənzəmirdi. Quş həyətinin sakinləri iyrənc ördək balasını sevmədilər, buna görə də tez-tez ona hücum etdilər. Tezliklə ördək balası sürüdən kənarda özünə dostlar axtarmağa yollandı.

Çat-botlar ünsiyyəti asanlaşdırır

Dünyanın bir çox ali məktəblərində hazırda tələbələrin suallarına cavab verən çat-botlardan fəal istifadə edirlər. Hesab olunur ki, bu, müəllimlərin yükünü azaltmağa və tələbələri təhsilə cəlb etməyə kömək edir. Ancaq son zamanlar botlardan sui-istifadə olunmasına dair tənqidi fikirlər dalğası baş qaldırıb: onlar sadə suallara, məsələn, yeməkxana haradadır kimi suala tez cavab verə bilərlər, ancaq ayrılıqda bir insanın düşdüyü şəraiti dərk etmək və qeyri-standart vəziyyətlərdə məsləhət vermək gücündə deyil.

"SygnalVine" şirkəti çat-botları və canlı ünsiyyəti balanslaşdırmağı təklif edir. Şirkət "qarışıq xəbərlər" (blended messaging) sistemini hazırlayıb. Bu sistem müəllimlərə və ali məktəbin rəhbərlərinə tələbələrlə şəxsi yazışmaları və avtomatik xəbərləri birləşdirməyə kömək edir. Sistem yazışmalara olan vaxta qənaət edir - müəllimlər və administratorlar qabaqcadan mesajları tədarük və taymerin köməyi ilə onların lazımi vaxtda göndərilməsini təmin edə bilərlər. Məktubları qəbul edənləri müxtəlif xüsusiyyətlər üzrə çeşidləmək (filtrasiya), məsələn, məktubu yalnız orta balı yüksək olan tələbələr üçün hazırlamaq olar. Elə ki, tələbə mesaja cavab verir, onunla şəxsi yazışmanı davam etdirmək və ya avtomatik replikalarla botları işə buraxmaq olar. Proqram cavabların statistikasını və platformada tələbələrin fəallığı haqqında başqa məlumatları da üzə çıxarır, bu isə anlamağa imkan verir ki, kimə daha çox diqqət ayırmağa dəyər.

Məktəblilər üçün onlayn "açıq dərs"lər

Rusiya Federasiyasının Təhsil və Elm Nazirliyi fevral ayından başlayaraq məktəblilər üçün "açıq dərs"lərin onlayn-yayımına start verib.

Təhsili idarəedənlər yuxarı sinif şagirdlərinə aktual peşələr barədə danışırlar. Məktəblilərə gələcəkdə hansı peşələrə daha çox zərurət yaranacağı və ya əksinə, əmək bazarından yox olacağı, hansı sahələrin daha aktiv şəkildə investisiya tələb etməsi, uğurlu karyera üçün nələri bilmək və bacarmaq lazım olması barədə məlumatlar verilir. Artıq şagirdlərlə aqrar sənaye kompleksi, arxitektura və tikinti, rəqəmsal iqtisadiyyat və tibb üzrə "açıq dərs"lər keçilib. Dərslərin spikerləri qismində alimlər, ali məktəblərin rektorları, uğurlu biznesmenlər və şirkət rəhbərləri çıxış edirlər. "Açıq dərs"lər məktəb məşğələləri dövründə (səhər saat 10-da) başlayır və onlara ölkənin hər hansı bir nöqtəsində istənilən sinif qoşula bilər. Birbaşa yayım "Proyektoriya" portalında, həmçinin sosial şəbəkələrdə əlçatandır.

Süni intellekt tələbə sayını artırdı

Amerika Birləşmiş Ştatlarının Corciya Universitetinin qəbul komissiyasında süni intellektdən istifadənin uğurlu sınağı keçirilib. Yayda, abituriyentlərin yüksək fəallığı dövründə, təqdim olunmuş sənədlərlə bağlı cavablara virtual assistentləri də qoşublar. Assistent universitetin əməkdaşlarının səylərindən istifadə etmədən qəbul yerlərinə görə imtina cavablarının sayını 22%-dən 4%-ə qədər azaltmağa imkan verib. Virtual köməkçilərlə ünsiyyət saxlayan tələbələr digərlərinə nisbətən 3,3 faiz çox sənədlərini vaxtında verə biliblər. Qəbul kampaniyaları ərzində çat-bot 200 min suala cavab verib və 324 tələbəyə sənədlərini verməyə kömək edib.

Səhifəni xarici mətbuat materialları əsasında hazırladı:
Oruc MUSTAFAYEV

Qazaxıstanlı gənclər 6 ölkədə pulsuz təhsil ala bilərlər

Qazaxıstanın "Bolaşak" Beynəlxalq Proqramlar Mərkəzi qazaxıstanlı gənclərin pulsuz təhsil ala biləcəkləri xarici ölkələrin dövlət ali məktəblərinin siyahısını dərc edib. Siyahıya Almaniya başçılıq edir. Bu ölkənin 200-dən artıq universitetində əcnəbilərə pulsuz təhsil təklif olunur.

Mərkəzin siyahısında dünyanın 6 ölkəsinin universitetləri yer alıb: Almaniya, Fransa, Norveç, Çexiya, Polşa, Yunanıstan. Həmçinin qeyd edilir ki, hər bir ali məktəbin abituriyentlər üçün müəyyən tələbləri mövcuddur ki, onları nəzərə almaq lazımdır. Norveçdə 7, Almaniyada 242, Fransada 59, Çexiyada 25, Polşada 42, Yunanıstanda 30 dövlət universitetində əcnəbilər üçün pulsuz təhsil verilir. 2018-ci ildə 25 illiyini qeyd edən Beynəlxalq "Bolaşak" proqramı çərçivəsində 12,8 mindən çox təqaüd ayrılıb, 10 mindən artıq mütəxəssis hazırlanıb.

Gələcəyin peşələri

Rəqəmsal texnologiyalar erasında da fərdi və karyera yüksəlişi üçün əlavə imkanlar olacaq

⇦ Əvvəli səh.1

Rüstəm QARAXANLI

2030-cu ilədək əmək bazarının ciddi dəyişikliyə uğrayacağını tək britaniyalı alimlər demir. “İndependent” qəzetinin yazdığına görə, bir sıra peşələri robotlar “özündən küləşdirəcək”, bəziləri tam sıradan çıxacaq, onları bizə hələ məlum olmayanlar əvəzləyəcək. Qəzet yeni peşələrə dair öz siyahısını dərc edib:

1. Virtual reallıq dizayneri. Futuroloqlar hesab edir ki, təqribən on ildən sonra işgüzar danışıqlar aparmaq, yaxud sərgilər təşkil etmək üçün digər ölkələrə və şəhərlərə ezamiyyətə getməyə ehtiyac qalmayacaq. Biz öz biznes-layihələrimizi internet vasitəsilə müzakirə və nümayiş etdirəcəyik. Bax, burada da bizə virtual reallıq dizaynerləri lazım olacaq. Başqa sözlə, uşaqlarımızı IT texnologiyalarına yönəltməkdə bir fayda var.

2. Tibbi robotların operatoru. Yaxın 10-15 ilə ağır cərrahi əməliyyatların keçirilməsi üçün cərraha köməkliyi robotlar edəcək. Yəni cərraha assistent, tibb bacısı və b. bu kimi tibb işçisi lazım olmayacaq. Robotlar bütün işləri görəcək, əməkhaqqı da tələb etməyəcəklər. Bu heç, bəs həmin o robotlara kim “qulluq” edəcək? Tibbi robotların operatorları!

3. Pilotsuz aviasiya interfeysinin layihələndiricisi. Biz artıq çoxdan eşitmişik ki, təyyarə və helikopterlərdə pilotları robotlar əvəzləyəcək. Həmin o robotların proqramlaşdırılması, təkmilləşdirilməsi və təhlükəsizliyinə cavabdeh şəxs pilotsuz aviasiya interfeysinin layihələndiricisi olacaq.

4. Robot etikası üzrə vəkil. Yaxın zamanlarda ofis və idarələrdə bir çox işin robotlar tərəfindən icra ediləcəyi gözlənilsə də, insan faktoru olmadan mümkün olmayacaq. Belə ki, robotlarla insanlar arasındakı münasibətləri tənzimləyən şəxs - robot etikası üzrə vəkil məhz bu sahəni koordinə edəcək. Mütəxəssislərə görə, robotlar xeyirli işlər görməklə yanaşı, “ziyanverici” əməllərlə də məşğul ola bilərlər. Bu nə deməkdir? Hüquq fakültəsi aktuallığını saxlamaqda davam edir.

5. Yaradıcılıq məşqçisi. Bu mütəxəssis gələcəkdə rəssamlar, heykəltəraşlar, bəstəkarlar, dizaynerlər və digər yaradıcı peşə sahiblərinə lazım olacaq. Onlar yaradıcı peşə sahiblərinə “mənəvi kreativ yaradıcı mühit” formalaşdıracaqlar. Görəsən, həmin dövrün incəsənəti necə olacaq?

6. Kollektiv yaradıcılıq kuratoru. 10-15 ildən sonra yaradıcı insanların hansısa art-layihəni həyata keçirmələri üçün komanda axtarmalarına ehtiyac olmayacaq. Bunu onların əvəzinə yaradıcılıq kuratoru edəcək.

7. Ətraf mühitin bərpası üzrə mühəndis. Heç kimə sirr deyil ki, ildən-ilə bizi əhatə edən ekoloji durum pisləşir. Ancaq qorxmayın, təlaşa ehtiyac yoxdur. Az sonra elə mütəxəssislər peyda olacaq ki, bu problemin həllinə çarə tapacaqlar. Özü də onlar nəinki ətraf mühitin çirklənməsinin qarşısını alacaqlar, hətta çirklənmiş sahələrin bərpası, nəsli kəsilmiş flora və faunanın yenidən dünyaya gətirilməsinə nail olacaqlar.

8. Kosmik turizm meneceri. Çox ciddi futuroloji proqnozlara görə, təqribən 20 ildən sonra kosmosa turlar satışa çıxarılacaq. Bu zaman bizim köməyimizə kosmik turizmin bilicisi - bələdçi gələcək. O, bizi məlumatlandırmaqla yanaşı, həm də hansı istiqamətə səyahət etməyimizə dair dəyərli məsləhətlər verəcək.



9. İnsan bədəninin dizayneri. Alimlərin öncəgörmələrinə əsasən, bu peşə sahibi 2025-ci ildən sonra aktual olacaq. Dizayner nəinki bizim zədələnmiş əzələlərimizi bərpa edəcək, həmçinin hər kəsin istəyinə uyğun olaraq onun xarici görünüşünü layihələndirəcək.

10. Gələcək uşağın obrazı üzrə menecer. Yaxın zamanlarda insanlar övladlarını necə böyütmək, tərbiyə etmək üçün əziyyət çəkməyəcəklər, bunu onların əvəzinə obraz meneceri edəcək. Özü də söhbət sadəcə tərbiyə etmək və təhsil verməkdən getmir. Valideyn uşağını dahi etmək niyyətindədir. Həmin menecerin ata-ananın istəyinə uyğun öz proqramı olacaq: uşaq hansı dərnəklərə getməlidir, nəyi oxumalı və öyrənməlidir.

Texnoloqlar hesab edirlər ki, yaxın gələcəkdə ali məktəbi bitirən gənclərin əksəriyyəti əsasən kosmos və virtual reallıq sahələrinə maraq göstərəcəklər. Onlar əmindirlər ki, gözlənilənlərin əksinə olaraq robotlar insanları tam əvəzləyə bilməyəcəklər, əksinə, rəqəmsal texnologiyalar erasında fərdi və karyera yüksəlişi üçün əlavə imkanlar olacaq. “Microsoft”un “Windows” və “Surface” bölümünün rəhbəri Rayan Asdourian deyir: “Əmək bazarı əvvəlkindən daha sürətlə dəyişir və bunun da səbəbi süni intellektdən istifadənin geniş vüsət almasıdır. Biz görürük ki, tələbələrin əksəriyyəti gələcəkləri ilə bağlı narahatdılar. Onlar hiss edirlər ki, müasir texnologiyalar şəraitində özlərinə peşə tapmağa tam hazır deyillər”.

“The Future Laboratory” jurnalının redaktoru Stiv Toz isə hesab edir ki, gələcəkdə bir yox, bir neçə sahənin mütəxəssisi olmağa ehtiyac yaranacaq: “Məsələn, virtual yaşayış sahəsi dizayneri həm də psixoloq və memar olmalıdır. Çünki aktual suallara cavab verməli olacaq. Tutaq ki, insanların ağac altında oturmağı niyə sevdikləri barədə düşünmüsünüz? Bunu virtual reallığa keçirsək necə?”.

Qəliz oldu, elə deyilmi? Belə də olmalıdır, çünki zəmanə qəlizləşir, mürəkkəbləşir. Bu dəyişiklikləri asan yaşamaq və gələcəyin çağırışlarına hazır olmaq üçün gələcəyin peşə seçimini indidən etməyi bacarmalıyıq. Hətta ən asan peşə olan ticarət belə çətin olacaq: indidən bilməliyik ki, gələcəkdə nəyi satmalıyıq? Ümumdünya maliyyə böhranı Azərbaycanın diqqətini qeyri-neft sektoruna yönəltməyə səbəb oldu. Zəngin torpağımızda neftdən asılı olmayan iqtisadiyyatı inkişaf etdirmək üçün həm təbii, həm də insani potensialımız var. Ancaq bu, yetərli deyil. Təbiətdən hansı yöndə istifadə etməyi, potensialımızı hansı istiqamətə yönəltməyi araşdırmalı, bu sahədə dünyadakı yeniliklərdən yararlanmalıyıq.

(ardı var)

Azərbaycan Respublikası Təhsil Nazirliyi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adıçəkilən kafedralarda vakant vəzifələri tutmaq üçün müsabiqə

ELAN EDİR:

Musiqi tarixi və nəzəriyyəsi kafedrası
0,5 ştat professor - 1 yer

Təsviri sənət tarixi və nəzəriyyəsi
baş müəllim - 1 yer

Teatrşünaslıq
baş müəllim - 1 yer

İnstrumental ifaçılıq
baş müəllim - 1 yer

Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini Azərbaycan Respublikası təhsil nazirinin 07.08.1996-cı il tarixli, 401 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında” sənədin tələblərinə uyğun elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərə bilərlər:

Bakı şəh., AZ 1065, İnşaatçılar 39
Tel.: 599-00-54 (daxili-100)

Müsabiqədə yüksək peşə-ixtisas hazırlığına, elmi ad və dərəcələrə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları da iştirak edə bilərlər.

REKTORLUQ

Nobel sülh mükafatına 329 namizəd iddialıdır

Namizədlər arasında 217 ictimai xadimin, 112 təşkilatın adı yer alıb

2018-ci il üzrə Nobel sülh mükafatına 329 nəfərin namizədliyi irəli sürülüb. Bu barədə Nobel Mükafatları Komitəsinin saytı *(www.nobelpriz.com)* xəbər yayıb. Sülh mükafatına iddialılar arasında 217 ictimai xadimin və 112 təşkilatın adları yer alıb. Cari ilin payızında, qaliblərin adlarının elan olunacağı vaxta qədər namizədlərin sayı 20 faiz azala bilər.

Qeyd edək ki, çoxillik ənənəyə əsasən, iddiaçıların siyahısı açıqlanmır, bütün namizədlərin adları yalnız 50 il keçəndən sonra məlum olacaq. Məhz bu tarix ərzində siyahılar məxfi saxlanılır. Alfred Nobelin vəsiyyətinə əsasən, mükafat sahibinə dekabrın 10-da Nobelin ildönümü günündə Osloda təqdim olunur, qərar isə 5 ekspertdən təşkil olunmuş, Norveç parlamentinin təyin etdiyi komissiya tərəfindən qəbul edilir. A.Nobelin iradəsinə uyğun olaraq, sülh üzrə mükafat xalqların dostluğuna xidmət edən, hərbi qarşıdurmaları aradan qaldıra bilən, sülhpərvər qüvvələrin ünsiyyət və dialoqunu təşkil edən fəaliyyətlə məşğul olan şəxslərə və ya ictimai təşkilatlara verilir.

2017-ci ildə Nobel sülh mükafatına nüvə silahının qadağası üzrə beynəlxalq kampaniya (ICAN) layiq görülüb. Ötən il mükafata 318 namizəd iddia edib, onlardan 215 fiziki şəxs və 103 ictimai təşkilat olub.

UTECA tələbələri üçün logistika üzrə seminar keçirilib

Azərbaycan Texnologiya Universitetində (UTECA) Logistika təlim-tədris mərkəzinin təşkilatçılığı ilə “Logistikanın funksiyaları, sistemləri, metodologiyası və konsepsiyaları” mövzusunda seminar keçirilib. Seminarda Şəmkir Aqropark Logistika Mərkəzinin mütəxəssisləri - direktor müşaviri Aqşin Sadıxov, istehsalat və logistika rəhbəri Vüqar İmranov və laboratoriya müdiri Yusif Hacıyev tələbələrə sektorun günümüzdə getdikcə artan əhəmiyyətindən, eləcə də nəzəri və praktik funksiyalarından danışıblar.

UTECA-da keçirilmiş xüsusi imtahan nəticəsində formalaşmış 11 tələbədən ibarət “Port of Baku” komandasının üzvləri Şəmkir Aqropark Logistika Mərkəzinin mütəxəssislərinə müxtəlif suallarla müraciət ediblər. Sualları cavablandıran mütəxəssislər tələbələri praktik təlimlər üçün Şəmkir Aqropark Logistika Mərkəzinə dəvət ediblər.

Seminarda, həmçinin, UTECA-nın elm və texnika üzrə prorektoru, dosent Səbuhi Yusifov, “Maşın mühəndisliyi və logistika” kafedrasının müdiri, professor Tofiq Qocayev də çıxış edərək tələbələrin gələcəyin peşəkar logistika mühəndisi kimi yetişdirilməsi istiqamətində görülən işlərdən danışıblar.

Qeyd edək ki, UTECA-da Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının dəstəyi ilə yaradılan Logistika təlim-tədris mərkəzi mütəxəssis hazırlığında Şəmkir Aqropark Logistika Mərkəzi ilə səmərəli əməkdaşlıq edir.

Ümumdünya Mülki Müdafiə Günü ilə bağlı tədbir

Martın 1-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Ümumdünya Mülki Müdafiə Günü ilə bağlı “Mülki müdafiə və milli qurumların fövqəladə halların effektiv idarə olunmasında rolu” mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan ADNSU-nun Mülki Müdafiə qərargahının rəisi Elşən Məmmədov bildirib ki, bu cür tədbirlərin keçirilməsində əsas məqsəd baş verə biləcək təbii fəlakət, yanğın və qəza hadisələri zamanı düzgün təxliyə qaydalarının öyrənilməsidir. Ümumdünya Mülki Müdafiə Gününün tarixindən və əhəmiyyətindən danışan Elşən Məmmədov bu günün dünyanın 50-dən çox ölkəsində qeyd edildiyini vurğulayıb.

Tədbir iştirakçılarını Mülki Müdafiə Günü münasibətilə təbrik edən ADNSU-nun tərbiyə işləri üzrə prorektoru, dosent Ata Babayev mülki müdafiə ilə bağlı tədbirlərin əhəmiyyətini qeyd edib və bu mövzuda professor-müəllim heyətinin və tələbələrin maarifləndirilməsinin zəruri olduğunu bildirib.

Ölkəmizdə son illər mülki müdafiə sahəsinə xüsusi diqqət yetirildiyini deyən "Sənaye təhlükəsizliyi və əmək mühafizəsi" kafedrasının müdiri, professor Sakit Rəsulov Azərbaycanın da 1993-cü ildən Beynəlxalq Mülki Müdafiə Təşkilatına üzv olduğunu qeyd edib.

Sonda Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti haqqında film nümayiş olunub.

AzTU ilə Almaniya universitetləri arasında razılaşma əldə edilib

Azərbaycan Texniki Universitetinin (AzTU) Maşınqayırma fakültəsinin dekanı, dosent Ərəstun Məmmədov Almaniyanın Berlin Texniki Universitetində keçirilən İCM-2018 (Konferenz zur Internationalisierung der Curricula MİNT-Facher) adlı beynəlxalq konfransda iştirak edib.

Konfrans universitet tələbələrinin tədris prosesi zamanı mübadilə proqramlarında iştirak etmələrini asanlaşdırmaq, əcnəbi tələbələrin öz təhsillərini bu universitetlərdə davam etdirmək proseslərinə kömək məqsədi ilə riyaziyyat, informatika təbiət və texniki elmlər fənləri (MİNT-Facher) üzrə tədris planlarının (kurikulumlarının) beynəlmiləlləşdirilməsi yollarının axtarışına həsr edilib.

Konfrans zamanı Avropanın nüfuzlu universitetlərinin digər ölkələrlə birgə ikili diplom verə bilən təhsil ixtisas və istiqamətlərinin yaradılması və bu zaman mədəniyyətlərarası dialoqların təşkili səviyyəsinin yüksəldilməsi, onların inteqrasiyası məsələləri diqqət mərkəzində olub.

Bununla belə, konfransda Azərbaycan Texniki Universiteti ilə Almaniyanın bir sıra nüfuzlu universitetləri arasında əməkdaşlıq haqqında kooperasiyaların yaradılması, birgə beynəlxalq layihə və proqramlarda iştirak etmə perspektivləri müzakirə edilib və mühüm razılaşmalar əldə olunub.

Qeyd edək ki, konfrans Alman Akademik Mübadilə Xidməti (DAAD), Ali məktəb rektorlarının Konfransı (HRK) və Almaniyanın ən güclü 9 texniki universitetini birləşdirən TU9 kimi nüfuzlu təşkilatların dəstəyi ilə keçirilib.

"Dərviş olmaq o qədər xoşuma gəlmişdi ki..."

Hilal Dəmirov: "İstedadımın fərqindəyəm, hətta özümü Hollivuda layiq bilirəm"

Gülnarə İLHAM

Qrup yoldaşları ən istedadlı rəqib kimi daha çox onun adını çəkdilər. Səhnədə güvənilən tərəfdaşdır, dedilər. Müsahibə əsnasında Hilalın çəkingənliyini görüb, dostlarının onun haqqındakı xoş sözlərini xəbərlədim. Zənnimcə, danışmağa cəsarətləndirirdim. Yanılmışdım. Bu sözlərdən sonra daha təvazökar xarakterini üzə çıxarmış oldum.

Beləliklə, ADMİU SABAH qrupu Aktyor sənəti 4-cü kurs tələbələri ilə tanışlığımız davam edir. Budəfəki müsahibimiz Hilal Dəmirovdur.

- Axı, onlar dediyi qədər deyiləm.

- Hilal, sizin oyununuzu mən də görmüşəm. Yaxşısı budur, gəlin söhbətə başlayaq.

- *(Gülür).* Çox sağ olsunlar, nə deyim, bilmirəm.

- Deyilənlər bir yana, Hilal. Anında vəziyyətdən çıxmaq bacarığınızı "Müsyö Jordan və Dərviş Məstəli Şah" tamaşasında görmüşdüm. Dərviş obrazında çıxmışdınız səhnəyə. Müəlliminiz çox narahat idi. Burnunuz zədələnmişdi. Üstəlik, oyun dinamika, çeviklik tələb edirdi. Amma tamaşa müddətində bunu bir mizanda belə, hiss etdirməmişdiniz.

- Hə, ağrıkəsici vurmuşdular *(Gülür).* Amma dərviş olmaq o qədər xoşuma gəlmişdi ki, oyuna qapılmışdım. Dəfələrlə atlandım-tullandım, həmin vaxt yalnız oyun haqda düşünürdüm. Tamaşa bitəndən sonra, ayıldım, burnum yadıma düşdü *(Gülür).*

- Özünüzü tanıdın. Hilal Dəmirov kimdir?

- 1996-cı ildə Bakıda doğulmuşam. Qaradağ rayonu 294 nömrəli məktəbi bitirmişəm. Uşaqlıqda futbola böyük marağım olub. Hətta AFFA-nın (Azərbaycan Futbol Federasiyaları Assosiasiyası) 13-14 yaş qrupları arasında təşkil etdiyi çempionata da qatılmışam. Rəsm çəkmək bacarığım da var. Adətən dövlət bayramları və xüsusi günlərdə rəsmlər çəkmək mənə həvalə olunardı. Bir neçə müsabiqədə də iştirak etmişəm.

- Futbol, rəsm və aktyorluq. Üçüncüsü maraqlıdır. Bu istək necə yarandı?

- 8-ci sinifdə Coni Deppin filmləri ilə tanış oldum. Çox maraqlı gəlirdi mənə. Evdə aktyor olmaq istəyimi deyəndə atam narazılığını bildirdi. Anam məni çox dəstəklədi. Nəhayət, məktəbi bitirib sənədlərimi hazırlayanda atamı da razı saldıq.

- Aktyor sənəti ixtisasının bir üstünlüyü də məhz qabiliyyət imtahanının olmasıdır. Kimsən, nəyə qadirsən, bacarığın göz qabağındadır. Onda da indiki kimi çox həyəcanlı idiniz?

- Həyəcanlı görünürəm ki?

- Hətta o qədər hiss olunur ki, özümü qabiliyyət imtahanında oturan münsif kimi hiss edirəm.

- *(Gülür).* Hə, onda indikindən qat-qat çox həyəcanlı idim. Mahnı oxuyum?

- Əlbəttə, maraqlı olardı.

(Musiqisi Ələkbər Tağıyevə, sözləri Hafiz Baxışa aid olan "Azərbaycan oğluyam" mahnısını oxuyur. Xoş səs tembri var. Hətta tamaşada bir neçə səhnədə ifaları da vardı Hilalın).

- Təsəvvür edin, siyahıda ilk yerdə mənim adım yazılmışdı. Otağa keçmişəm, tanınmış simaları görüb özümü itirdim. Əməkdar artist Vidadi Həsənov və Xalq artisti Azər Zeynalov da münsiflərin arasında idi. Şeir söylədim, monoloq göstərdim, sonda bu mahnını da oxuyub çıxdım. Beləcə, imtahandan keçdim.

Elə bilirdik ki, aktyor olmaq asandır. Sözdür, oyundur, vəssalam. Təbii ki, ilk günlərdən məşqlər, ciddi tədris prosesi ağır gəlirdi. Birinci kursda hamının tələbi, kaprizi çox olurdu. Sənəti dərindən dərk etmirdik. Əsas rollar üstündə mübahisəmiz yaranırdı. Günlərlə küsülü qalırdıq uşaqlarla. Tədricən işin mahiyyətinə vardıq, məşqlərə daha məsuliyyətli yanaşdıq.

- İlk rol bölgüsündə payınıza düşən hansı obraz idi?

- Dərviş Məstəli Şah. Elə bu yaxınlarda növbəti dəfə Beynəlxalq Muğam Mərkəzində göstərdik.

- Müəllim bu rolu sizə tapşıranda narazı qalmamışdınız?

- Xeyr. Sizə bir söz deyim. Ola bilər, elə qrup yoldaşlarım da bəzən düşünər ki, onlara ürəyincə rol verilməyib. Amma Nofəl müəllim kimə nə rol veribsə, sonradan uşaqlar oyunları ilə bunun doğru qərar olduğunu sübut ediblər. Əlbəttə, peşəkar baxışı, proqnozu həmişə özünü doğruldur. Şəxsən mən oynadığım rolları sevərək, özümə yaraşdığını bilərək ürəkdən oynamışam."Romeo və Cülyetta"dakı Merkuçio da ən çox sevdiyim rolumdur.

- Ümumiyyətlə, aktyorun hər oynadığı obraz onu daha da böyüdür, dərinləşdirir deyirlər. Bəs, sizə necə təsir etdi? Tək peşəkarlıq baxımından demirəm, həm də xarakter olaraq.

- Həqiqətən dediyiniz kimidir. Xüsusən, Merkuçio obrazını oynayanda onunla nə qədər oxşarlıq kəşf etdim özümdə. Hər hərəkətdə, hər söhbətində tanış detal tapdıqca bu obraza daha çox bağlandım. Ona görə də düşünürəm ki, Merkuçio obrazını daha uğurlu təqdim etmişəm.

- Məncə dərvişə haqsızlıq edirsiniz.

- *(Gülür).* Əgər siz deyən kimi, ikisi də çox yaxşıdırsa, nə xoş mənə.

- Bayaq demişdim, qrup yoldaşlarınızın çoxu istedadlı tərəfdaş kimi sizin adınızı çəkmişdilər. Eyni sualı sizə verirəm. Münasibətlərinizdə incliklik yaranarsa, cavablandırmayın.

- Yox, niyə ki. Yaxşılıqlarının əvəzini qaytarım *(Gülür).* Elə "Ezop" tamaşasında birgə baş rolu paylaşdığım Sevgin Rzayevanın adını çəkə bilərəm. Corc, Orxan, Könül də həmçinin.

- Özünü qiymətləndirsən necə?

- Əlbəttə, istedadımın fərqindəyəm. Hətta özümü Hollivuda layiq bilirəm. Amma indiki şərait, mühit sarıdan, gələcəyimə inamım yoxdur. Böyük səhnələrdə olacağımı düşünmürəm. Azərbaycanda elə bir şans yaransa, Akademik Milli Dram Teatrı, yaxud Gənc Tamaşaçılar Teatrında işləmək istəyərdim.

- Deyirlər, bir işə başlamaqla, artıq o işin yarısı görülmüş hesab edilir. Yəni, tək istəməklə olmur.

- Hə, əlbəttə. Məqsədim bəllidir. Çalışacağam elə Hollivud arzum gerçəkləşsin. Niyə də yox. Özümü ordakı aktyorların çoxundan güclü hiss edirəm.

Alim öz robot-oxşarını yaradıb

Yusif ƏLİYEV

Yaponiyalı alim Hiroşi İşiquro onu ezamiyyə səfərləri zamanı mühazirələrdə əvəz edəcək robot-oxşarını yaradıb. O, xarici görünüşünə görə alimdən fərqlənmir.

www.news.rambler.ru saytının məlumatına görə, "Geminoid" adlanan robot hissləri sensorlarla idarə olunan mimikalarla ifadə edir və süni intellekt vasitəsilə danışır. Qurğunun təkmilləşdirilməsinə ehtiyac olmasına baxmayaraq, artıq robot tələbələrlə məşğələlərin aparılmasına kömək edir. Müəllif auditoriya ilə robot-oxşara quraşdırılmış videokamera və dinamiklərin köməyilə işləyir.

"Robotu yaratmaqda məqsədim onun məni konkret yerdə əvəz edə bilməsinə nail olmaq idi. Robotu hazırlayarkən ən çətin iş yumşaq və elastik dərini yaratmaq olub. Bu, obrazı orijinala yaxınlaşdırmağa imkan verir. Elektron sxem daim təkmilləşdiriləcək, zaman ötdükcə isə "Geminoid" robotunun xarici görünüşünü dəyişmək lazım olacaq, çünki o, insandan fərqli olaraq qocalmır", - deyə alim bildirib.

Süni hüceyrələr şişləri daxildən məhv edəcək

Alimlər tərəfindən yaradılmış, bioloji hüceyrələri xatırladan sintetik strukturlar şiş hüceyrələrinin daxilinə girə və onları zəhərləyən maddə istehsal edə bilərlər. Bu yanaşma süni hüceyrələrə zədələnmiş toxumaya çatmağa imkan verən şiş əleyhinə zülalların istehsalı və dərmanların ünvana çatdırılması üçün sintetik biologiya metodlarını kombinasiya edir. Tədqiqatın nəticələri "Advanced Healthcare Materials" jurnalında dərc olunub. Sintetik hüceyrələr bəzi imkanlarına görə süni sistemləri xatırladır və ya onları üstələyir.

www.nanonewsnet.ru saytının məlumatına görə, bu iş üçün İsrailin Texnion İnstitutunun alimləri lipid qabığı üçün uyğun zülalı istehsal edəcək molekulyar fabrik ilə razılaşıblar. Yaradılmış sistemlər yaxınlıqda bioloji hüceyrənin olub-olmadığını aşkar edəcək. Müəlliflər tətbiqi hüceyrələr və siçanların orqanizmində sınaqdan keçiriblər. Hissəciklər şişin öhdəsindən müvəffəqiyyətlə gəliblər. Proses real zamanda sintetik hüceyrələrin fluoressensiyasının köməyi ilə izlənilib.



"Apple" su keçirməyən "AirPods" hazırlayır

"Apple" şirkəti "AirPods" simsiz qulaqlıqlarının iki yeni modeli üzərində işləyir. Onlardan biri bu il, digəri isə növbəti il üçün planlaşdırılıb. Modellərdən hər biri mövcud funksiyalarını saxlayacaq, bəziləri isə daha da təkmilləşdiriləcək.

www.3dnews.ru saytının məlumatına görə, qulaqlıqlardan biri barmaqla ona basmağı tələb etmədən "Salam, Siri" əmrinin köməyi ilə "Siri" səs köməkçisini çağırmağa imkan verəcək. Bu qulaqlıqlarda "Apple" tərəfindən hazırlanan Bluetooth birləşmələrini idarə etmək üçün yenilənmiş simsiz çip quraşdırılacaq. "AirPods"un aktual modeli qulaqlıqlara bir dəfə enerjilə yüklənmə ilə beş saat ərzində işləməyə imkan verən və Bluetooth 4.0-la birləşdirən "W1" çipindən istifadə edir. Qulaqlıqların daha bir yeni modeli su və yağış damcılarına davam gətirə biləcək. Hazırda "AirPods" idman məşqi zamanı yaranan tərə normal davam gətirə bilir, lakin suya düşdükdə sıradan çıxa bilər.

Həmçinin bildirilir ki, 2018-ci ildə qulaqlıqların enerji ilə yüklənməsi üçün yeni qurğu satışa çıxarılacaq.

NDU-nun kollektivi Cəlil Məmmədquluzadənin ev-muzeyində

"Muzey günləri" çərçivəsində Naxçıvan Dövlət Universitetinin kollektivi Cəlil Məmmədquluzadənin ev-muzeyində olub. Muzeyin əməkdaşı Səadət Qocayeva muzey haqqında məlumat verərək Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyinin ümummilli lider Heydər Əliyevin 1998-ci il 31 dekabr tarixli sərəncamı ilə yaradıldığını, 13 oktyabr 1999-cu ildə şəxsən iştirakı ilə istifadəyə verildiyini, burada 1708 eksponatın qorunub saxlandığını, muzeyin son illər dövlət qayğısı hesabına yeni eksponatlarla zənginləşdiyini bildirib.

Qeyd olunub ki, öz yaradıcılıq dəst-xətti ilə seçilən, məşhur dram və nəsr əsərlərinin, maraqlı satirik hekayələrin müəllifi, Şərqdə satirik publisistikanın, "Molla Nəsrəddin" jurnalının banisi olan Cəlil Məmmədquluzadə demokratik fikirli, vətənpərvər ziyalı kimi öz yaradıcılığında xalqın taleyüklü problemlərindən bəhs edib və bu gün də aktual olan qlobal məsələlərə toxunub.

Vurğulanıb ki, böyük yazıçının vaxtilə müəllimlik etdiyi Nehrəmdə və Cəlilkənddə xatirə muzeyləri yaradılıb, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinə və Naxçıvan Dövlət Musiqili Dram Teatrına Cəlil Məmmədquluzadənin adı verilib.

Qeyd edək ki, muzeydə böyük ədibin həyat və yaradıcılığına dair ekspozisiya nümayiş etdirilməkdədir. Ədibə və onun ailəsinə məxsus şəxsi məişət əşyaları, o cümlədən yazıçının naxçıvanlı müasirlərinə aid tarixi sənədlər, onun mütaliə etdiyi klassiklərin əsərləri və şəxsi kitabxanası muzeyin eksponatları arasındadır.

Gəncədəki 1 nömrəli məktəbdə yeni kitabın təqdimatı olub

Fevralın 27-də Azərbaycan Dillər Universitetinin (ADU) Gəncə şəhərində məskunlaşmış Kəlbəcər qaçqınlarının təhsil aldıqları 1 nömrəli məktəbdəki pedaqoji təcrübə rəhbəri Anar Rəhimovun təşkilatçılığı ilə "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" adlı kitabın təqdimatı keçirilib.

Təqdimat mərasimində məktəb rəhbərliyi, pedaqoji kollektiv və şagirdlər, Kəlbəcər məktəblərinin direktorları, rayon təhsil şöbəsinin mütəxəssisləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan məktəbin direktor müavini Şaiq Əhmədov təcrübəçi tələbələrin məktəbdə dərs keçməyə başladıqları 10 gün ərzində təhsil müəssisəsində xeyli canlanma yarandığını, şagirdlərdə ingilis dilinə nəzərəçarpacaq dərəcədə maraq oyandığını qeyd edib, pedaqoji təcrübə rəhbəri A.Rəhimova və təcrübəçi tələbələrə təşəkkürünü bildirib.

A.Rəhimov tədbirin əhəmiyyətindən danışaraq təqdimatı keçirilən kitabın Azərbaycanın beynəlxalq imicinin formalaşmasına çox böyük töhfə verəcəyinə inandığını vurğulayıb. O əlavə edib ki, monoetnik ölkə olan bədnam qonşularımızdan fərqli olaraq ölkəmiz hər zaman çoxmillətli olub, buradakı xalqlar tarixən dostluq, qardaşlıq şəraitində yaşayıb.

Sonra ADU-nun təcrübəçi müəllimləri Roza Məmmədova və Səkinə Məmmədzadə Azərbaycanda mültikulturalizm və tolerantlıq ənənələrindən danışıb, Prezident İlham Əliyevin fikirləri, çıxışlarından seçmələr toplanmış kitabın nəşrini Azərbaycanın həyatında önəmli hadisə kimi xarakterizə ediblər.

Digər çıxışçılar multikulturalizmin Azərbaycanın həyat tərzi olduğunu və əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan multikulturalizm siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıblar.

"Nigar və dostları"

Yusif ƏLİYEV

Xeyli sayda elmi əsərin, publisistik yazıların, qəzet və jurnal məqalələrinin, esselərin, uşaqlar üçün nağıl və hekayələrin müəllifi olan pedaqoq-jurnalist, filologiya üzrə fəlsəfə doktoru Pərixanım Soltanqızının bu adda növbəti kitabı çapdan çıxıb. Kitabda balaca oxuculara ünvanlanmış 17 nağıl və hekayə toplanıb. Müxtəlif mövzularda qələmə alınmış bu nümunələr kiçikyaşlı məktəblilərdə dostluq, qayğıkeşlik, diqqətlilik, əməksevərlik, ata-anaya məhəbbət, böyüklərə hörmət, heyvanlara qayğılı münasibət və s. kimi keyfiyyətlərin aşılanmasına hədəflənib. Kitabdakı uşaqlarla kiçik heyvanların, gül-çiçəyin münasibətlərindən, dostluğundan bəhs edən nağıl və hekayələr məktəblilərin ətraf aləm haqqında təsəvvürlərini daha da genişləndirir, onların dünyagörüşlərini artırır, məlumatlılıq səviyyəsini yüksəldir. Məzmun baxımından əlvan və maraqlı olan, zəngin və rəvan dillə qələmə alınmış bu maraqlı nəsr nümunələri uşaqlarda mütaliəyə marağın artırılması, onların şifahi nitqinin inkişafı baxımından da faydalıdır.



Xocalı

Sürəyya NƏSİB,
Naxçıvan Muxtar Respublikası Şərur rayonu Maxta kənd tam orta məktəbinin müəllimi

Bir gecə dəhişətli kabus dolandı,
Görüm bu kabusa qada calansın.
Bir gecə Xocalı oda qalandı,
Bu gecə özü də oda qalansın.

Qıydı millətimə o qara kabus,
Xalqımın sinəsi dağlandı o gün.
Viranə eylədi yurdumu bayquş,
Yurdumun yolları bağlandı o gün.

Yanan ürəklərdən ah töküldü ah,
Qız, gəlin üz tutdu meşəyə tərəf.
Dedilər: - sən bizi öldür, ay allah,
Qoyma ləkələnsin ləyaqət, şərəf.

Bir ana körpəsi ağladı bu an,
Düşmən eşitməsin, duymasın deyə.
Təki kiçilməsin namus, şərəf, şan,
Ana böyüklüyü qıydı körpəyə.

Qıydı övladına, ağladı için,
Sanmayın öz işin asan eylədi.
Min qadın ismətin qorumaq üçün,
Ana öz balasın qurban eylədi.

Qoymayaq bu işi ellər qınaya,
Olar ki, duymayan qəlblər var, küsür.
Bu anda övlada qıyan anaya,
Bəlkə də ən böyük mükafat düşür.

Ər olaram

Ana, dərddən, qəmdən ayıl,
Görürəm çox pərişansan.
Bu hal sənə yaraşmayır,
Sən sevincə yaraşansan.

Gəl bəxtindən etmə giley,
Özünü al ələ, ana.
Qarabağ da alınacaq,
Xeyir-dua dilə, ana.

Şəhid qanı yerdə qalmaz,
Bitməmişik, sağıq hələ,
Vətənimin arxasında,
Basılmayan dağıq hələ.

Vətən üçün, torpaq üçün,
Hər an alnı tər olaram.
Baxma məni qız doğmusan,
Yeri gəlsə ər olaram.

Cavidin

Əymədi başını soyuq Sibir də,
Taqətdən düşsə də dizi Cavidin.
Can atdı iblisi iblis dirildə,
Öldürdü iblisi sözü Cavidin.

Söndürə bilmədi qara əl onu,
Hər zaman qiymətli bildi el onu,
Bir vaxt titrətsə də namərd yel onu,
Sönmədi qəlbinin közü Cavidin.

Günəş tək nur saçdı, yandı parladı,
Xalqı haylayanda sülhə hayladı,
Dərdini tək çəkdi, eşqin payladı,
Dadmadı bir zərrə özü Cavidin.

Heykəli önündə dayanmışam mən,
Görən nə düşünür deyirəm bu dəm,
Fikri hardadırsa onu bilmirəm,
Vətəndən çəkilmir gözü Cavidin.

Gec ola bilər

Rəhim FƏRZİLİ,
BDU-nun mexanika-riyaziyyat fakültəsinin III kurs tələbəsi

Şeirlər verdikcə hər nəfəs mənə
Bu qaranlıq otaq edər bəs mənə.
Əgər gəlirsənsə, qaç, tələs mənə,
Qorxuram geciksən gec ola bilər.

Sevincə, vüsala sən böldür məni,
Razıyam, təki gəl, lap öldür məni.
Gözlərim gözləyir, gəl, güldür məni,
Qorxuram gözümə yaş dola bilər.

Gedibdir ömrümün day çoxu, gülüm,
Qalanın eşqinə sar, toxu, gülüm.
Bu sevda bir güldür, gəl, qoxu, gülüm,
Qorxuram gəlməzsən, gül sola bilər.

Kimə əl açam mən həsrət əlində?
Ya hara qaçam mən həsrət əlində?
Ağaran saçam mən həsrət əlində,
Qorxuram həsrətin saç yola bilər.

Nəyə lazım?!

Qarlı qış gecəsi, düşürsən yola,
Dolu ürək bəsdi, qoyma göz dola.
Titrərsəm, səbəbin sanma qar ola-
Soyuq baxışın var, qar nəyə lazım?!

Məndə bir arzuydu, səndəsə sonsuz,
O bircə arzumdu ömrümə dad, duz.
Gedir son arzum da, dərdliyəm onsuz,
Naləyəm, kaman, ya tar nəyə lazım?!

Gələndə dərd çəkmək dəmi dedilər,
Az olub Rəhimin qəmi, dedilər.
Xəstə “Nar istəyən kimi” dedilər,
Mən xəstə ölmüşəm, nar nəyə lazım?

Getdim

Mən səni sevdim, səni bilmədim,
Allanıb günəşə, çəni bilmədim.
Saçlarıma düşən dəni bilmədim,
Bu cavan yaşımda qocalıb getdim.

Sadə bir insandım və sanki uşaq,
Kədərdən, qüssədən hələ çox uzaq.
Mən nə atəş oldum, nə od, nə ocaq,
Bu sönən sevdadan od alıb getdim.

Səni sevənədək mən üzü ağdım,
Sevərkən ağladım, yağış tək yağdım.
Zirvəsi qar olan bir uca dağdım,
Əritdin qarımı, alçalıb getdim.

Adın əzbər oldu, adım unutdum,
Gecə oldum, gəldim, səni uyutdum,
Başının üstündə narın bulutdum,
Get dedin, yağaraq boşalıb getdim.

Bilirdim, fikrində əzablar boldu,
Əzabdan həyatın mənası soldu.
Sən heç olmadın ki, xəyalın oldu-
Xəyalın seyrinə hey dalıb getdim.

Vüsal bizə qismət olacaq sandım,
Həsrəti duyanda sözümü dandım.
İşığın mən oldum, şam kimi yandım,
Elə şam kimi də azalıb getdim.

Evin ikimizə darlığın duydum,
Vüsalın şitliyin, xarlığın duydum,
Tənhalıq yolunun varlığın duydum,
İzimi o yola mən salıb getdim.

Dağlara

Salman BALAKİŞİYEV,
Göygöl Rayon Təhsil Şöbəsinin müdir müavini

Qoşqardan baxanda Kəlbəcərə çox az yol - məsafə qaldığı aydın görünür. Ürək atlanır, ancaq yağı düşmən aranı kəsib.

Kəlbəcərə bir mənzillik yol qalıb,
Aç yolları, tanrım, gedim dağlara.
Yaşamağa ümid, inam azalıb,
Aç yolları, tanrım, gedim dağlara.

Sıxıntı var ürəyimdə, beynimdə,
Bircə dəfə açılmır ki, eynim də...
Yurd həsrəti ağır yükdü çiynimdə,
Aç yolları, tanrım, gedim dağlara.

Əzəmətdən yoğrulubdu mayası,
İlahidən verilibdi boyası.
Xəzinədir quru daşı, qayası,
Aç yolları, tanrım, gedim dağlara.

Bir qazanı neçə çömçə bulayar,
Gələn nəsil bizi söyüb - sulayar.
Öz yurdunda qurd aç qalmaz, ulayar,
Aç yolları, tanrım, gedim dağlara.

Qara zurna səda verə qayada,
Yatmış eli “Cəngi” səsi oyada.
Olmaz belə qara yuxu, röya da,
Aç yolları, tanrım, gedim dağlara.

Dağlar ruhum, dağlar canım, iliyim,
Dağlar zehnim, istedadım biliyim.
Gündə yüz yol səcdə edim, ləliyim,
Aç yolları, tanrım, gedim dağlara.

Dağlar Əsli köynəyitək toxundu,
Yüz keşişdən min cür əfsun oxundu.
Salman üçün şah damardan yaxındı,
Aç yolları, tanrım, gedim dağlara.

Mən

Başımı qaldırsam “Yeddi qardaşa”,
Həmin an sataşır göz, gəlmişəm mən.
Beynimdən fikirlər, qəlbimdən qanlar,
Hey axır dilimdən söz, gəlmişəm mən.

Murovla üzbəüz qurmuşam binə,
Göz görür, qəlb yanır.., dərd çıxıb minə.
Sıxır ürəyimi bu məhbəs sinə,
Basmışam bağrıma köz, gəlmişəm mən.

Ala yaylaqlarım düşmən əlində,
Bir kiçik yurd aldım Ayrım elində.
Biryolluq ölməyə hicran selində,
Mənə deməyin ki, döz, gəlmişəm mən.

Göyçədən bir göyçək meh gəlir bura,
Murovdan ayrılan şeh gəlir bura.
Sığınıb qalmışam ismət, abıra,
Tutmuşam üzümə, üz, gəlmişəm mən.

Salmanam, öz evim, eşiyim dağlar,
Çəkib uşaqlıqdan keşiyim dağlar,
Məni səslədikcə beşiyim dağlar,
Bir yaram olur on, yüz, gəlmişəm mən.

Sən Tanrısan

Günel EYVAZLI,
SDU-nun nəzdində Sumqayıt Dövlət Texniki Kolleci kitabxanasının müdiri, Prezident təqaüdçüsü, Azərbaycan Yazıçılar Birliyinin üzvü

Özünü dərya bilib
Özünə atılmaq var.
Özünə güvənmək var.
Özünə inanmaq var.
Axil kimi ən həssas
Yerindən vurulmaq var.
Sən güclüsən.

Səhra yağışı kimi,
Qar soyuqluğu kimi
Gün aydınlığı kimi.
Nizələr dünyasında
Zeytun budağı kimi
Sülh çağırır dodaqlar.
Sən dözümsən.

Küsüb barışan oldu
Tale nağıl danışır.
Bu edam dünyasından
Neçə dillər asılır
Bəzisi susub gedir
Bəzisi deyib gedir
Sən şairsən.

İşıq gələn tərəfdə
Yaşamaq olar, olar.
İt hürüşün səs bilib
Ona aldanmaq olar.
Dünya boyda bağlanıb,
Sonra açılmaq olar
Sən çiçəksən.

Sərt közmək yara üstə.
Bir gün qopub düşmək var.
Çat-çat yarğanlar kimi
Yenidən bitişmək var.
Yenidən yaşamaq var,
Yenidən sevilmək var.
Sən qadınsan.

“Adın nədir?” soruşdu
“Heç kiməm” dedi ona.
Tapılmadı Odissey
İtib görünməz oldu.
Həyat budur, əzizim
Gözləmək qalır sənə.
Sən sevgisən.

Bir ovuc torpaq götür
Yenidən dünya yarat
Yenidən Adəm yarat
Yenidən Həvva yarat
Hər şeyi lap əvvəldən
Hər an başlamaq olar.
Sən tanrısan.

Darıxma

Tör-töküntü bir evin küncündə
Yatmağa yerin varsa, sən
xoşbəxtsən.
Bu geniş dünya sənin üçün döşənib.
Bu göy sənin tavanındır.
Tək deyilsən.

Ruhun belə pərvazlanmaq
istəyəndə
Durma, qanadlan.
Günəş kimi şəfəq saç.
Külək kimi havalı ol.
Yolunu gözləyən var.
Ən azından kitabların, yarımçıq
yazın,
bir stəkan suyun hələ də səni gözləyir
taxta masa üzərində.

Dərindən nəfəs al.
Ya da, səni təpədən-dırnağa
isladacaq
yağış altında islan.
Sonra isti çay,
Bir az musiqi, bir az sinema.

Hələ ki, yorğana bürün.
Mənə inan, isidəcək.
Kim deyib ki, həyat yalnız
cütlüklərdən ibarətdir.
Darıxma!

Vətən

Gülbiçə HÜSEYNOVA,
Balakən rayonu Roçəhməd kənd ümumi orta məktəbinin direktoru

Çörəyindən yeyib, suyundan içib,
Torpağın üstündə gəzirəm, Vətən!
Çətin anlarında canımdan keçib,
Qurban verməyimə hazıram, Vətən!

Sən mənim gözümün ağı-qarası.
Damarımda axan qızıl qanımsan,
Anamın ən şirin, şirin laylası,
Ömrümün solmayan ilk baharısan.

Qoynunda böyüyüb boya çatmışam,
Mənə laylay çalan anamsan, anam.
Səndən ilham alıb vüqarlanmışam,
Odur ki, həmişə sənə borcluyam.

Mənim arzularım

Mənim arzularım sonsuz, tükənməz,
Zirvəyə uzanan yollara bənzər.
Mənim arzularım torpaqdan ətir,
Günəşdən nur alan güllərə bənzər.

Mənim arzularım coşğun dənizə,
Çaylara can verən bulağa bənzər.
Mənim arzularım nəğməyə, sözə,
Ümidlə alışan çırağa bənzər.

Mənim arzularım gül-çiçək açan
Ana təbiətin yazına bənzər.
Mənim arzularım köküm üstündə,
Köklənən bir ozan sazına bənzər.

Gəlmişəm

Nə zamandır həsrətində qaldığım,
Kəndimizin gül qoynuna gəlmişəm.
Xoş ətrini çiçəklərdən aldığım,
Bərəkətli torpağına gəlmişəm.

Günəş enib bu yerlərin köksünə,
Əzəl gündən vurulmuşam hüsnünə.
Nəğmə deyib çaylarının səsinə,
Dərdə dərman bulağına gəlmişəm.

Əsən yellər daraq olub telimdə,
Min naxış var çəmənimdə, çölümdə.
Səhər vaxtı göy otların üstündə,
Şehə batıb islanmağa gəlmişəm.

Gülbiçəyəm nisgilim yox qəlbimdə,
Neçə arzum göyəribdir sinəmdə,
Dilimdə söz, qələm tutub əlimdə,
Məhəbbətdən hey yazmağa gəlmişəm.

Borcluyuq

Səfail AQİLOĞLU,
ADPU-nun Cəlilabad filialının tarix və coğrafiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi

Vətən, səni necə sevim?
sərhəddində əsgərin də
yer altında şəhidin də
razı qalsın.

Axı hardan başlayım ki?
səni sona qədər sevib,
qoruya bilim.
Məhəbbətin çoxu sənə,
mənə ən azı qalsın.
Elə bəlkə doğulduğum evdən,
ilk dəfə ayaq tutub
yeridiyim
həyətimizdən,
təhsil aldığım məktəbdən başlayım.
Daşını, tozunu, torpağını sevirəm,
başım üstə o üç rəngli bayrağını
sevirəm.
Sərhəddində əsgərini,
Sənin üçün canın verən şəhidini
sevirəm.
Biz səni sevməyə borcluyuq, Vətən!
Biz səni qorumağa,
sənin üçün ölməyə borcluyuq, Vətən!
Məni ölümə səslə,
sənincün ölüm!
Səni pay-pay edənlərin,
ürəyini, ciyərini bölüm, Vətən!

Səni necə unudum?

Səni necə unudum?
Rahat ol, arxayın ol.
Məndən bir yolluq uzaq,
Günəşin ol, Ayın ol...

Səni necə unudum?
Daha dərdimi çəkmə.
Məni xatırlayanda,
Üzülüb boyun bükmə.

Səni necə unudum?
De, sənə də xoş olsun.
Necə unudum axı?
İçin məndən boşalsın.

Axı səni unutsam,
Gərək özümdən qaçam.
Elə məcbur, yalandan,
Sənli sözümdən qaçam...

Elə ən yaxşı səni,
Qaça-qaça unudum.
Durum pəncərələrdə,
Baca-baca unudum.

Əgər xoşbəxt edir getməyin səni

Könlümə düşdüyün həmin ərəfə,
Yolumu salardım sizin tərəfə.
Məni qurban edib adicə səhvə,
Gedirsən, yolundan etməyim səni.

Səni unudaram, çətin də olsa,
Dırnaqdan ayrılan ətim də olsa.
Sonunda lap ölüm-itim də olsa,
Kaş ki xoşbəxt etsin itməyim səni.

Mənə rəva bildin indi göz yaşın,
Sızlayır hər gecə qəlbimin başı.
Mən ki, bu sevgidə olmuşam naşı,
Daha sözlərimlə didməyim səni.

Sənin qərarından niyyətə gəlləm,
Mən də xatirəni ömürlük silləm,
İstəyin budursa, nə deyə billəm?
Əgər xoşbəxt edir getməyin səni.

Səhifəni hazırladı: *Samirə KƏRİMOVA*

"...Sən ki, qalibsən..."

Sifai SƏFƏROVA

Hüseyn Cabbarov haqqında yazı hazırlamaq Bakıdakı 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzindən təklif olundu. Hələ kiçik yaşlarında olduğuna baxmayaraq, onun rəssamlıq sahəsində artıq kifayət qədər uğur qazandığı vurğulandı. Yeniyetmə rəssamla söhbətimiz də çox maraqlı keçdi. Heç bir sual-cavab etmədən ona özü haqda, rəsm sahəsində qazandığı uğurlar barədə ətraflı danışmağı təklif etdim. Gəlin, Hüseynin necə aydın təfəkkürlü, istedadlı bir yeniyetmə olduğunu biz elə onun öz dilindən də eşidək:

"Arsenal Bakı" futbol klubunun üzvüyəm

2008-ci ildə Bakı şəhərində anadan olmuşam. 145 nömrəli tam orta məktəbin IV sinfində təhsil alıram. Dərs əlaçısıyam. Şəklim məktəbin "Şərəf lövhəsi"ndə əlaçı şagirdlərin sırasındadır. Sinif rəhbərim Ladena Ağayevanın ən sevimli şagirdlərindənəm. Məktəbimizdə tez-tez keçirilən tədbirlərdə istedad və bacarığımı nümayiş etdirirəm. İdman sahəsində də yaşıdlarımdan geri qalmıram. "Arsenal Bakı" futbol klubunun üzvüyəm. Klublararası keçirilən idman yarışlarında fəal iştirak edirəm.

Uşaqlıqdan çoxlu rəngli karandaşlarım olub

Rəsm çəkməyə isə lap erkən yaşlarımdan başlamışam. Uşaqlıqdan çoxlu rəngli karandaşlarım olub. Azərbaycan nağıllarını oxuduqca xoşum gələn obrazları rəsmlərimdə öz ruhuma uyğun olaraq təsvir etməyə, canlandırmağa çalışıram. Valideynlərim bu həvəsimi görüb məni Nizami Rayon Uşaq Yaradıcılıq Mərkəzinə gətirdilər və rəsm dərnəyinə yazdırdılar. Həmin vaxtdan da rəsmlə ciddi məşğul oluram. Müəllimim Nərmin Abdullayevadan rəsm çəkməyin incəliklərini, hansı rənglərdən mövzuya uyğun olaraq istifadə etməyi öyrənirəm.

"Mənim Azərbaycanım" rəsm müsabiqəsində

Artıq 50-yə yaxın rəsm əsərim var. "Mənim Azərbaycanım" adlı rəsm müsabiqəsində rəsmlərim bəyənilərək fəxri fərmanla mükafatlandırılıb. Bu rəsmimdə al-əlvan rənglərdən daha çox istifadə etmişdim. Xətai Sənət Mərkəzində "Rəngli kvartet" adlı fərdi rəsm sərgim də keçirilib, "Dostluğun sehri" adlı II beynəlxalq uşaq rəsm müsabiqəsində "Ölkəmizin adət və ənənələri" rəsmlərimsə diplomlarla mükafatlandırılıb.

Beynəlxalq rəsm müsabiqəsində I yeri tutdum

Ötən il həyatımda ən unudulmaz izlər buraxdı, o vaxt yaşadığım sevincli anları heç vaxt unutmayacağam. Mərkəzimizin rəsm studiyasının yetirmələrindən 13 nəfərin əl işi Hindistan və 2 nəfərin isə Yaponiyada keçirilmiş beynəlxalq rəsm müsabiqəsinə təqdim olunmuşdu. Onların arasında mənim də əsərim var idi. "Cırtdan" rəsm əsərim Hindistanda keçirilən beynəlxalq gənclər və uşaqların rəsm sərgisində nümayiş olunmuşdu və mütəxəssislər, eləcə də tamaşaçılar tərəfindən yüksək dəyərləndirilərək qızıl medala layiq görülmüşdü. Çox sevinirdim, çünki ilk dəfə idi ki, beynəlxalq müsabiqənin qızılını qazandım. Bu nailiyyətimə görə hamıdan çox sevimli müəllimim Nərmin Abdullayevaya minnətdaram. Bu, məhz onun üzərimdə olan hədsiz, sözlə ifadə olunması mümkün olmayan əməyin bəhrəsi idi.

2017-ci il yanvarın 29-da 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin yetirmələrinin mükafatlandırma mərasimi keçirildi. Şübhəsiz mən də həmin tədbirə dəvətli idim. Təhsil Nazirliyinin sektor müdiri Ayla Həsənova, Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana, Yaponiyanın ölkəmizdəki səfirliyinin mədəniyyət və ictimai əlaqələr üzrə rəhbəri Saki Uçidate həmin mərasimdə iştirak edirdilər. Çox həyəcanlı idim. Baxışlarımız anamla toqquşanda qəribə hisslər keçirirdim və tez də başımı aşağı salırdım. İndiyə qədər o anlar yaşadığım hissləri unuda bilmirəm. Nərmin müəllim bunu hiss edib mənə ürək-dirək verirdi, - sən ki, qalibsən, niyə həyəcan keçirirsən? - deyirdi. Öncə Mərkəzin direktoru Lalə Qəti yetirmələrinin beynəlxalq yarışlarda qazandığı nailiyyətlərdən söz açdı. Söylədi ki, mərkəzin 13 yeniyetmə rəssamından 2 nəfəri - İsmət Mirzəli və Hüseyn Cabbarov I yeri tutaraq qızıl medala, 4-ü münsiflər heyətinin xüsusi diplomuna, 7-si isə diplomlara layiq görülüblər. Adımı direktorun dilindən eşitcək, duruxdum, özümü saxlaya bilməyib anama sarıldım. Rəsm müəllimim Nərmin xanımla baxışlarımız toqquşdu. İlahi, o, nə qədər sevinirdi?! Həmin anda onun yaşadığı sevinc hissləri deyərdim ki, anama bərabər idi, bəlkə də ondan da artıq idi, çünki məhz onun üzərimdəki əməyinə verilən yüksək qiymət idi bu I yer.

Müəllimlərim məni təbrik etdilər

Ertəsi gün sevincimi məktəbdə dostlarımla da bölüşdüm. Müəllimlərim məni bağırlarına basıb öpdülər və təbrik etdilər. Sinif rəhbərim Ladena Ağayeva məni istedadlı şagirdi kimi nümunə göstərərək daha əzmkarlıqla çalışmağı, bol-bol uğurlar qazanmağı tövsiyə etdi. Yeri gəlmişkən qeyd edim ki, mərkəzin rəsm studiyasının yetirmələri Yaponiyada keçirilən "Planetimizi qoruyaq" adlı 18-ci beynəlxalq rəsm müsabiqəsində də iştirak ediblər. 2 nəfər - Tural Ağakişiyev və Güldanə Pənahova da I yerə layiq görülüblər.

Həmin gün mükafatlandırma mərasimi olduqca maraqlı keçdi. Qaliblərə medal, diplom və hədiyyələri təqdim etdilər. Sonra mərkəzin "Azəri inciləri" rəqs qrupunun ifasında milli və dünya rəqslərindən ibarət musiqi nömrələri təqdim olundu, hamılıqla deyib-güldük, şənləndik.

Şahmat oynamağı da çox sevirəm

Mən həm də şahmat həvəskarıyam. Boş vaxtlarımda qardaşım Əli ilə şahmat oynayırıq. Hər dəfə onu udanda elə sanıram ki, hansısa bir yarışmanın şahmatda da qalibi olmuşam. Əvvəllər bir az hövsələsiz olsam da bu oyun məni təmkinli olmağa çox alışdırdı. Bəzən bir gedişin üzərində yarım saat fikirləşməli oluram ki, qardaşımı uda bilim. Bu sahədə də uğur qazana bilsəm, ola bilsin gələcəkdə yarışlara da qatılacağam.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

Baş redaktor
Nurəddin Heydərov 538-21-66

Mühasibatlıq 539-67-74
Reklam və elanlar 539-20-77 (tel./faks)

Ünvan: AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

Bank hesabımız
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

Lisenziya № 022327, **İndeks:** 0003, **Tiraj** 4912, **Sifariş** 632

Məsul növbətçi: N.Rəhimov

Sabir yaradıcılığı şagirdlərin təqdimatında

Sifai SƏFƏROVA

Bakı Modern Təhsil Kompleksinin, Məktəb-Lisey Kompleksinin və S.C.Pişəvəri adına Humanitar Fənlər Gimnaziyasının birgə hazırladıqları Mirzə Ələkbər Sabir yaradıcılığından bəhs edən "Mən gedərəmsə, məramım yenə dünyada durar" adlı yarışma-bədii gecə keçirilib. Tədbirin mövzusunun Sabir yaradıcılığından bəhs etməsi də təsadüfi deyil. Çünki Sabir klassik üslubda lirik qəzəllər, duzlu, məzəli felyetonlar yazsa da, eyni zamanda, dərin məzmunlu, elmi-tənqidi və publisistik məqalələrin, müxbir məktublarının, poetik tərcümələrin də müəllifi olmuşdur. Bütün bu yazılar janrından və həcmindən asılı olmayaraq, böyük istedadın, qəlbi vətəndaşlıq duyğusu ilə döyünən bir qələm sahibinin əsərləri idi. Sabirin təsvir etdiyi ən kiçik hadisə və detallarda belə zamanın nəbzi, insanların duyğu və düşüncələri duyulur.

Yarışma 3 mərhələdən ibarət olub. Bütün mərhələlər hər çıxışdan sonra münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Tədbiri giriş sözü ilə Bakı Modern Təhsil Kompleksinin direktoru Mina Əliyeva açaraq şagirdlərə öz tövsiyələrini verib. Şagirdlər Sabir yaradıcılığından bəhrələnib müxtəlif tamaşalar, satirik səhnələr təqdim ediblər.

Sagirdlər I mərhələdə müəllifin həyat və yaradıcılığından bəhs edən təqdimat, II mərhələdə əsərlərindən ibarət səhnə, III mərhələdə isə əsərlərindən seçilmiş dialoq, monoloq və ya dil haqqında çıxışlar ediblər.

Müsabiqəni qiymətləndirmək üçün yaradılan ekspert qrupuna Təhsil Nazirliyinin nümayəndəsi Qorxmaz Mustafayev, Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident mükafatçısı Vahid Əliyev, Mirzə Ələkbər Sabirin nəvəsi, dosent Sevda Tahirli daxil ediliblər.

Sonda münsiflər heyəti tərəfindən məktəblərarası əməkdaşlığın və əlaqələrin yüksəldilməsi məqsədilə hər 3 məktəb I yerə layiq görülüb.

Etibarsız sayılır

Bakı şəhər 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Qəhrəmanova Afət Elxan qızına verilmiş B-259760 nömrəli attestat tapıldığı üçün etibarlı sayılır.

Beyləqan rayonu Şəfəq qəsəbə tam orta məktəbinin VIII sinfini 1980-ci ildə bitirmiş Mahmudova Sevda Məhərrəm qızına verilmiş 934622 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Milli Aviasiya Akademiyası tərəfindən 2011-ci ildə Abıyev Rövşən İman oğluna verilmiş BB-I-018680 nömrəli diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

Zaqatala şəhər 3 nömrəli tam orta məktəbin VIII sinfini 1976-cı ildə bitirmiş Canqayeva Amalya Məmməd qızına verilmiş 472485 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Yardımlı rayonu Hamarkənd kənd tam orta məktəbini 1988-ci ildə bitirmiş Nuriyev Famil Mirzağa oğluna verilmiş A-521317 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən 2002-ci ildə Sadıqov İlkin Süleyman oğluna verilmiş A-102179 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Kəlbəcər rayon 25 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Mirzəyeva Səbinə Kərəm qızına verilmiş B-410453 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Daşkəsən rayonu Mollahəsənli kənd tam orta məktəbini 1996-cı ildə bitirmiş Quluyev Elmar Famil oğluna verilmiş A-112465 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu tərəfindən 1982-ci ildə Salayev Eldar Sübhü oğluna verilmiş ИВ-028005 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Lənkəran şəhər 10 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Hüseynova Leyla Əzizağa qızına verilmiş B-153291 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Naxçıvan MR Culfa şəhər 1 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Şükürova Şölə Şükür qızına verilmiş A-667343 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən 2012-ci ildə Nəsibov Aslan Yunis oğluna verilmiş B-248114 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Yevlax rayonu Aran qəsəbə 1 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Dəmirova Ağça Adıgözəl qızına verilmiş 121467 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Saatlı rayonu Sarıcalar kənd tam orta məktəbinin IX sinfini 2001-ci ildə bitirmiş Muruşova (Mehdizadə) Minəş Teyyub qızına verilmiş 478844 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Kooperasiya Universiteti tərəfindən 2009-cu ildə Babayeva Tərgül Bulud qızına verilmiş B-166483 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Kürdəmir şəhər 6 nömrəli tam orta məktəbi 1979-cu ildə bitirmiş Cabbarova (Hüseynova) Məlahət Surxay qızına verilmiş 015126 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Yevlax rayonu Xanabad kənd tam orta məktəbini 2003-cü ildə bitirmiş Mustafayeva Aynurə Firqət qızına verilmiş 660952 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

12 nömrəli Bakı Peşə Məktəbi tərəfindən 1991-ci ildə Morozova Marina Vladimirovnaya verilmiş Б-455527 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dillər Universiteti tərəfindən 2004-cü ildə Mikayılova Xəyalə Hacı qızına verilmiş B-016033 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən 2017-ci ildə Qurbanova Elnarə Elton qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İmişli şəhər 4 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Əliyeva Esmira Əhmədağa qızına verilmiş AK-333898 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Bakı Sənaye-Pedaqoji Texnikumu tərəfindən 2010-cu ildə İsmayılov Roman Qadir oğluna verilmiş BB-II-092886 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Xəzər Universiteti tərəfindən 2017-ci ildə Nəsirov Müşfiq Hüseynxan oğluna verilmiş Peşəkar İnkişaf Sertifikatı itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 53 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Məmmədov Pərviz Akif oğluna verilmiş C-012722 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Cəbrayıl rayonu Sirik kənd tam orta məktəbini 2011-ci ildə bitirmiş Məmmədli Şirxan Qasım oğluna verilmiş A-043294 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Füzuli rayonu Kərimbəyli kənd tam orta məktəbini 1990-cı ildə bitirmiş Əmənov Qulu Yolçu oğluna verilmiş 118012 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 104 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Abbasov Rövşən Kamil oğluna verilmiş B-381409 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Göygöl rayonu Şəhriyar (Mirzik) kənd tam orta məktəbini 1990-cı ildə bitirmiş İslamova (Əsgərova) Xatirə Məhərrəm qızına verilmiş A-042282 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 104 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Göyüşov Anar Ağakişi oğluna verilmiş B-488958 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Sabirabad rayonu Rüstəmli kənd tam orta məktəbini 2009-cu ildə bitirmiş Əliyeva Lamiyə Nurəddin qızına verilmiş A-632086 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 245 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əliyev Arslan Teymur oğluna verilmiş A-091469 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Neft Akademiyası tərəfindən 2008-ci ildə Namazov Fuad Elxan oğluna verilmiş B-123734 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

Astara rayonu Təngərüd kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Məmmədova Hicrin Bəylər qızına verilmiş A-618349 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universiteti tərəfindən 2001-ci ildə Hüseynov Xalıq Babək oğluna verilmiş A-072108 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən 2006-cı ildə Mailov Ramin Aleksandroviçə verilmiş B-072391 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

Bakı Slavyan Universiteti tərəfindən 2014-cü ildə Şükürov Elşən Məmməd oğluna verilmiş A-032566 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Cəlilabad rayonu Muğan kənd tam orta məktəbinin IX sinfini 2008-ci ildə bitirmiş Həmidov Məhəmməd İbarət oğluna verilmiş 656067 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 195 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Niftəliyeva Bəyim Dünyamir qızına verilmiş A-309550 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Bakı Politexnik Texnikumu tərəfindən 1978-ci ildə Abdullayev Abdulla Məcid oğluna verilmiş Ю-013209 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən 2017-ci ildə Şükürlü Nərmin Şahin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qax rayonu Qorağan kənd tam orta məktəbinin IX sinfini 2014-cü ildə bitirmiş Şəmilov İslam Sahib oğluna verilmiş A-472706 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 44 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş İsgəndərov Elşad Kərim oğluna verilmiş A-290379 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan İnşaat və Mühəndisləri Universiteti tərəfindən 1995-ci ildə Həmidov Tərlan Telman oğluna verilmiş AB-I-036495 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Sumqayıt şəhər İnternat tipli gimnaziyanı 2013-cü ildə bitirmiş Səfərli Cavid Camal oğluna verilmiş A-225390 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Sumqayıt şəhər İnternat tipli gimnaziyanı 2014-cü ildə bitirmiş Səfərli Kəramət Camal oğluna verilmiş A-343915 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 5 nömrəli tam orta məktəbi (keçmiş 292) 2004-cü ildə bitirmiş İbayeva (Məmmədova) Aygün Faiq qızına verilmiş B-009720 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi-Pedaqoji Mərkəzinin direktoru Faiq Şahbazlıya atası

ŞABAN MÜƏLLİMİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin rəhbərliyi və kollektivi "Azərbaycan müəllimi" qəzetinin şöbə redaktoru Şakir Cəfərova anası

ƏRKİNAZ XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhər 18 nömrəli tam orta məktəbin rəhbərliyi və pedaqoji kollektivi məktəbin müəllimi Məryəm Hüseynovaya atası

QABİL HÜSEYNOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İmişli Rayon Təhsil Şöbəsinin əməkdaşları şöbənin müdiri Ramiz Əmirova qaynı, respublikanın əməkdar həkimi

İLQAR RƏHİMOVUN

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

10 largest UK national parks

Name	Where?	Area (km2)	When did it become a national park?
Cairngorms	Scotland	4,528	2003
Lake District	England	2,292	1951
Snowdonia	Wales	2,176	1951
Loch Lomond and the Trossachs	Scotland	1,865	2002
Yorkshire Dales	England	1,769	1954
South Downs	England	1,624	2010
Peak District	England	1,437	1951
North York Moors	England	1,434	1952
Brecon Beacons	Wales	1,344	1957
Northumberland	England	1,048	1956

Source: UK Association of National Park Authorities (www.nationalparks.gov.uk). Data extracted in 2012.

Activity 6

Match a phrase on the left with a phrase on the right to make a complete sentence.

1. The Brecon Beacons
2. The South Downs became
3. The Yorkshire Dales cover
4. Snowdonia was one of
5. The Peak District and Lake District

a. a national park in 2010.
b. an area of 2,176 km^2.
c. are in England.
d. are in Wales.
e. the first national parks.

Activity 7

Reorder the words to make true sentences.

1. Downs / are / The / in England / South
2. became / this century / and / national parks / Loch Lomond and / the Cairngorms
3. national parks / in / areas became / Three / year / the same
4. is / National Park / sixty years / North York Moors / old / The
5. and / the North York Moors / size / The Peak District / are nearly / the same

The Cairngorms National Park in Scotland

Visiting a national park by bicycle



The south coast of England

Useful links >

This content on video: http://learnenglish.britishcouncil.org/en/britain-great

UK Association of National Park Authorities: www.nationalparks.gov.uk

Answers

Activity 6

1. d; 2. a; 3. b; 4. e; 5. c

Activity 7

1. The South Downs are in England.
2. Loch Lomond and the Cairngorms became national parks this century.
3. Three areas became national parks in the same year.
4. The North York Moors National Park is sixty years old.
5. The Peak District and the North York Moors are nearly the same size.

To find more English language activities visit:
http://learnenglish.britishcouncil.org

© British Council 2013

COUNTRYSIDE IS GREAT BRITAIN